Xalqın qəzeti!

# Xalq qəzeti

№ 159 (30275) 30 iyul 2023-cü il, bazar

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | veb-sayt: www.xalqqazeti.az

## Günün xəbəri

İyulun 29-da Türk dünyasının mədəniyyət paytaxtı Şuşada Türk Dövlətlərinin Həmkarlar İttifaqının yaradılması haqqında müqavilə imzalandı.

## Azərbaycan-Mərakeş əlaqələri xoş ənənələrə malikdir

### Mərakeşin Kralı Əlahəzrət VI Məhəmmədə



**Əlahəzrət!**
**Əziz Qardaşım!**

Mərakeş Krallığının milli bayramı münasibətilə Sizi və Sizin simanızda qardaş xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir, ən səmimi arzularımı çatdırıram.

Azərbaycan–Mərakeş əlaqələri xoş ənənələrə malikdir. Əminəm ki, ölkələrimiz arasında ənənəvi dostluq münasibətlərini möhkəmləndirmək, həm ikitərəfli, həm də çoxtərəfli müstəvidə qarşılıqlı maraq doğuran əməkdaşlığımızı genişləndirmək üçün bundan sonra da birgə səylər göstərəcəyik.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, qardaş xalqınıza daim əmin-amanlıq və rifah diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 27 iyul 2023-cü il**

## Qarabağ ermənilərinin hüquqları ölkə Konstitusiyası əsasında təmin ediləcək

**Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bölgədəki son vəziyyətə dair bəyanat yayıb.**



Bəyanatda bildirilib ki, Azərbaycan Respublikası 30 ilə yaxın müddətdə Ermənistanın hərbi təcavüzü, ərazilərimizin işğalı, qoca, qadın, uşaq demədən azərbaycanlılara qarşı kütləvi qırğınlar törədilməsi ilə üzləşib, bir milyona yaxın azərbaycanlı məcburi köçkünə və qaçqına çevrilib.

BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi dörd qətnamədə Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün tanınmasına, işğalçı qüvvələrin Azərbaycan ərazilərini dərhal tərk etməsinin tələb olunmasına baxmayaraq, Ermənistan bütün bu çağırışlara heç bir məhəl qoymayıb.

2020-ci ildə 44 günlük Vətən müharibəsində Azərbaycan xalqı Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında tarixi Zəfər qazanaraq torpaqlarımızın işğalına son qoyub…

*(ardı 3-cü səhifədə)*

## Planlaşdırılmış təxribatın “züytutanları”

**Doğrudanmı, Qarabağ iqtisadi rayonunda yaşayan ermənilər yeməyə çörək tapmırlar, sanitar-gigiyenik vasitələrdən məhrum olublar? Real durumun heç də belə olmadığını İrəvanın “karvan-şousu”na “ləbbeyk” deyənlərin özləri də yaxşı bilirlər. Amma, buna baxmayaraq, onlar Bakı ilə ultimativ tonda danışmağa başlayıb, “Laçın dəhlizi”nin təcili açılmasını tələb edirlər.**



Əvvəlcədən təşkil olunduğu şübhə doğurmayan bu siyasi şantaja və dezinformasiyaya söykənən təzyiqlər, ermənipərəst ölkələrin və beynəlxalq qurumların bəyanatları bir şeydən xəbər verir: Azərbaycana münasibətdə ikili standart mexanizmi yenidən işə salınıb.

Avropa İttifaqının vasitəçiliyi ilə keçirilən sonuncu Brüssel Zirvə görüşündən sonra Aİ Şurasının prezidenti Şarl Mişel Bakının Ağdam-Xankəndi yolundan alternativ marşrut kimi istifadə təklifini bəyəndiyini rəsmən açıqladı. Bəs həmin beştərəfli danışıqların gedişində niyə Ermənistanın baş naziri yüklərin Laçın yolu vasitəsilə daşınmasında israr etmədi? Axı, o, Bakının bu təklifinə narazılığını Brüssel görüşündən sonra da dilinə gətirə bilərdi. Amma heç nə demədi.

*(ardı 4-cü səhifədə)*

## Türk Dövlətlərinin Həmkarlar İttifaqları Təşkilatı yaradıldı



Səhifə ⇨ 3

## Heç bir cani cəzasız qalmayacaq




Səhifə ⇨ 9

## 30 min ton ərzaqlıq buğda tədarük olunub



**Respublikamızda ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsi aşağı olduğu üçün dövlətimizin başçısı tərəfindən bu istiqamətdə yeni hədəflər müəyyənləşdirilib və qarşıdakı 3-4 ildə vəziyyəti yaxşılaşdırmaq məqsədilə müvafiq qurumlara tapşırıqlar verilib.**

Eyni zamanda cari ilin əvvəlindən etibarən 5 il müddətində ərzaqlıq buğdaya məhsul subsidiyasının tətbiqinə başlanılıb, daxili bazarda strateji mallar üzrə qısamüddətli kəskin qiymət dəyişmələrinin qarşısını almaq üçün Dövlət Ehtiyatları Agentliyi yaradılıb. Dövlət Taxıl Fondu isə bu agentliyin sərəncamına verilib.

*(ardı 6-cı səhifədə)*

## Separatçıların son çırpıntıları

**Azərbaycan və Ermənistan xarici işlər nazirləri arasında iyulun 25-də Moskvada keçirilən görüş başa çatdıqdan bir gün sonra hayların baş naziri Nikol Paşinyan növbəti təxribatçı addımı atdı. O, Azərbaycanın suveren ərazilərinə “humanitar yük” adı altında avtomobil konvoylarının göndəriləcəyini bildirdi. Ölkəmizlə razılaşdırmadan atılan bu addım Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı növbəti təxribatdır. Bu təxribatın Ermənistan dövləti və baş nazir səviyyəsində təşviqi rəsmi İrəvanın sülh müqaviləsini imzalamaqda maraqlı olmadığını bir daha nümayiş etdirir.**

Bütün məsələlərdə qətiyyət nümayiş etdirən, iradəsinə heç bir qüvvənin təsir edə bilmədiyi rəsmi Bakının bu təxribatçı addımın da icra olunmasına imkan verməyəcəyi gün kimi aydın idi. Bununla belə, İrəvan Qarabağın erməni sakinlərinin, guya, böhranla üzləşdiyini iddia edərək, Bakının isə bu “böhran”ın aradan qaldırılmasında maraqlı olmadığı görüntüsünü yaratmaq, ölkəmizə qarşı beynəlxalq ictimaiyyətin təzyiqinə nail olmaq üçün şou düzənləmək yolunu tutdu.

*(ardı 3-cü səhifədə)*

## Beynəlxalq daşımalarda payımız getdikcə artır

**Bu gün Azərbaycanın sosial-iqtisadi həyatının bütün sahələrində olduğu kimi, nəqliyyat sektorunda da irihəcmli layihələr reallaşdırılır, respublikamız beynəlxalq nəqliyyat dəhlizlərinin formalaşması prosesinə fəal şəkildə qoşulur, eləcə də ölkənin tranzit potensialının artırılması istiqamətində mühüm addımlar atılır. Bütün bu tədbirlər isə yük daşımalarında yüksək göstəricilərin əldə edilməsi ilə nəticələnir.**



Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin (AYNA) cari ilin 6 ayının yekunlarına dair statistik məlumatlarına əsasən, avtomobil nəqliyyatı ilə beynəlxalq yükdaşımalarında bir sıra göstəricilər üzrə davamlı artım müşahidə olunur. Agentliyin məlumatında bildirilir ki, 2022-ci ilin müvafiq dövrü ilə 2023-cü ilin yanvar–iyun aylarının göstəricilərinin müqayisəsi daşımalarda istifadə edilən nəqliyyat vasitələri parkının genişləndiyini, daşıyıcıların sayının, eləcə də Azərbaycan daşıyıcılarının bazar paylarının daha da artdığını göstərir.

*(ardı 7-ci səhifədə)*

## Tarixi filmlər niyə az çəkilir?

Səhifə ⇨ 10

## “Dost Aqropark” dünya bazarına “Qarabağ” brendi ilə çıxacaq




Səhifə ⇨ 6

## Asiya İnfrastruktur İnvestisiya Bankı ilə “yaşıl” və dayanıqlı əməkdaşlıq




Səhifə ⇨ 7

# Tomas Qoltzun ailəsinə

Məşhur jurnalist, yazıçı, publisist, Azərbaycanın böyük dostu Tomas Qoltzun vəfatı xəbəri bizi olduqca kədərləndirdi.

Tomas Qoltz uzun illərdən bəri jurnalistika sahəsində davamlı və səmərəli fəaliyyəti, zəngin təcrübəsi və yüksək peşəkarlığı ilə böyük nüfuz qazanmış, dərin araşdırmaları, hərtərəfli, qərəzsiz təhlilləri və məqalələri ilə "qaynar" münaqişə nöqtələrində sülhə və barışığa nail olunmasına töhfə vermişdir.

Tomas Qoltz Azərbaycanın böyük dostu idi. O, Azərbaycana dəfələrlə səfər etmiş, ölkəmizin ən əhəmiyyətli tarixi anlarına şahidlik etmişdir. Azərbaycanda ona hər zaman xüsusi hörmət və rəğbətlə yanaşmışlar. Tomas Qoltz 1992-ci ilin fevralında Xocalı soyqırımından sonra faciə ilə bağlı dünya ictimaiyyətinə məlumatları çatdıran ilk jurnalistlərdən idi. Onun artıq keçmişdə qalmış Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı yazdığı məqalələrin, kitabların və çəkdiyi filmlərin Azərbaycanın haqq səsinin dünyaya çatdırılmasında əvəzsiz töhfəsi olmuşdur.

Tomas Qoltzun Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevlə aralarında mövcud olmuş hörmət və ehtiramı, səmimi dostluq münasibətlərini yüksək tuturam. Onunla görüşlərimi və söhbətlərimi və xüsusilə də bu ilin mayında Şuşadakı görüşümüzü həmişə ən xoş təəssüratlarla xatırlayıram. Tomas Qoltzun parlaq xatirəsi xalqımızın qəlbində daim yaşayacaqdır.

Bu ağır anlarda dərdinizi bölüşür, Mehriban xanım ilə birlikdə ailənizin bütün üzvlərinə dərin hüznlə başsağlığı verirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 29 iyul 2023-cü il**

# Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 21 oktyabr tarixli 1862 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 21 oktyabr tarixli 1862 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 10, maddə 1139) ilə təsdiq edilmiş "İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin Nizamnaməsi"nin 5.1-ci bəndində "6 778 392 (altı milyon yeddi yüz yetmiş səkkiz min üç yüz doxsan iki)" sözləri "6 783 392 (altı milyon yeddi yüz səksən üç min üç yüz doxsan iki)" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 29 iyul 2023-cü il**

# "Nəqliyyat vasitələrinin ödənişli parklanmasından daxil olan vəsaitdən istifadə Qaydası"nın təsdiq edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 16 dekabr tarixli 467-VQD nömrəli Qanununun tətbiqi haqqında" 2017-ci il 23 fevral tarixli 1268 nömrəli və "Bakı şəhərində nəqliyyat vasitələri sahiblərinin dayanma, durma və parklanma qaydalarına riayət etməsinin təmin olunması və yol hərəkətinin təşkili sahəsində fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 2018-ci il 6 iyul tarixli 181 nömrəli fərmanlarının icrası ilə əlaqədar **qərara alıram:**

**1.** "Nəqliyyat vasitələrinin ödənişli parklanmasından daxil olan vəsaitdən istifadə Qaydası" təsdiq edilsin (əlavə olunur).

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 29 iyul 2023-cü il**

***Azərbaycan Respublikası Prezidentinin***
***2023-cü il 29 iyul tarixli Fərmanı ilə təsdiq edilmişdir***

# Nəqliyyat vasitələrinin ödənişli parklanmasından daxil olan vəsaitdən istifadə qaydası

**1. Ümumi müddəalar**

1.1. Nəqliyyat vasitələrinin ödənişli parklanmasından daxil olan vəsaitdən istifadə Qaydası (bundan sonra – Qayda) "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun 53-cü maddəsinin XII hissəsinə əsasən hazırlanmışdır və dövlət avtomobil yollarında nəqliyyat vasitələrinin ödənişli parklanmasından daxil olan vəsaitdən (bundan sonra – vəsait) istifadə ilə bağlı təşkilati və hüquqi məsələləri tənzimləyir.

1.2. Bakı şəhərinin inzibati ərazisi istisna olmaqla, dövlət avtomobil yollarında təşkil edilmiş parklanma yerlərindən daxil olan vəsait Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin (bundan sonra – Nazirlik) Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlığı Agentliyində açılmış büdcədənkənar vəsaitlər üzrə xüsusi xəzinə hesabına yığılır.

1.3. Bakı şəhərinin inzibati ərazisində dövlət avtomobil yollarında təşkil edilmiş parklanma yerlərindən daxil olan vəsait Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin (bundan sonra – Agentlik) bank hesabına yığılır.

1.4. Bu Qaydada istifadə olunan anlayışlar "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanunu və Azərbaycan Respublikasının digər normativ hüquqi aktları ilə müəyyən edilmiş mənaları ifadə edir.

**2. Vəsaitdən istifadə istiqamətləri**

2.1. Nazirlik və Agentlik tərəfindən vəsaitdən aşağıdakı istiqamətlər üzrə istifadə olunur:

2.1.1. parklanma yerlərinin idarə olunması və saxlanılması (kommunal, mühafizə, təsərrüfat və rabitə xərcləri);

2.1.2. parklanma ilə əlaqədar yol infrastrukturu xərclərinin ödənilməsi, maddi və qeyri-maddi aktivlərin, o cümlədən parkomatların, foto və ya video qeydiyyat funksiyalarına malik xüsusi texniki vasitələrin alınması və onların yararlı vəziyyətdə saxlanılması;

2.1.3. parklanma ilə əlaqədar tətbiqlərin yaradılması və onların saxlanılması;

2.1.4. parklanma ilə bağlı maarifləndirmə və təbliğat işləri;

2.1.5. nəqliyyat vasitələrinin saxlanılması üçün balanslarında olan qaraj və duracaqların idarə olunması və saxlanılması;

2.1.6. yol hərəkətinin təşkilinin texniki vasitələrinin tətbiq edilməsi;

2.1.7. parklanma qaydalarını pozmuş şəxslərin inzibati məsuliyyətə cəlb edilməsi üzrə tədbirlər görülməsi üçün zəruri texniki vasitələrin alınması, parklanma qaydalarını pozmuş şəxslərə inzibati xəta haqqında iş üzrə materialların göndərilməsi ilə bağlı poçt xərclərinin ödənilməsi;

2.1.8. işçilərinin sosial müdafiəsinin gücləndirilməsi.

2.2. Bu Qaydanın 2.1-ci bəndində nəzərdə tutulanlarla yanaşı, Agentlik həmin vəsaitdən ümumi istifadədə olan avtomobil nəqliyyatı vasitələri ilə müntəzəm sərnişindaşıma və ona aid infrastrukturun inkişaf etdirilməsi istiqaməti üzrə də istifadə edir.

2.3. Nazirliyə daxil olan vəsaitin 50 faizədək, Agentliyə daxil olan vəsaitin isə 30 faizədək hissəsindən bu Qaydanın 2.1.8-ci yarımbəndində müəyyən edilmiş istiqamət üzrə istifadə olunur.

**3. Yekun müddəalar**

3.1. Vəsaitdən istifadəyə dair rüblük hesabatlar artan yekunla tərtib edilir. Rüblük hesabat hər rübdən sonrakı ayın 20-dən gec olmayaraq, Nazirlik tərəfindən, Bakı şəhərinin inzibati ərazisi üzrə isə Agentlik tərəfindən Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim edilir.

3.2. Agentliyin hesabına köçürülən vəsaitin uçotu "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununun 12-1-ci maddəsinə uyğun olaraq həyata keçirilir.

3.3. Bu Qaydada büdcədənkənar vəsaitdən istifadə ilə bağlı nəzərdə tutulmayan digər məsələlər Azərbaycan Respublikasının dövlət büdcəsindən maliyyələşən idarə və təşkilatların büdcədənkənar vəsaitləri haqqında Əsasnaməyə uyğun olaraq həyata keçirilir.

# Əli Əsədov Bakı Gəmiqayırma Zavodunda olub

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov iyulun 29-da Bakı Gəmiqayırma Zavodunda olub.**



Nazirlər Kabinetinin mətbuat xidmətindən bildiriblər ki, Baş nazir zavodda görülmüş işlər, bugünədək icra edilmiş və potensial layihələrlə tanış olub.

Tanışlıq zamanı iqtisadiyyat naziri Mikayıl Cabbarovun, "Azərbaycan İnvestisiya Şirkəti" ASC-nin icraçı direktoru Ülvi Mansurovun və Bakı Gəmiqayırma Zavodunun İdarə Heyətinin sədri Elşad Nuriyevin iştirakı ilə müşavirə keçirilib.

Müşavirədə zavodun fəaliyyəti, həmçinin onun istehsal gücünün artırılması planları ilə bağlı təqdimatlar edilib, ölkəmizin nəqliyyat-tranzit potensialının artması fonunda müəssisənin işinin daha səmərəli şəkildə qurulmasının, onun fəaliyyətinin kommersiya səmərəliliyinin artırılmasının zəruriliyi vurğulanıb.

Eyni zamanda, zavodun dayanıqlı və istehsal gücündən tam istifadə edilməsi üçün maliyyələşmə mexanizminin və uzun müddətli kreditlərin cəlb olunması, müəssisənin istehsal gücünün artırılması üçün yeni qapalı sahələrin yaradılması, həmçinin bərpaolunan enerji istehsalı üçün zavodun texniki imkanlarının genişləndirilməsi məsələləri müzakirə edilib.

Zavodun potensialının artırılması, istehsalat işlərinin genişləndirilməsi ilə bağlı konkret təkliflərin təqdim edilməsi üçün İqtisadiyyat Nazirliyinə tapşırıq verilib.

Daha sonra zavodun ərazisində fəhlələrlə görüş olub.

***"Xalq qəzeti"***

# Ermənistan hərbi cinayətkarın əməllərinə haqq qazandırmağa çalışır

**Ermənistanın ictimai xadimləri və media qurumları hərbi cinayətkarın əməllərinə dövlət səviyyəsində haqq qazandırmağa çalışır.**



Bunu Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "Twitter" paylaşımında bildirib.

Hikmət Hacıyevin sözlərinə görə, hazırda Ermənistanın bir sıra rəsmi, ictimai, media qurumları 25 mülki azərbaycanlını qətlə yetirmiş hərbi cinayətkar Vaqif Xaçatryanın saxlanmasına "etiraz etməklə" hərbi cinayətlərə dövlət səviyyəsində dəstək verir və onların bu fəaliyyəti cinayətkarın əməllərinə haqq qazandırmaqdan başqa bir şey deyil.

Həmçinin əlavə olunub ki, Xaçatryan BQXK-nın xətti ilə tibbi evakuasiyadan istifadə edərək Qarabağdan qaçmağa çalışıb.

***"Xalq qəzeti"***

# DSX hərbi hissələrində andiçmə mərasimi



**Dünən Dövlət Sərhəd Xidmətinin (DSX) hərbi hissələrində gənc əsgərlərin andiçmə mərasimi keçirilib.**

Çıxış edənlər gənc əsgərlərin DSX-nin heyəti sırasına daxil olduqları dövrün ölkəmizin Sərhəd Mühafizəsi tarixinin şərəfli dövrünə təsadüf etdiyini, Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində işğalçı düşmən qüvvələrinə qarşı mətinliklə döyüşmüş sərhədçilərin müqəddəs torpaqlarımızda dövlət sərhədlərinin toxunulmazlığını ən yüksək səviyyədə təmin etdiklərini bildiriblər.

Vətənə, dövlətə, xalqa və dövlətçiliyə sədaqət andı içərək müqəddəs dövlət sərhədlərini şərəflə qorumaq məsuliyyətini üzərinə götürən gənc əsgərlər hərbi anda daim sadiq qalacaqlarını əminliklə ifadə ediblər.

Valideynlər yaradılmış şəraitə görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirib, övladlarını təbrik edərək Vətən sərhədlərinin keşiyində ayıq-sayıq dayanmağı tövsiyə ediblər.

Mərasim gənc əsgərlərin təntənəli marşla tribuna önündən keçidi ilə başa çatıb.

***"Xalq qəzeti"***

# Müdafiə Nazirliyində xidməti müşavirə

**İyulun 29-da müdafiə naziri, general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə xidməti müşavirə keçirilib. Müşavirədə Azərbaycan–Ermənistan şərti sərhədində və Rusiya sülhməramlı qüvvələrinin müvəqqəti yerləşdiyi Qarabağ iqtisadi rayonunda mövcud əməliyyat şəraiti təhlil edilib.**



Nazir, Azərbaycanın hava məkanından istifadə etməklə uçuşlar yerinə yetirən yerli və xarici aviaşirkətlərin sərnişin təyyarələrinin GPS peyk naviqasiya sistemlərinə qarşı Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdirildiyi ərazilərimizdəki qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən radiomaneələrin tətbiqinin son günlərdə intensivləşməsinə toxunaraq, hava gəmilərinin təhlükəsizliyinin təminatı ilə bağlı müvafiq göstərişlər verib.

Müşavirədə yeni tədris dövrü ərzində qoşunların döyüş hazırlığı və hərtərəfli təminatı, xüsusilə qışa hazırlıq məsələləri müzakirə edilib, qarşıda duran bir sıra tapşırıqlar aidiyyəti üzrə qoşun növü komandanlarına çatdırılıb.

Xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsi zamanı təhlükəsizlik qaydalarına ciddi riayət edilməsi və yanğın əleyhinə zəruri tədbirlərin görülməsinin əhəmiyyəti qeyd olunub.

Daha sonra ölkədə "Heydər Əliyev İli" elan edilməsi ilə bağlı orduda keçirilən tədbirlər barədə məruzələr dinlənilib, bu istiqamətdə fəaliyyətlərin davam etdirilməsi barədə aidiyyəti üzrə vəzifəli şəxslərə göstərişlər verilib.

Müşavirədə, həmçinin azad edilmiş ərazilərdə yerinə yetirilən mühəndis təminatı tədbirlərinin plana uyğun davam etdirilməsinə xüsusi diqqət yetirilməsi tapşırılıb.

Sonda general-polkovnik Z.Həsənov İstanbulda keçirilən "IDEF - 23" 16-cı Beynəlxalq Müdafiə Sənayesi Sərgisi çərçivəsində keçirilən görüşlərin əhəmiyyətini qeyd edərək, silahlanmaya yeni qəbul edilən silah və döyüş texnikasının şəxsi heyət tərəfindən mənimsənilməsi, həmçinin Su-25 ML (modernizə edilmiş "Laçın") hücum təyyarəsinin atəş imkanlarının öyrənilməsi və döyüş tapşırıqlarının icrası zamanı effektiv tətbiqinə dair konkret tapşırıqlar verib.

***"Xalq qəzeti"***

# "Laçın" təyyarəsinin sınaq uçuşları keçirilib

**Azərbaycan Ordusunun istifadəsində olan silah və texnikanın ən yeni texnologiyaların tətbiqi ilə modernizə edilməsi prosesi həyata keçirilir. Plana uyğun olaraq, Türkiyəyə göndərilmiş Su-25 hücum təyyarəsi "Türk Aviasiya və Kosmik Sənaye Şirkəti" (TUSAŞ) tərəfindən modernləşdirmə işləri yekunlaşdıqdan sonra Azərbaycana gətirilib.**



Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, "Laçın" layihəsi adı altında modernizasiya edilərək yenidən hərbi pilotlarımızın istifadəsinə verilən Su-25ML (modernizə edilmiş "Laçın") təyyarəsinin sınaq uçuşları keçirilib.

Təyyarəyə yeni quraşdırılmış Türkiyə istehsalı olan ağıllı bomba və raketlərin testləri yekunlaşıb və ümumilikdə görülən işlər hərbi mütəxəssislər tərəfindən müsbət qiymətləndirilib.

Qeyd edək ki, İstanbulda "IDEF - 23" 16-cı Beynəlxalq Müdafiə Sənayesi Sərgisi çərçivəsində iyulun 26-da Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Türkiyə Respublikasının "TUSAŞ" şirkəti arasında "Su-25 modernləşdirmə layihəsi ("Laçın") müqaviləsinin imzalanma mərasimi" keçirilib.

***"Xalq qəzeti"***

# Qarabağ ermənilərinin hüquqları ölkə Konstitusiyası əsasında təmin ediləcək



(əvvəli 1-ci səhifədə)

Bununla yanaşı, Azərbaycanın hakimiyyət orqanları tərəfindən Qarabağ bölgəsinin yerli erməni sakinləri ilə dialoq istiqamətində ardıcıl addımlar atılıb. Ermənistan tərəfi isə bunun əksinə, "beynəlxalq mexanizm çərçivəsində Bakı-Xankəndi danışıqları vasitəsilə Qarabağ ermənilərinin hüquq və təhlükəsizliyinin təmin edilməsi" kimi əsassız təkliflə çıxış edərək, Azərbaycan və yerli erməni sakinlər arasında təmaslara maneçilik törədib, faktiki olaraq ölkəmizə qarşı ərazi iddialarını başqa ad altında davam etdirib.

2020-ci il 10 noyabr Bəyanatının bütün hərbi fəaliyyətlərin dayandırılmasına dair müddəasına və digər beynəlxalq öhdəliklərə zidd olaraq, Ermənistan tərəfindən Azərbaycan ərazilərinin intensiv minalanması halları, Azərbaycan ərazilərinə 2021-ci il istehsalı olan minalar gətirərək basdırması, beynəlxalq ictimaiyyətin Ermənistanın məqsədli şəkildə mina təhdidinə göz yumması nəticəsində 2020-ci ilin noyabr ayından bəri iki jurnalist daxil olmaqla, 303 azərbaycanlı minaların qurbanına çevrilib.

Vurğulanıb ki, Azərbaycan öz sərhədlərinə nəzarət və Ermənistanın qeyri-qanuni fəaliyyətinin qarşısını almaq məqsədilə özünün suveren ərazilərində "Laçın" dövlət sərhədindən buraxılış məntəqəsi təsis edib. Azərbaycan tərəfindən erməni sakinlərin, Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) və Rusiya sülhməramlı kontingentinin sərhəd buraxılış məntəqəsindən keçidinin təmin olunmasına baxmayaraq, Ermənistan tərəfi ərazilərimizdə qeyri-qanuni fəaliyyətini davam etdirmək məqsədilə, bölgədə saxta "gərgin humanitar vəziyyət" barədə iddialar yayıb. Eyni zamanda, iyunun 15-də sərhədçilərimizin atəşə tutulması, qaçaqmalçılığa cəhd edilməsi, iyulun 26-da yük avtomobillərinin Azərbaycan ərazilərinə icazəsiz göndərilməsi kimi təxribatlar törədib.

Azərbaycan tərəfinin erməni sakinlərin ehtiyaclarının qarşılanması üçün Ağdam-Xankəndi yolundan və digər alternativ yollardan istifadə daxil olmaqla, bir sıra təkliflər irəli sürməsinə və onların Avropa İttifaqı, BQXK tərəfindən dəstəklənməsinə baxmayaraq, erməni tərəfinin bu təkliflərə qarşı çıxması, alternativ yollara beton maneələr düzməklə əraziyə girişi bloklaması Ermənistanın humanitar vəziyyət barədə iddialarının siyasi şantaj və manipulyasiya olduğunu bir daha göstərib.

Ermənistanın məqsədi bölgəyə üçüncü tərəfləri cəlb etmək, gərginliyin coğrafiyasını genişləndirmək və sülh prosesini iflasa uğratmaqdan ibarətdir.

"Otuz il ərzində ərazilərimizin işğalına göz yuman bir sıra ölkələrin və beynəlxalq təşkilatların Azərbaycana qarşı qərəzli bəyanatlar verməsi qəbuledilməzdir. Ermənistanın manipulyasiyalarına aldanıb qərəzli bəyanatlar verən ölkələrdən və beynəlxalq təşkilatlardan Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə hörmət etməyi, ölkəmizin daxili işlərinə qarışmamağı və ikili standartlar siyasətinə son qoymağı tələb edirik.

Azərbaycan özünün Qarabağ bölgəsində yaşayan erməni sakinlərin hüquqlarını ölkə Konstitusiyası əsasında təmin edəcək, öz suverenliyi və ərazi bütövlüyünə qarşı istənilən addımın qarşısını qətiyyətlə alacaqdır", - deyə bəyanatda vurğulanıb.

# Ceyhun Bayramov BMT Baş katibinə məktub ünvanlayıb

**Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov BMT-nin Baş katibi Antonio Quterreşə məktubla müraciət edib.**

Bu barədə XİN mətbuat xidmətinin rəhbəri Ayxan Hacızadə "Twitter"də yazıb.

Qeyd olunub ki, Azərbaycan XİN rəhbəri Ermənistanı Ağdam-Xankəndi marşrutu ilə yüklərin Qarabağa çatdırılmasına qarşı olmasını dayandırmağa çağırıb.

# Türk Dövlətlərinin Həmkarlar İttifaqları Təşkilatı yaradıldı



**İyulun 29-da Şuşa şəhərində Türk Dövlətlərin Həmkarlar İttifaqlarının birgə yığıncağı keçirilib.**

Türk Dövlətlərinin Həmkarlar İttifaqları arasında münasibətlərin yüksələn xətlə inkişaf etdiyini deyən AHİK-in sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev, Türk ölkələrinin həmkarlar ittifaqlarının təşkilatlanmasının əhəmiyyətindən söz açıb.

TÜRK-İŞ-in sədri Ergün Atalay bildirib: Ölkələrimizin həmkarlar ittifaqları səviyyəsində də əlaqələrimizi daha da genişləndirmək, əmək hüquqlarının qorunması istiqamətində səylərimizi birləşdirmək zərurəti qarşısında duran əsas vəzifələrdir".

Sonra Qazaxıstan Həmkarlar İttifaqları Federasiyasının sədri Satıbaldı Dauletalin, Qırğızıstan Həmkarlar İttifaqları Federasiyasının sədr müavini Omor Arstanbekov və Özbəkistan Həmkarlar İttifaqları Federasiyasının sədr müavini Bəxtiyar Məhmətəliyev çıxışlar edərək Türk dövlətləri arasında münasibətlərin bütün sahələrdə dinamik inkişafından, o cümlədən həmkarlar ittifaqları arasında mövcud olan əlaqələrdən danışıblar.

Ardınca Türk Dövlətlərinin Həmkarlar İttifaqları Təşkilatının (TDHİT) yaradılması haqqında müqavilə imzalanıb.

Qeyd edək ki, TDHİT-nin yaradılmasında məqsəd işçilərin mənafeyinin və əmək hüquqlarının, həmkarlar ittifaqı hüquqlarının və fəaliyyət azadlığının, onun cəmiyyətdə yeri və rolunun səmərəli müdafiəsi üçün səyləri birləşdirməkdir.

*"Xalq qəzeti"*

# Separatçıların son çırpıntıları

## İndi onlara bir yerə cəmləşib "Qu quşunun son nəğməsi"ni oxumaq qalır

(əvvəli 1-ci səhifədə)

Məsələnin digər maraqlı tərəfi Ermənistandan Qarabağa göndərilən və dörd gündür Laçın sərhəd nəzarət-buraxılış məntəqəsinin qarşı tərəfində gözləyən 400 tona yaxın "humanitar yardım gətirmiş" TIR-ların məxsus olduğu "Spayka" şirkəti ilə bağlıdır. Şirkətin saytında (spayka.am) "Spayka" Məhdud Məsuliyyətli Cəmiyyətinin 2001-ci ildə iş adamı David Qazaryan tərəfindən yaradıldığı, kənd təsərrüfatı məhsullarının istehsalı üzrə regionun çoxprofilli aparıcı aqroholdinqi, beynəlxalq yükdaşıma bazarında lider, böyük meyvə-tərəvəz istehsalçısı və MDB ölkələri, Avropa və Fars körfəzinə ixracatçı olduğu qeyd edilib. Şirkətin "Volvo" istehsalçısının 200-dən çox yük avtomobilindən ibarət parkı var.

Bundan əlavə, "Spayka" Ermənistanda "Volvo", "Carrier", "Transicold", "Krone", "Shmitz Gargobull" şirkətlərinin rəsmi distribütorudur. "2009-cu ildə şirkət "Araratfruit" ticarət nişanını yaradıb. Bu brend bir neçə ildən sonra ixrac edilən ölkələrdə yüksək keyfiyyətli erməni meyvə-tərəvəzlərinin əlamətdar nişanına çevrilib. Bu gün "Spayka" şirkəti meyvə-tərəvəz ixracının 70 faizə qədərini təmin etməklə Ermənistanın aqrar iqtisadiyyatında strateji rol oynayır..." Bu fikirlər şirkətin saytında qeyd olunub. Ancaq şirkət özünü hər nə qədər öyməyə, sudan quru çıxmağa çalışsa da, tarixindəki qara ləkələri yuya bilməz. Bu mənada "Faktyoxla Lab" saytının "humanitar yük"ün niyə məhz bu şirkətə həvalə olunması və ümumiyyətlə, şirkətin fəaliyyəti ilə bağlı araşdırması maraq doğurur.

Qırx dörd günlük Vətən müharibəsinin qızğın çağında – 2020-ci ilin oktyabrın 10-da işğalçı ölkəyə silah-sursat daşıyan mülki yük maşınlarının Gürcüstan-Ermənistan sərhədində saxlanılması barədə məlumat və foto yayılmışdı. Məlumatda bildirilirdi ki, hərbi avtomatik idarəetmə sistemləri Ermənistanın logistika şirkəti olan "Spayka"ya məxsus mülki yük maşınları ilə daşınıb. Hərbi texnikanın quraşdırıldığı avtomobil mülki bağlamalarla üstüörtülü şəkildə yük qoşqusunun arxasına aşkarlanmışdı. Bu, həm də onu göstərirdi ki, Ermənistan hakimiyyət orqanları Gürcüstanın öz ərazisindən hərbi yük daşınmasına qoyduğu qadağanı da davamlı şəkildə pozublar.




"Spayka"nın müharibə zamanı həyata keçirdiyi qanunazidd fəaliyyəti ilə bağlı ən dolğun məlumat isə 2021-ci ilin mart ayında şirkətin media üçün yaydığı açıqlamada əks olunub. Açıqlamada qeyd olunur ki, şirkət 2020-ci ilin sentyabrın 28-dən noyabrın 9-dək Moskva və İrəvandan Xankəndiyə daşımaları öz hesabına həyata keçirib. Qarabağa gətirilən yüklərə ərzaq məhsulları, dərmanlar, şirkətin avtotəmir mağazalarında yığılan xüsusi avadanlıqlar, habelə Rusiyadan "UAZ" maşınları daxil olub. Bundan başqa, qondarma "dqr" rejiminə mobil soyuducular təhvil verilib. Bu maşınlar isə həlak olan erməni əsgərlərinin meyitlərinin daşınması üçün nəzərdə tutulubmuş. Şirkət açıqlamada əməkdaşlarının qanunsuz hərbi birləşmələrin tərkibində döyüşdüyünü də etiraf etmişdi. "Təəssüf ki, müharibə zamanı şirkətimizin 4 işçisi həlak olub. Onlardan ikisi sürücü idi",– deyə açıqlamada qeyd olunurdu.

Diqqətçəkən digər fakt isə müharibənin başa çatmasından 13 gün sonra N.Paşinyanın Ermənistanın tanınmış iş adamları ilə görüşməsidir. Bununla bağlı "Sputnik Ermənistan" agentliyinin yaydığı məlumatda qeyd olunurdu ki, N.Paşinyan "Spayka"nın rəhbərliyinə daxil olan David Qazaryan və Vaan Kerobyanla da görüşüb. Sonradan bəlli olmuşdu ki, Paşinyan "Spayka" rəhbərliyindən müharibədə həlak olmuş erməni əsgərlərinin meyitlərinin şirkətə məxsus olan, meyvə-tərəvəzlərin saxlanılması üçün nəzərdə tutulmuş soyuducularda saxlanılmasını xahiş edib. Xatırladaq ki, həmin dövrdə Ermənistanda hərbçilərin cəsədlərinin mobil soyuducularda saxlanılması ilə bağlı qalmaqal yaşanmışdı. İrəvan sakinləri "Metsamor morqu"nun yaxınlığında park edilmiş "Spayka" şirkətinə məxsus mobil soyuducuları lentə almışdılar. Həmin soyuducularda həlak olmuş erməni əsgərlərin meyitlərinin olduğu müəyyənləşmişdi. O da bildirilirdi ki, Ermənistanın şəhər və rayonlarında tibb müəssisələrinə məxsus morqlarda cəsədlərin saxlanılması üçün yer qalmadığı üçün belə bir addım atılıb.

Hayastan mediasında yayılan bir məqalədə isə qeyd olunurdu ki, Paşinyanın həlak olmuş əsgərlərin soyuducuda gizlədilməsi ilə bağlı xahişini yerinə yetirdikdən sonra şirkətin direktoru David Qazaryana qarşı 2019-cu ilin aprel ayında Ermənistan Dövlət Gəlirləri Komitəsi tərəfindən vergidən yayınma və dövlətə külli miqdarda ziyan vurmaq maddələri ilə açılmış cinayət işinə də xitam verilib. Bildirilirdi ki, bundan sonra şirkət baş nazirə dəstək olmağa başlayıb və işçilərini avtobuslarla Paşinyanın mitinqlərinə daşıyıb.

"Spayka"nın digər tərəfdaşı isə "Ameriabank"dır. "Ameriabank" yağ-pendir və digər süd məhsullarının istehsalı üçün "Spayka" aqroholdinqin yeni zavodunun inşasının əsas maliyyə tərəfdaşı kimi çıxış edib. Bank zavodun investisiya proqramına 15 milyon dollar yatırıb. Bu bankın əsas səhmdarı isə Qarabağda reinteqrasiya prosesində olduqca destruktiv rol oynayan oliqarx Ruben Vardanyandır. Vardanyan "Troyka Landromat"ın ifşasından sonra bu bankı alaraq, çirkli pulların yuyulması və digər cinayət əməllərində istifadə edib.

***

Bu arada Qarabağda cərəyan edən hadisələr heç də humanitar böhrandan əziyyət çəkən bölgədə baş verənlərə bənzəmir. Elə dünən separatçıların "parlamentinin sədri" Artur Tovmasyan "istefa" verdiyini açıqlayıb. O, yaydığı müraciətdə bildirib ki, şəxsi qərarı ilə "parlamentin sədri" postunu tərk etmək kimi siyasi məsuliyyəti öz üzərinə götürür, lakin "Artsax xalqı"nın 1991-ci ildə referendumda qəbul etdiyi ideyaya həmişə sadiq qalacaq.

"Hraparak" qəzeti yazır ki, "yeni sədr" gələn həftənin çərşənbə axşamından gec olmayaraq, "növbədənkənar iclasda seçiləcək". "Daşnaksütyun"un üzvü David İşxanyanın "namizədliyi" ətrafında siyasi konsensus olduğu bildirilir.

Artur Tovmasyanın "istefası" batmış gəmini ilk olaraq siçovulların tərk etməsi olayını xatırladır. Görünür, daha bir separatçı proseslərin geridönməz şəkil aldığını duyaraq, vaxtında aradan çıxmaq istəyir. Onun bu davranışı öz dərisini xilas etməsinin göstəricisidir. Digər separatçı "qlavarlar" isə onlara yaradılmış şəraitdən istifadə etməli, vaxtında Azərbaycanın qanunlarını qəbul etməli, ölkəmizin normal vətəndaşı olmaq istiqamətində əməli fəaliyyətə başlamalıdırlar. Yalnız bu yolla digərləri özlərini xilas edə, onlara münasibətdə hansısa amnistiya təklif oluna bilər. Əks-təqdirdə Arayik Arutyunyan və onun dəstəsi üçün çox çətin olacaq.

*Səxavət HƏMİD,*
*"Xalq qəzeti"*

### Ekspert rəyi

**Aydın QULİYEV,**
**politoloq**



– Azərbaycanın Laçın yolunda baş verən prosesləri tam nəzarətə götürməsi Qarabağda və Ermənistanın hərəkətlərində fərqli davranışlar yaratmağa başlayıb. Əgər ermənilər əvvəllər istədikləri malları Xankəndiyə daşıyırdılarsa, bu gün onlar həmin imkandan məhrum ediliblər. Onların bu gün istifadə edə biləcəkləri yeganə yol Ağdam-Xankəndi yoludur. Bu yol açıqdır. Azərbaycan dəfələrlə özünün erməni sakinlərinə bu yol vasitəsilə humanitar yüklərin daşınmasının mümkünlüyünü bəyan edib. Elə Xarici İşlər Nazirliyinin iyulun 29-da yayılan bəyanatında da Azərbaycanın özünün Qarabağ bölgəsində yaşayan erməni sakinlərin hüquqlarını ölkə Konstitusiyası əsasında təmin edəcəyi, eyni zamanda, suverenliyi və ərazi bütövlüyünə qarşı istənilən addımın qarşısını qətiyyətlə alacağı vurğulanıb. Azərbaycanın erməni sakinlərinin reinteqrasiyası ilə bağlı ardıcıllığı, qətiyyəti və prinsipiallığı Ermənistan və Qarabağ separatçılarını çətin duruma salıb. Onlar indiki şəraitdə özlərini təşviş içində hiss edirlər.

Ağdam-Xankəndi yolu ilə bağlı təklifin qəbul olunmaması bir daha göstərir ki, onların niyyəti humanitar yük daşımaq deyil. Əsas hədəfləri Qarabağ ətrafında gərgin vəziyyəti saxlamaqdan, Xankəndiyə mümkün qədər qeyri-humanitar təyinatlı mallar daşımaqdan və dünya miqyasında hay-küy salmaqdan ibarətdir. Ancaq Azərbaycan düşünülmüş taktika həyata keçirərək, həm Ermənistanın Qarabağa qeyri-humanitar yük daşımasının qarşısını aldı, həm də separatçılar arasında təşviş yaratdı. Artıq separatçı başçılarla Qarabağda yaşayan sadə ermənilər arasında fikir ayrılıqları yaranıb. "Parlamentin sədri" Tovmasyanın "istefa verməsi" dediklərimizə sübutdur. Bu "istefa" separatçıların yaranmış vəziyyətdən real çıxış yolu tapa bilmədiklərinin nəticəsidir. Eyni zamanda, artıq Xankəndidə reinteqrasiyanın zəruri olduğunu anlayan kəsim özünü yavaş-yavaş büruzə verir. Əlbəttə, Azərbaycan indiki kimi doğru-düzgün siyasət yürütdükcə reinteqrasiya tərəfdarlarının sayı da artacaq. Pozuculuqla məşğul olanların atacağı təxribatçı addımların isə heç bir səmərəsi olmayacaq.

# Planlaşdırılmış təxribatın "züytutanları"

## Vay-şivənə, dezinformasiyaya "uyanların" məsələyə ikili standartla yanaşması şübhə doğurmur

(əvvəli 1-ci səhifədə)

Məntiq isə bunu deyir: əgər İrəvan Azərbaycanın suveren ərazisi kimi tanıdığı Qarabağa humanitar yardım göndərmək barədə Bakıya hər hansı müraciət etməyibsə, deməli, indi görünən mənzərə planlaşdırılmış təxribatdır. Bəs nədən bir sıra dövlətlər hayların bu təxribat cəhdinə dəstək verirlər? Ortada boy atan şübhəli məqamlardan biri də separatçıların "blokada", "humanitar böhran" bağırtılarına "züytutanların" bir qələmin məhsulu kimi görünən eyni məzmunda bəyanatlar verməsidir. Əslində, bu, rejissor çubuğu ilə hərəkətə gətirilən dəstəkçilərin məsələyə ikili standartla yanaşmasının növbəti bariz nümunəsidir.



"ABŞ Laçın dəhlizinin təcili şəkildə açılması çağırışını bir daha təsdiqləyir". Hayastanın "armenpress" saytının yaydığı məlumata görə, Dövlət katibi Entoni Blinkenin "Laçın dəhlizinin özəl və kommersiya daşımaları üçün təcili açılması" ilə bağlı çağırışını Birləşmiş Ştatların Ermənistandakı səfirliyi özünün Facebook səhifəsində yerləşdirib. Məlumatda o da qeyd olunur ki, səfirin müavini Con Alelo diplomatik korpusun nümayəndələri ilə bir yerdə Sünikdə olub və buradakı məcburi köçkünlərdən və bölgənin rəhbərlərindən "Laçın dəhlizinin blokadası" səbəbindən üzləşdikləri "məhrumiyyətlər" barədə öyrənib. Amerikalı diplomatın Sünikdə (Zəngəzur) başqa nələri öyrəndiyini deyə bilmərik, amma cənab Alelonun məlum bəyanatı birbaşa "yuxarıların" diktəsi ilə verdiyinə şübhə yoxdur.

"Laçın dəhlizi mütləq açılmalıdır. Hətta Beynəlxalq Qırmızı Xaç Komitəsinin humanitar yardımının Ermənistandan Dağlıq Qarabağa çatdırmağın mümkünsüzlüyü faktı qəbulolunmazdır. Vəziyyətin daha da gərginləşməməsi üçün Azərbaycana təzyiq göstərmək vacibdir". Bu "həyəcanverici" açıqlamanı Almaniya Bundestaqının İnsan haqları üzrə komissiyasının sədri Renata Alt Twitter-də yazıb. ADR həkumətinin Cənubi Qafqaz, Moldova və Mərkəzi Asiya ilə cəmiyyətlərarası əməkdaşlığın koordinatoru Robin Vaqener, Bundestaqın beynəlxalq məsələlər üzrə komitəsinin üzvü Merle Şpelerberq isə "Dağlıq Qarabağ" (?) sakinləri üçün göndərilən yardımın gərgin vəziyyətin yumşalmasına səbəb olacağını bildirir, "Laçın dəhlizinin Azərbaycan tərəfindən blokadasının təcili dayandırılmasını" tələb edirlər. Yəni, Almaniyada əyləşib kimlərinsə göstərişi ilə Bakıya ultimatum verirlər. Onların cavabını Azərbaycan XİN bölgədəki son vəziyyətə dair bəyanatında verdi: "Azərbaycan tərəfinin erməni sakinlərin ehtiyaclarının qarşılanması üçün "Ağdam-Xankəndi" yolundan və digər alternativ yollardan istifadə daxil olmaqla bir sıra təkliflər irəli sürməsinə və onların Avropa İttifaqı, BQXK tərəfindən dəstəklənməsinə baxmayaraq, erməni tərəfinin bu təkliflərə qarşı çıxması, alternativ yollara beton maneələr düzməklə əraziyə girişi bloklaması Ermənistanın humanitar vəziyyət barədə iddialarının siyasi şantaj və manipulyasiya olduğunu bir daha göstərib: "Ermənistanın məqsədi bölgəyə üçüncü tərəfləri cəlb etmək, gərginliyin coğrafiyasını genişləndirmək və sülh prosesini iflasa uğratmaqdan ibarətdir".

* * *

Heç kim Azərbaycanla bu tərzdə danışa bilməz. Buna cürət etsələr də, sonda heç bir nəticəsi olmayacaq. "Karvan-şou"nun ideoloqlarının İrəvanın siyasi təxribatına dəstək nümayişi də iflasa uğrayacaq. Çünki haqsızdırlar. Azərbaycanın mövqeyi hamıya aydındır. Ağdamdan Xankəndiyə aparan yol tam hazırdır, bu barədə Bakı öz təklifini verib və Aİ bunu qəbul edib. Yəni, Qarabağ iqtisadi rayonunda yaşayan ermənilər üçün humanitar yüklər yalnız gömrük və sərhəd prosedurundan keçdikdən sonra göstərilən yolla Xankəndiyə çatdırıla bilər. Ermənistan və Azərbaycanın şərti sərhədində, Laçın yolundakı Həkəri postu isə əvvəlki ahəngi ilə fəaliyyət göstərir. Sıravi ermənilər bu məntəqədən hər iki istiqamətdə maneəsiz hərəkət edirlər.

Hər şeydən göründüyü kimi, İrəvan və onun "züytutanları" sülh danışıqlarının indiki mərhələsində siyasi manipulyasiya ilə məşğuldurlar. Amma onlar bu hərəkətləri ilə Azərbaycanın daxili işlərinə qarışmalarının, suverenliyimizə və ərazi bütövlüyümüzə qarşı hörmətsizlik etdiklərinin fərqinə varmalıdırlar. Azərbaycan XİN-in məhz onlara ünvanlanmış xəbərdarlıq xarakterli bəyanatında bu məqama xüsusi diqqət yetirilib: "30 il ərzində Azərbaycan ərazilərinin işğalına göz yuman bir sıra ölkələrin və beynəlxalq təşkilatların Azərbaycana qarşı qərəzli bəyanatlar verməsi qəbuledilməzdir. Həmin ölkələr və beynəlxalq təşkilatlar son üç il ərzində Azərbaycan ərazilərində erməni silahlı qüvvələrinin mövcudluğuna, Ermənistanın kommunikasiyaların açılmasına maneçilik törətməsinə də etinasız yanaşıblar. Ermənistanın manipulyasiyalarına aldanıb qərəzli bəyanatlar verən ölkələrdən və beynəlxalq təşkilatlardan Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə hörmətlə yanaşmağı, ölkəmizin daxili işlərinə qarışmamağı və ikili standartlar siyasətinə son qoymağı tələb edirik. Azərbaycan özünün Qarabağ bölgəsində yaşayan erməni sakinlərin hüquqlarını ölkə Konstitusiyası əsasında təmin edəcək, suverenliyi və ərazi bütövlüyünə qarşı istənilən addımın qarşısını isə qətiyyətlə alacaq".

* * *

Qarabağ Ermənistan rəhbərliyinin, o cümlədən bütün dünyanın Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi tanıdığı ərazisidir. Bölgənin hər cəhətdən inkişaf etmiş dövlətinə çevrilən Azərbaycanın ərzaq çatışmazlığı kimi problemi yoxdur. Ərazimizdə yaşayan, vətəndaşımız olacaq erməni əhalinin də bütün ehtiyacını ödəməyə qadirik. Çünki Azərbaycan Ermənistan kimi xaricdən göndərilən ianələrin, lobbi paylarının hesabına yaşayan dövlət deyil. Özümüz-özümüzü hər cəhətdən təmin etməklə yanaşı, artıq mal-məhsulumuzu xaricə ixrac edirik. Yəni, belə bir şəraitdə Azərbaycanda hansı "humanitar böhran"dan danışmaq mümkündür? Böhranı yaradan Xankəndidən çıxmağa tələsməyən daşnak-separatçılardır. O hərbi-kriminal xunta ki, erməni əhalini girova çevirməklə, Ağdam-Əsgəran yoluna beton maneələr düzməklə onların Azərbaycana reinteqrasiyasının qarşısını almağa cəhd göstərirlər. Bunların heç bir faydası olmayacaq. Bakı son 30 ildə, xüsusən də son 3 ildə çox maneələri aşmağı bacardığı kimi, o beton plitələri də aradan qaldırmağa nail olacaq.

*İmran BƏDİRXANLI,*
*"Xalq qəzeti"*

# Tomas Qoltz... Unudulmaz dostumuz

**Tanınmış Amerika tarixçisi, jurnalisti və yazıçısı, Azərbaycanın dostu Tomas Qoltz dünən 68 yaşında dünyasını dəyişdi.**



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev məşhur jurnalist, yazıçı, analitik, Azərbaycanın böyük dostu Tomas Qoltzun vəfatı ilə əlaqədar mərhumun ailəsinə başsağlığı verərək, bu itkidən kədərləndiyini ifadə edib.

Yaponiyada anadan olan, ABŞ-da böyüyərək Nyu-York Universitetini bitirən, 15 il müddətində Türkiyə və postsovet ölkələrində jurnalist fəaliyyəti ilə məşğul olan Tomas Qoltz yazdığı kitablarda dünyanın "qaynar" nöqtələrində baş verən hadisələri obyektiv təsvir etmişdir. Onun Azərbaycan və Xəzəryanı bölgə üzrə apardığı tədqiqatları elmi və siyasi dairələrdə maraqla qarşılanırdı.

Tomas Qoltz "Azərbaycan gündəliyi" kitabında Xocalı faciəsindən, "Çeçenistan" və "Gürcüstan" gündəliklərində isə həmin ərazilərdə baş verən hadisələrdən bəhs olunur. Tanınmış jurnalist və aparıcı 1992-ci ilin fevralında Xocalı soyqırımı ilə bağlı dünya ictimaiyyətinə məlumatları çatdıran ilk jurnalistlərdən idi. Müəllif həmin məşum hadisələri ürək ağrısı ilə qələmə alıb. Onun artıq keçmişdə qalmış Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı yazdığı məqalələrin, kitabların və çəkdiyi filmlərin bizim haqq səsimizin dünyaya çatdırılmasında misilsiz rolu olduğunu xüsusi vurğulamaq lazımdır. Maraqlıdır ki, o, hətta Qarabağ münaqişə nəticəsində doğma stadionundan məhrum olmuş Ağdamın "Qarabağ" futbol klubu haqqında "Ümumi nəticə: Evsiz Çempionlar" adlı sənədli film də çəkmişdir.

O, dəfələrlə Azərbaycana səfər edib, haqq səsimizi dünyaya yayıb. Ulu öndər Heydər Əliyevlə Tomas Qoltzun aralarında qarşılıqlı hörmət və ehtiram, səmimi dostluq münasibəti vardı. Prezident İlham Əliyevlə də onun görüşləri həmişə son dərəcə səmimi ruhda keçib. Son dəfə bu ilin mayında dövlət başçımız Şuşada onunla görüşmüşdü.

Qafqaz bölgəsində, o cümlədən Azərbaycanda sülhə və barışığa verdiyi töhfəyə görə Tomas Qoltz ADA Universitetinin Fəxri Doktoru adına layiq görülmüşdür. Mərhum bir çox dillərdə, o cümlədən türk, Azərbaycan, alman, rus, ərəb və fars dillərində sərbəst danışırdı.

Jurnalistika sahəsində davamlı və səmərəli fəaliyyəti, zəngin təcrübəsi və yüksək peşəkarlığı ilə nüfuz qazanmış Tomas Qoltzun dərin araşdırmalarına, qərəzsiz təhlillərinə olan oxucu marağı bundan sonra da azalmayacaq. Onun parlaq xatirəsi xalqımızın qəlbində daim yaşayacaq.

*"Xalq qəzeti"*

# AŞ Baş katibinin bəyanatı həqiqəti əks etdirmir

**Avropa Şurasının Baş katibinin Xankəndi-Laçın yolu ilə bağlı həqiqətə əsaslanmayan son bəyanatı bizdə narahatlıq yaradır.**

Bunu Azərbaycanın İnsan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva Xankəndi-Laçın yolu ilə bağlı Avropa Şurasının Baş katibi Mariya Pejçinoviç Buriçin bəyanatına cavabında deyib.

"Tərəfimizdən əvvəllər də Xankəndi-Laçın yolunda Qarabağda yaşayan ermənisilli Azərbaycan vətəndaşlarının humanitar məqsədlər üçün nəqliyyat vasitələrinin keçidinə heç bir maneənin olmaması ilə bağlı bəyanatlar verilib. Bu gün bir daha qeyd etmək istərdik ki, hazırda Azərbaycan humanitar məqsədlərlə nəqliyyat vasitələrinin həmin yoldan keçidini təmin edir və iddia olunduğu kimi, orada hər hansı humanitar böhrandan söhbət gedə bilməz. Sizi məsələnin mahiyyətinə varmadan belə bəyanatlar verməkdən çəkinməyə dəvət edirik.

Hesab edirik ki, həqiqəti əks etdirməyən bu cür bəyanatların verilməsi regionda gərginliyi artırır və sülh prosesinə mane olur.

Eyni zamanda, Avropa Şurasının Baş katibini diqqətini bir daha işğaldan azad edilmiş ərazilərimizdəki mina probleminə cəlb etmək istərdik. Bu problem 30 ilə yaxındır ki, öz torpaqlarından didərgin düşmüş 100 minlərlə insanın təhlükəsiz qayıdışını ləngidir", - deyə ombudsman vurğulayıb.

*"Xalq qəzeti"*

# "Millət atası" olmaq istəyirdi...

## Söhbət Ermənistanın ilk prezidenti Levon Ter-Petrosyandan və onun "dərin siyasi-fəlsəfi" mülahizələrindən gedir

**Onu Azərbaycanda praqmatik siyasətçi, təcrübəli diplomat, tarixdən, fəlsəfədən xəbərdar ağıllı erməni kimi qəbul edənlər az deyil. Zatən Hayastanın ilk prezidenti kimi işğaldan sonrakı mərhələdə ikitərəfli danışıqlarda sülhə meyilli, bundan ötrü müəyyən güzəştlərə getməyə hazır tərəf-müqabil olaraq da normal siyasi imicə malik idi. Onda erməniliyə xas xarakterik cizgilərin formalaşmaması, bəlkə də, Suriyada (Hələb) dünyaya gəlməsi, gəncliyində "miatsum" dumanlı daşnak ideologiyasına bulaşmaması ilə bağlıdır. Hər halda, 78 yaşlı filologiya elmləri doktoru Levon Ter-Petrosyanın hadisələrə və insanlara baxış və yanaşmasında milli şovinizm zəminindən deyil, elmi-metodoloji prizmadan çıxış etməsi gözdən yayınmayıb. İntəhası, acı reallıq bütöv şəxsiyyətləri xırdaladığı kimi, yerli şərait də mühitə uyğunlaşmağı tələb edir. Necə ki, Ermənistanda yaşayan etnik ermənilərin gec-tez "həqiqi erməniyə" çevrilməməsi mümkün deyildi...**

* * *



"Kim kimə çox qazandırıb – Ermənistan Qarabağa, yoxsa Qarabağ Ermənistana?". Bu sual Ter-Petrosyanın siyasi-fəlsəfi ritorikasının "məhsuludur". Hayastanın birinci prezidenti sosial şəbəkədəki bu paylaşımında 2017-ci ildə dediyi sözləri bir daha soydaşlarına xatırlatmağı vacib sayıb. Həmin Hayastanda bəzilərinin "millət atası" kimi fəxri titula layiq bildiyi erməni siyasətçinin fikirlərinin ardıcıllığına və məntiqinə diqqət edin: "Qarabağı azad edərkən ermənilərin məhrum olduqları, itirdikləri indi qarabağlıları söyməyə, onları naşükürlükdə, tənbəllikdə və müftəxorluqda ittiham etməyə əsas vermir".

Bu cür "dərin düşüncəli" mülahizələrindən dərhal sonra sanki, qəflət yuxusundan ayılıbmış kimi, Ter-Petrosyan vaxtilə səlahiyyət sahibi olmuş bütün erməni siyasətçiləri kimi, "milli mövqeyə" sadiqliyini nümayiş etdirməyə tələsir: "Ermənistan və Qarabağ bizim ümumi vətənimizdir və onun övladları qələbə və məğlubiyyət kimi, məhrumiyyət və əzabları da bölüşməyi bacarırlar". Milli təəssübkeşliyi "fontan" vuran suriyalı hay Ter-Petrosyan sözünü bu formada yekunlaşdırır: "Eyni zamanda, unutmaq lazım deyil ki, qarabağlılar Ermənistan-Azərbaycan qarşıdurmasının ön cəbhəsində, sərhəd toqquşmalarının və atışmaların daimi qorxusu altında yaşayır, reallığı üzərlərində hiss edirlər. Bu isə Ermənistan sakinlərindən onlara istisna yanaşma tələb edir".

Qarabağ ermənilərinə bu cür həssas yanaşma sərgiləyən Ermənistanın ilk prezidenti bu qeydləri altı il əvvəl qələmə aldığını xüsusi olaraq xatırladır.

Üstündən bu qədər vaxt keçdikdən sonra keçmiş tezislərini birdən-birə ictimailəşdirməyə sabiq dövlət başçısını məcbur edən səbəb nə imiş? Bəlkə, bu, onun erməni xalqı qarşısında yenidən "müdrik ağsaqqal", hətta "millət atası" statusunda boy qaldırmaq cəhdidir? Axı o 25 il əvvəlki və indiki Ermənistan Respublikasının vətəndaşları ilə Azərbaycanın Qarabağ iqtisadi rayonunda qanunsuz yaşayan formal rəiyyət arasındakı böyük fərqin mövcudluğunu bilməmiş deyil. Yəqin onun İrəvan ermənilərinin, hətta iqtidarda olan partiya daxil, bir sıra sağçı təşkilatların başbilənlərinin qarabağlı soydaşlarının ölkələri üçün iqtisadi, siyasi, hərbi yükə çevrildikləri ni açıq söylədiklərindən də xəbəri var. 44 günlük müharibədə və ondan sonra Ermənistan cəmiyyətinin bu kəsiminin dilindən "biz niyə onları yemləməliyik?", "niyə övladlarımız onları müdafiə etməlidir?" kimi ifadələr eşidilirdi. Belə qınayıcı tənələr elə indi də səslənməkdədir. Deyimizə misal olaraq "Epress.am" saytının son paylaşımlarından birindən sitat: "İrəvanlı taksi sürücüsü Qarabağ ləhcəsində danışdığına görə erməni qadını maşından yarı yolda düşürüb..."

* * *

Bəli, Levon Ter-Petrosyan bu qeydləri ilə 2017-ci ildəki kimi, yenə də Qarabağ klanının tərəfində oynamaqla, deyəsən, "millət atası" statusunun tarixin arxivinə göndərilməsini ləngitməyə çalışır. O, elə altı il əvvəl də millətinin xilaskarı rolunda çıxış etməyə cəhdlər edirdi. Bəs axırı nə oldu? Qarabağ klanı tarixin zibilliyinə göndərildi və Ermənistanda hakimiyyətə Nikol Paşinyan gəldi. Taxta təzə oturan zaman Nikolu Ter-Petrosyanın ardıcılı sayırdılar, amma reallıqda heç də deyilən kimi olmadı. Siyasi yetirməsi tərəfindən rədd edilən Levon Akopoviç iki il bundan əvvəl özü kimi iki eks-liderə – Robert Koçaryana və Serj Sarkisyana vahid seçkiqabağı blokda birləşməyi təklif elədi. Taleyin ironiyasına baxın ki, onun bu təşəbbüsü hər iki qarabağlı eks-prezident tərəfindən rədd olundu. Səbəb kimi qoca "patriotun" ağzına yiyəlik etmədiyi, "məxfi görüşün detallarını yaydığı" göstərildi. Buna görən də hər cinahdan tənqid atəşinə tutuldu. Azərbaycan torpaqlarının 20 faizi işğal olunanda Ermənistanın prezidenti Levon Ter-Petrosyan idi. Xocalı soyqırımı məhz onun idarəçiliyi dövründə törədilmişdi. O, bu etnik qətliamda özünün günahkar olduğunu boynuna almasa da, fakt faktlığında qalır. Bir də ki, reallıqda o cəmiyyətdə "miatsum" ideyasından və ölkəmizə qarşı ərazi iddialarından vaz keçməyə hazır siyasətçi tapmaq qeyri-mümkündür. Levon da bu mənada istisna deyil. İndi isə rəsmi İrəvan "Laçın dəhlizinin" açılması tələbi ilə Bakıya beynəlxalq təzyiq göstərməyə çalışır. Fəqət iflasa namizəd bu cəhdlər Ter-Petrosyanın "millət atası" rolunda "poza verməkdən" səyləri kimi faydasızdır. Belə bir xülyaya dalmış ilk prezident hazırda tərk edilmiş primitiv haylardan birinə çevrildiyi kimi, Paşinyan da "şou"nun sonunda sözəbaxan, boynu bükük quzu kimi sülh sazişini imzalamağa müntəzir olacaq. Bunu da bizdən proqnoz kimi qəbul edin...

*İ.HƏSƏNQALA, "Xalq qəzeti"*



**Dünya heykəltəraşlığında şəxsiyyət mövzusunun mühüm yer tutması məlum faktdır. Prinsip etibarilə bu heykəltəraşlıqda şəxsiyyət probleminin hələ antik dünyadan başlamış gündəmə gətirilməsi və müsbət həlli ilə bağlıdır. Eyni problemin Azərbaycan heykəltəraşlığında da müsbət həll edilməsi müşahidə olunmaqdadır.**



# Milli heykəltəraşlığımızda Heydər Əliyev ruhu

Bununla belə, qeyd etməyə ehtiyac var ki, insan şəxsiyyəti mövzusuna müraciət baxımından Azərbaycan heykəltəraşlığının uğurları, əsasən, müstəqillik dövrü ilə bağlıdır. Başqa sözlə, müstəqil dövlətçiliyimizin Azərbaycan incəsənətinə yeni uğurlar qazandırması heykəltəraşlıq sahəsində də diqqəti cəlb etməkdədir. Bəli, məhz müstəqil dövlətçiliyimiz tarixində qüdrətli heykəltəraşlarımızın öz yaradıcılıqlarında görkəmli dövlət, elm və sənət xadimləri mövzusuna ardıcıl olaraq müraciət etdiklərini görürük. Bu sırada Azərbaycan heykəltəraşlığında Heydər Əliyev mövzusunda monumental əsərlərin yaradılmasını məxsusi qeyd etməyə ehtiyac vardır.

Son dərəcədə qürur duyulası haldır ki, Azərbaycan sənət adamı Heydər Əliyev ruhu qarşısında mənəvi borcunu ulu öndərə məxsus şəxsi keyfiyyətləri müxtəlif sənət əsərlərində canlandırmaqla ödəməyə çalışmışdır. Bu gün fəxrlə deyə bilərik ki, dünya heykəltəraşlığının ən qiymətli sənət inciləri sırasında ulu öndərə həsr olunmuş örnəklər fəxri mövqe tutmaqdadır. Prinsip etibarilə Heydər Əliyev şəxsiyyəti mövzusuna müraciət edən Azərbaycan heykəltəraşı ən ağır sənət imtahanı verməli olmuşdur.

Heydər Əliyev ömrünün müxtəlif anlarını əks etdirən heykəltəraşlıq əsərləri Azərbaycan auditoriyasını yeni bir dünya ilə tanış etmək imkanına malikdir. Digər tərəfdən, həmin əsərlərdə Azərbaycan heykəltəraşının yaradıcılıq imkanları da aydın görünməkdədir. Başqa sözlə desək, Heydər Əliyev mövzusuna üz tutan heykəltəraş sənətdə özünütəsdiq yolu keçmişdir. Qətiyyətlə bildiririk ki, dünya, sənət tarixində son dərəcə zəngin, əlvan vasitələrlə Heydər Əliyev qədər obrazı yaradılan ikinci bir şəxsiyyət tanımır.

Azərbaycan heykəltəraşlıq sənətində özünəməxsus yer tutan, professional heykəltəraşlıq sənətinin inkişafında mühüm işlər görmüş Natiq Əliyev kimi tanınmış bir heykəltəraşın, Heydər Əliyev obrazını bir neçə dəfə yaratması da, onun şəxsiyyətinin və xidmətlərinin Azərbaycan heykəltəraşlığına olan təsiri və mənəvi dəyərini göstərməkdədir. Bu heykəllər, Azərbaycanla bərabər digər ölkələrdə də yer almış və Heydər Əliyevin dünya miqyasında necə böyük bir lider olmasını təcəssüm etdirmək baxımından olduqca əhəmiyyətli rol oynamışdır.

Kiyevdəki Heydər Əliyev heykəlinin açılışının 2004-cü ildə qoyulması, dahi öndər Heydər Əliyevin Ukraynaya olan münasibətinin və dostluğunun bir ifadəsidir. Heydər Əliyev Azərbaycanla Ukrayna arasında dostluq münasibətlərinin qorunmasını daim diqqətdə saxlamışdır. Bu heykəl, iki ölkə arasındakı münasibətlərin və Heydər Əliyevin Ukrayna ilə olan möhkəm bağlarının bir simvolu olaraq əhəmiyyətli yer tutmaqdadır.

Heykəltəraşın qranit kürsü və tunc heykəl arasında uğurlu bir əlaqə yaratması, obrazın güclü və məğrur duruşunu vurğulamağa kömək edir. Heykəltəraş heykəlin plastik ifadəsi, onun nişanələrini əks etdirmiş, yenilməz və qüdrətli rəhbərin xüsusiyyətlərini göstərməyə nail olmuşdur. Bu nişanələr Heydər Əliyevin liderlik keyfiyyətlərini, qətiyyətini və iradəsini ifadə edir.

Heykələ yaxınlaşdıqca, tamaşaçılar Heydər Əliyevin üzündəki nuranilik nişanələrini və diqqətçəkici baxışlarını aydın hiss edirlər. Bu, onun şüurlu, şəffaf liderlik tərzi, xalqının sevgi və hörmətini simgələyir. Heykəl, tamaşaçılara Heydər Əliyevin ruhunu, vizyonunu və fədakarlığını hiss etdirərək, şəhərin atmosferində daha da qüdrətli bir təsir bağışlayır.







Bu sənət əsəri Heydər Əliyevin dəyərli xatirəsinin saxlanılması və onun yaşadığı dövrün özəlliklərini ifadə etmək üçün əsaslı bir simvol kimi xüsusi yer tutur. Tamaşaçılar heykələ tamaşa etdikcə Heydər Əliyevin Vətənə sevgisini, liderlik ruhunu, xidmətlərini və digər mühüm keyfiyyətlərini hiss edirlər.

Natiq Əliyev heykəllərində Heydər Əliyev obrazını da müxtəlif mərhələlərdə inkişaf etdirərək, onun psixoloji baxımdan zənginləşdiyini vurğulayır. Eskizlərdən son variantlara qədər olan yaradıcı prosesdə, heykəltəraş obrazın ifadəsini, plastik şərhini, duruşunu və geyim formasını bir neçə dəfə dəyişdirir. O, obrazın ahəngdar addımları, əllərin vəziyyəti və digər hərəkətlərini təbiətə uyğun şəkildə uyğunlaşdırmaq üçün uzun müddət sərf edir. İşin nəticəsində obrazın ümumilikdən uzaq, təfərrüatsızlaşaraq monumentallığın əldə edilməsi məqsədinə varılır.

Əsərlərinin digər ölkələrin paytaxtlarında ucaldılması, Natiq Əliyevin beynəlxalq səviyyədə də tanınmasını, professional bir heykəltəraş olduğunu göstərir. O, yaradıcılığı ilə bizi obrazın daxili aləminə enməyə sövq edir.

Azərbaycanın Xalq rəssamı Natiq Əliyev yaradıcılığında Heydər Əliyev obrazına dəyərli bədii tutumla yanaşmışdır. Heykəltəraşlıq sahəsində, xüsusən monumental heykəltəraşlıqda müəllifin sənətinin ülviliyi hiss olunmaqdadır.

Natiq Əliyevin 2005-ci ildə yaratdığı və Sumqayıt şəhərinin mərkəzində qoyulmuş Heydər Əliyev heykəli qırmızı mərmər postament üzərində ucalır. Bu monumental əsərdə ulu öndər, özünəməxsus şux qaməti, iti nəzərləri və qətiyyəti ilə diqqəti cəlb edir. Abidədə Azərbaycanın dövlət gerbi kürsü üzərində yerləşir. Heydər Əliyev Azərbaycanın Konstitusiyasına əl basaraq, Azərbaycanın müstəqilliyinin əbədi və dönməz olacağına inam və qətiyyət ifadə etmişdir.

Müəllif Heydər Əliyevi müasir Azərbaycanın qurucusu, ilk demokratik Konstitusiyasının müəllifi kimi təqdim edir. Abidədə heykəltəraş tərəfindən Azərbaycanın gələcək taleyini müdrikcəsinə görən böyük dühanın nəzərləri irəliyə dikilmişdir. Postamentin düzbucaqlı forması ətrafdakı yaşayış binalarının bədii-konstruktiv quruluşu ilə həmahəng təşkil edir.

Xalq rəssamı Ömər Eldarovun da yaradıcılığında Heydər Əliyev obrazı, onun zəngin yaradıcılıq bioqrafiyasının əsasını təşkil edir. Ömər Eldarov Azərbaycan Milli Elmlər Akademiyasının və Rusiya Rəssamlıq Akademiyasının həqiqi üzvü olaraq tanınır. O, "Şərəf nişanı", "Qırmızı Əmək bayrağı" və "İstiqlal" ordenləri ilə təltif edilmiş böyük sənətkardır.

Ömər Eldarov Heydər Əliyev ikinci dəfə Sosialist Əməyi Qəhrəmanı fəxri adına layiq görüldükdən sonra, 1987-ci ildə Naxçıvan şəhərində ümummilli liderin büstünü yaratmışdır. Sənətkar Heydər Əliyev obrazını birbaşa canlı naturadan mükəmməl şəkildə hazırlamışdır. Heydər Əliyev və Ömər Eldarov bir-birini gənclik illərindən tanıyırdılar. Bu səmimi münasibət ilk büstünün uğurlu bədii həllinə nail olmasına imkan verdi.

Ümummilli liderin vəfatından sonra Ömər Eldarov ulu öndərin bir neçə xatirə abidəsinin də müəllifidir. Bunlar arasında Bakıdakı Ali Hərbi Neft Məktəbinin qarşısında general geyimindəki heykəli, Qobustan rayonunda Heydər Əliyev parkında və Fəxri xiyabanda ucaldılan qəbirüstü abidəni, həmçinin Türkiyənin Qars şəhərindəki abidəni xüsusi qeyd etmək lazımdır. Heykəltəraşın Heydər Əliyevi əbədi şəkildə anmaq üçün seçdiyi bu obrazlar, liderin yaşadığı anları və özəlliklərini doğru şəkildə təqdim edir.

Ömər Eldarovun verdiyi müsahibələrin birində qeyd etdiyi kimi, Heydər Əliyev sağlığında öz heykəlinin ucaldılmasına birmənalı olaraq razılıq vermirdi. Ancaq bir istisna hal var idi: O, ikinci dəfə SSRİ Ali Soveti tərəfindən Sosialist Əməyi Qəhrəmanı fəxri adına layiq görüldüyü vaxtda, Vətənində heykəlinin ucaldılmasına razı oldu. Çünki bu kimi fəxri ada ikinci dəfə layiq görülənlərin doğulduğu şəhərlərdə heykəlinin qoyulması dövlət sərəncamına əsaslanırdı. Hər bir məqam öncədən düşünülmüşdü, heykəlin ölçüləri və materialı.

Ömər Eldarovun qeyd etdiyinə görə, Heydər Əliyev çox intizamlı bir dövlət xadimi olduğu üçün, heykəlinin doğru formada işlənməsinə önəm verirdi. Bir müddət sonra o, Heydər Əliyev tərəfindən öz kabinetində qəbul edildi. Heydər Əliyev ona Moskvadan heykəlin işlənməsi ilə bağlı çoxlu təklif aldığını bildirdi. Ancaq Heydər Əliyev özünün istəyinə əsasən, yalnız onu yaxşı tanıyan yerli heykəltəraşın heykəlini işləməsinin doğru olacağını söylədi. Ömər Eldarov ona minnətdarlığını bildirərək, böyük bir şövq ilə çalışacağını bildirdi. Ömər Eldarovun Heydər Əliyevi naturadan işləmək istədiyini bilən Heydər Əliyev, eyni zamanda, Brejnev və Kosıginin heykəllərinin də naturadan işləndiyini bilirdi. Ona görə də, Heydər Əliyev də naturadan işləməsi halında nəticənin daha uğurlu olacağını düşünürdü.

Ömər Eldarov, Heydər Əliyevin Fəxri xiyabandakı qəbirüstü abidəsini 2004-cü ildə yaradaraq, ulu öndər qarşısındakı borcunu yerinə yetirdi. Abidə, 4 metr hündürlüyündə və qranitdən hazırlanan möhtəşəm bir heykəldir. Heydər Əliyevin statik duruşu, abidənin daha təsirli və monumental görünməsinə səbəb olur. Ömər Eldarov, memorial abidəni kompleks şəklində təqdim edərək Azərbaycan üçün, Azərbaycan xalqı üçün gördüyü hər bir xeyirxah əməlini bu abidədə göstərmişdir.

Heykəlin arxa fonunda ucaldılan qaya parçası ilə birlikdə Azərbaycan Respublikasının xəritəsi qabarıq formada mükəmməl şəkildə işlənmişdir. Bu, Ömər Eldarovun ziyarətçilərə göstərmək istədiyi ideyanı tamamlayır. Bu element, ziyarətçilərə "Heydər Əliyev və Azərbaycan" bütövlüyünü nümayiş etdirir.

Heydər Əliyevin vaxtı ilə yaşadığı evin giriş divarında hazırlanan barelyef xatirə lövhəsi də heykəltəraş Ömər Eldarov tərəfindən 2008-ci ildə hazırlanmışdır. Bu barelyef lövhədə aşağıdakı sözlərə yer verilmişdir: "Azərbaycan xalqının ümummilli lideri, müasir Azərbaycan dövlətçiliyinin banisi, Azərbaycan Respublikasının Prezidenti Heydər Əlirza oğlu Əliyev 1962 - 1982-ci illərdə bu evdə yaşamışdır". Bu xatirə lövhəsi, Heydər Əliyevin yaşadığı evin tarixi əhəmiyyətini vurğulayır və ziyarətçilərə onun liderlik və xidmətləri haqqında dəyərli məlumatlar verir.

2013-cü il mayın 7-də Milli İncəsənət Muzeyində Heydər Əliyevin 90 illik yubileyinə həsr olunan sərgidə Ömər Eldarovun 2012-ci ildə ağ mərmərdən hazırladığı "Heydər Əliyevin portreti" əsəri sərgilənmişdir. Bu portret Heydər Əliyevin xarakterini aydın və dolğun şəkildə təqdim etmək baxımından mühüm bir heykəltəraşlıq nümunəsidir. Heykəltəraş Ömər Eldarov bu əsərdə ümummilli liderin möhkəmliyini, mübarizə ruhunu və liderlik vasitələrini ifadə etməyə çalışmışdır. Heydər Əliyevin portreti, onun xarizmatik xətti və dövlət xadimi kimi oynadığı rolun vurğulanması ilə birlikdə, onun Azərbaycanın dövlətçilik və milli inkişafına verdiyi böyük töhfəni təmsil edir.

Böyük düha Heydər Əliyev, Azərbaycanın ümummilli lideri və müasir Azərbaycan dövlətçiliyinin banisi kimi, Azərbaycan heykəltəraşları üçün böyük bir yaradıcılıq mənbəyidir. Bu əsasda Heydər Əliyevin şərəfinə və xatirəsinə bir sıra abidələr yaradılmaqdadır.

Xüsusilə qeyd etməliyik ki, Heydər Əliyevin heykəlləri, onun xarakterini və millətinə olan qayğısını ifadə edir. Azərbaycan heykəltəraşları Heydər Əliyevə həsr etdiyi monumental heykəltəraşlıq nümunələrində onun şəxsən sevdiyi və



hörmət etdiyi insana yaraşan şəkildə emosional və ifadəli üslubunu təsvir edirlər.

Heydər Əliyev dühası Azərbaycan heykəltəraşlığının mühüm bir parçası kimi, milli bərabərliyin və Azərbaycan xalqının liderinə olan bağlılığının simvolu olmaq baxımından müstəsna əhəmiyyətə malikdir. Heydər Əliyevə həsr olunan monumental heykəltəraşlıq nümunələri onun düşüncələrini, liderlik keyfiyyətlərini və milli identifikasiya qüdrətini əks etdirməklə bərabər Heydər Əliyev və Azərbaycan xalqı arasında sonsuz bağlılığı ifadə etmək baxımından da mühüm yer tutmaqdadır.

Bəli bu gün, dahi öndərin yüzlərlə, bəlkə də minlərlə portreti yaradılır. Əlbəttə, onların heç də hər biri bədii-texniki səviyyə baxımından mükəmməl ola bilməz. Lakin ulu öndərin böyük sənətkarlıqla, həmçinin böyük sevgi, ehtiramla yonulmuş heykəlləri yetərincədir və bu dəyərli əsərlərin sayı gündən – günə artmaqdadır. Ümidvarıq ki, gələcək tədqiqatlarda Azərbaycan heykəltəraşlığında Heydər Əliyev mövzusu, ulu öndərin işıqlı xatirəsinə həsr olunmuş əsərlərin daha böyük hissəsini əhatə edəcəkdir.

***Toğrul CƏFƏRLİ,***
***Naxçıvan Dövlət Universitetinin müəllimi***

# Kənddə bolluq fermer zəhməti ilə yaradılır

## Son 20 ildə aqrar sahə 2 dəfə böyüyüb

**Son illər ölkəmizdə ərzaq təhlükəsizliyinin təmin olunması, daxili bazarın mühüm növ kənd təsərrüfatı məhsullarına olan tələbatının ödənilməsi, eləcə də ixrac potensialının artırılması məqsədilə əkin sahələri ilbəil genişlənir.**



Dövlət Statistika Komitəsinin məlumatına görə, 2023-cü ilin yanvar–iyun ayları üzrə ölkəmizdə kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 5 milyard 865,2 milyon manat təşkil edib. Bunun da 2 milyard 897 milyon manatı heyvandarlıq, 2 milyard 968,2 milyon manatı isə bitkiçilik məhsullarının payına düşüb. Cari ilin birinci yarısında əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə kənd təsərrüfatı istehsalı 3,4 faiz, o cümlədən heyvandarlıq məhsulları üzrə 3,7 faiz, bitkiçilik məhsulları üzrə isə 3 faiz artıb.

Hazırda ölkənin regionlarında məhsul yığımının qızğın çağıdır. Zamanında nəvaziş göstərib sığal çəkdiyi torpaqlardan bol məhsul gözləyən fermer və təsərrüfat sahibləri isə məmnundurlar. Çünki torpaq da borclu qalmayaraq kəndlinin zəhmətinin əvəzinin birə min qaytarmağa çalışır, necə deyərlər, sahibinin üzünü ağardır.

Dövlətin aqrar sektorun inkişafına verdiyi dəstək də sahibkarın karına gəlir, onu torpağa möhkəm bağlayır. Bu da son nəticədə ölkədə kənd təsərrüfatının ümumi məhsulunun artmasına səbəb olur. Təkcə onu qeyd etmək kifayətdir ki, son 20 ilə yaxın bir dövr ərzində ölkəmizdə kənd təsərrüfatı məhsullarının istehsalı iki dəfəyə yaxın artıb.

Dövlət Statistika Komitəsinin məlumatına görə, ölkədə bol məhsulun təməli üçün 945 min 223,4 hektar sahədə payızlıq və yazlıq dənli paxlalı bitkilər (qarğıdalı istisna olmaqla) əkilib. Cari ilin yanvar–iyun aylarında 631 min 159 hektarın məhsulu yığılıb. Həmin sahələrdən 2 milyon 669 min 45,4 ton məhsul tədarük edilib.

Hesabat dövründə əkin sahələri ötən ilin müvafiq dövrünə nisbətən azlıq təşkil etsə də, həyata keçirilən aqrotexniki tədbirlər sayəsində zəmilərdə bol məhsul yetişdirilib. Təkcə onu qeyd etmək kifayətdir ki, cari ilin ilk yarısının nəticələrinə görə, hektarın məhsuldarlığı 32,7 ton təşkil edib. Ötən ilin eyni dövründə isə bu göstərici 30,9 ton olub. Bu sahədə ən yüksək məhsuldarlıq Mil-Muğan (40,8 ton) və Qarabağ (40,6 ton) iqtisadi rayonlarında qeydə alınıb. Bununla belə, Şirvan-Salyan iqtisadi rayonuna daxil olan Hacıqabulda hər hektardan 51,8 ton məhsul götürülüb ki, bu da respublika üzrə ümumi göstəricidən 19,1 ton çoxdur.

Mövsüm ərzində ölkə üzrə 29 min 54,1 hektar sahədə dən üçün qarğıdalı əkilib. İlin ilk 6 ayında 1056 hektar sahədə yığım həyata keçirilib və nəticədə, 7685,3 ton məhsul toplanılıb. Bu sahədə hektarın orta məhsuldarlığı 72,8 ton (ötən il 67,9 ton) təşkil edib.

Son illər ölkədə kartof əkininə xüsusi marağın göstərilməsi "ikinci çörək" adlandırılan bu bitkiçilik məhsulunun istehsalının artmasına səbəb olub. Bu da daxili bazarın idxaldan asılılığının minimuma endirilməsi ilə nəticələnib. Mövsüm ərzində ölkə üzrə 49 min 475,5 hektar sahədə kartof əkilib. Əkin sahələrinin əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə azalmasına baxmayaraq, fermerlər bol məhsul yetişdirməyə nail olublar.

İlin ilk yarısında sahələrdən 431min 320,8 ton məhsul yığılıb. Bu sahədə hektarın məhsuldarlığı 203,9 sentner təşkil edib ki, bu da əvvəlki ilin müvafiq dövründəkindən (194 sentner) xeyli çoxdur. Hesabat dövründə hektarın orta məhsuldarlığı üzrə ən yüksək göstərici Qazax-Tovuz (279,1 sentner) iqtisadi rayonunda qeydə alınıb. Bununla yanaşı, Lənkəran-Astara (243,5 sentner), Qarabağ (143,2 sentner) və Mil-Muğan (143 sentner) iqtisadi rayonlarının fermerləri də sahələrdən bol məhsul əldə ediblər. Ölkənin rayonları üzrə bu sahədə ən yüksək göstəriciyə isə Ağstafa (300,5 sentner), Cəlilabad (288,9 sentner) və Tovuz (282) fermerləri imza atıblar.

Cari ilin əvvəllərində 61min 277,5 hektar sahədə tərəvəz əkən təsərrüfat sahiblərinin də əməyi öz bəhrəsini verməkdədir. Bu ilin yanvar-iyun aylarında 32 min 510,4 hektar sahədə yığım həyata keçirən fermerlər 831 min 152,9 ton məhsul yığıblar. Hesabat dövrü ərzində tərəvəzçilikdə hektarın məhsuldarlığı 255,7 sentner təşkil edib. Müqayisə üçün deyək ki, ötən il bu sahədə hektarın orta məhsuldarlığı 240,7 sentner olub. Tərəvəzçilikdə ən yüksək göstəricilərə Abşeron-Xızı (2119,5 sentner) və Qazax-Tovuz iqtisadi rayonlarının fermerləri imza atıblar.

Hazırda dükan-bazarlarda yay mövsümündə daha çox tələbat duyulan bostan məhsullarının bolluğu müşahidə olunur. Bu da səbəbsiz deyil. Əkin mövsümü ərzində 17 min 239 hektar sahədə bostan bitkiləri əkən təsərrüfat sahibləri ilin 6 ayı ərzində 5 min 850,4 ton məhsul yığmağa nail olublar. Bostanlarda hektarın orta məhsuldarlığı 190,9 sentner (ötən il 188,2 sentner) təşkil edib. Bu sahədə ən yüksək göstərici isə 262,3 sentnerlə Mil-Muğan iqtisadi rayonunda qeydə alınıb. Yeri gəlmişkən, hər hektardan 357,7 sentner toplayan Zərdab rayonunun fermerləri rekord göstəriciyə nail olublar.

Hazırda ölkə üzrə meyvə və giləmeyvələrin ümumi əkin sahələri 225 min 743 hektar təşkil edir. Cari ilin 6 ayında 161 min hektarının məhsulu yığılaraq bazarlara 161 min 131,7 ton meyvə və giləmeyvə yola salınıb. İqtisadi rayonlar üzrə bu sahədə ən yüksək göstəricilərə isə Qazax-Tovuz (29 min 48,4 ton) və Quba-Xaçmaz (28 min 782, 5 ton) iqtisadi rayonlarının təsərrüfat sahibləri imza atıblar.

Bununla yanaşı, ölkənin çayçılıq təsərrüfatlarının cəmləşdiyi Lənkəran-Astara və Şəki-Zaqatala iqtisadi rayonları üzrə mövcud 978,1 hektar sahədən 546,2 ton yaşıl çay yarpağı yığılıb. Bunun da 918,1 tonu Lənkəran-Astara iqtisadi rayonunun payına düşüb.

Ölkə üzrə kənd təsərrüfatı məhsullarının yığımı davam edir. Sahələrdə kifayət qədər məhsul var. Fermerlər isə yığımın optimal müddətdə başa çatdırılması üçün bütün imkanları səfərbər ediblər.

**M. YAQUBZADƏ, "Xalq qəzeti"**

# 30 min ton ərzaqlıq buğda tədarük olunub

## Hər tona görə istehsalçılara 100 manat subsidiya ödəniləcək

(əvvəli 1-ci səhifədə)

Azərbaycan Prezidentinin 2022-ci il 19 iyul tarixli "Ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsinə dair bir sıra tədbirlər haqqında" fərmanında da ölkənin ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsi və ərzaq təhlükəsizliyinin gücləndirilməsi qarşıya mühüm vəzifə kimi qoyulub.

Kənd Təsərrüfatı Nazirliyinin məlumatına görə, ölkə Prezidentinin həmin fərmanının icrası istiqamətində ötən müddətdə işlər uğurla davam etdirilib. İndiyə qədər 18 rayonda 28 təsərrüfatla 22,4 min hektar pivotaltı sahədə ərzaqlıq buğda istehsalının həyata keçirilməsinə dair müqavilələr bağlanaraq əkinlər aparılıb. Şirkətlərdən daxil olan operativ məlumatlara əsasən həmin sahələrin 22 min hektarından (98,1 faiz) 111,8 min ton məhsul istehsal edilib. Hər hektardan orta məhsuldarlıq 50,1 sentner olub.

Fərmanın icrası məqsədilə ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsi, yerli ərzaqlıq buğda istehsalçılarının fəaliyyətinin stimullaşdırılması və onlara dövlət dəstəyinin göstərilməsi ilə əlaqədar Dövlət Ehtiyatları Agentliyinin Kənd təsərrüfatı, İqtisadiyyat və Maliyyə nazirlikləri ilə razılaşdırılmış təklifini nəzərə alaraq Nazirlər Kabineti bu il iyunun 21-də "Ərzaqlıq buğdanın dövlət tədarük qiymətinin müəyyənləşdirilməsi barədə" sərəncam verib. Sərəncama əsasən, Nazirlər Kabineti 7 iyul 2009-cu il tarixli qərarı ilə təsdiqlənən "Dövlət Taxıl Fondunun saxlanması və istifadəsi Qaydaları"nın 1 nömrəli əlavəsində vurğulanan keyfiyyət göstəricilərinə uyğun yerli ərzaqlıq buğdanın bir tonunun dövlət tədarük qiymətini 2023-cü il üçün 450 manat müəyyənləşdirib.

Fərmana əsasən, Kənd Təsərrüfatı Nazirliyi ilə bağlamış müqaviləyə əsasən müasir suvarma sistemlərinin tətbiq edildiyi təsərrüfatlarda istehsal olunmuş və Dövlət Ehtiyatları Agentliyinə və un dəyirmanlarına təhvil verilmiş ərzaqlıq buğdanın hər tonuna görə istehsalçılara 100 manat məhsul subsidiyası ödəniləcək.

Respublikamızda ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsi üçün bu məhsulun idxalı da diqqətdə saxlanılıb. Dövlət Gömrük Komitəsinin məlumatına görə, bu ilin yanvar-iyun aylarında 493,2 min tondan çox buğda idxal edilib. İdxal edilən buğdanın dəyəri 145,5 milyon dollar olub. 2022-ci ilin eyni dövründə məbləği 142,9 milyon dollar olmaqla, 400,7 min ton buğda idxal edilib.



Hesabat dövründə düyü idxalı da artıb. Belə ki, cari ilin 6 ayında dəyəri 32,5 milyon dollar olan 36,4 min ton düyü idxal edilib. Ötən ilin eyni dövründə 31,5 min ton düyü idxalı həyata keçirilib. İdxal edilən düyünün dəyəri 26,6 milyon dollar olub.

Qarğıdalı idxalında da artım baş verib. Bu müddətdə 17,5 milyon dollarlıq 56,3 min ton qarğıdalı idxal olunub. Ötən ilin eyni dövründə isə məbləği 14 milyon dollar olan 38 min ton qarğıdalı idxal edilib.

**V.BAYRAMOV, "Xalq qəzeti"**

## Naxçıvan xəbərləri

### 5 min daşınmaz əmlak dövlət qeydiyyatına alınıb



**Muxtar respublikanın Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətindən verilən məlumata görə, yanvar–iyun ayları ərzində muxtar respublika üzrə 4 min 869 daşınmaz əmlak obyekti üzərində hüquqlar dövlət qeydiyyatına alınıb.**

Bu rəqəm əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 36,6 faiz çoxdur. Ümumi göstəricinin 1700-ü və ya 35 faizi ilkin, 3 min 169-u və ya 65 faizi təkrar qeydiyyatın payına düşüb.

I yarımil ərzində dövlət qeydiyyatına alınan daşınmaz əmlak obyektlərindən 1963-ü fərdi yaşayış evi, 1602-si torpaq sahəsi, 910-u mənzil, 167-si qeyri-yaşayış sahəsi, 157-si qeyri-yaşayış binası, 66-sı əmlak kompleksi kimi müəssisə, 4-ü isə çoxmərtəbəli yaşayış binası olub.

### Gömrük ödənişləri artıb



**Naxçıvan Baş Gömrük İdarəsi tərəfindən bu ilin ilk 6 ayında 41 milyon 650 min manat məbləğində gömrük ödənişləri toplanılıb. Toplanılan gömrük ödənişləri ötən ilin eyni dövrü ilə müqayisədə 23 milyon 632 min manat və ya 131 faiz artıq olub.**

2023-cü ildə müəyyənləşdirilən 53 milyon 278 min manat proqnoza qarşı cari ilin birinci yarısı ərzində 36 milyon 22 min manat vəsaitin toplanaraq təyinatı üzrə köçürülməsi təmin edilib. Bu ilin 6 ayında toplanılan vəsaitin 5 milyon 628 min manatı muxtar respublikanın büdcəsinə köçürülüb.

### Sakinlərə 290,1 min manat ƏDV qaytarılıb

**Muxtar respublikada "ƏDV geri al" layihəsinin tətbiqini həyata keçirən obyektlərin sayı iyulun 1-nə 87-yə çatıb.**

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin məlumatına görə, layihə çərçivəsində cari ilin 6 ayında istehlakçılara 290,1 min manatdan çox, iyun ayında isə 66,9 min manatdan artıq ƏDV məbləği geri qaytarılıb.

Yanvar ayı ilə müqayisədə iyun ayında istehlakçılara qaytarılan məbləğ 3,2 dəfə artıb.

**Səbuhi HƏSƏNOV, "Xalq qəzeti"**

# "Dost Aqropark" dünya bazarına "Qarabağ" brendi ilə çıxacaq

**Vətən müharibəsindən ötən müddət ərzində işğaldan azad olunan ərazilərin mina və partlamamış hərbi sursatdan təmizlənməsi, müasir yaşayış, istehsal və xidmət infrastrukturunun qurulması, iqtisadi fəaliyyətin, o cümlədən nəqliyyat-kommunikasiya xətlərinin bərpası istiqamətində mühüm işlər görülür. Bu, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sürətlə dirçəlməsinə, aqrar sahənin, o cümlədən heyvandarlığın inkişafının təmin olunmasına, habelə əhalinin dayanıqlı məskunlaşmasına xidmət edir, habelə həmin ərazilərin yüksək inkişaf etmiş regiona çevrilməsi üçün sağlam bünövrə yaradır.**

Düşməndən təmizlənən ərazilərdə hazırda heyvandarlığın inkişaf etdirilməsi üçün aqroparkların, intensiv fermaların yaradılmasına xüsusi önəm verilir. Bunlar heyvandarlıq sahəsində uğur əldə edilməsinin zəruri amillərindən biri sayılır və məhsuldar qüvvələrin səmərəli yerləşdirilməsinə imkan yaradır, eyni zamanda klaster yanaşmanı önə çıxarır. Belə bir yanaşma isə ölkənin daha çox rəqabət üstünlüyünə malik sahələrinin birlikdə inkişaf etdirilməsini nəzərdə tutur. Bu yolla məşğulluğun təmin olunması, iş yerlərinin yaradılması və məhsulların dünya bazarına çıxarılması gerçəkləşir.

Zəngilan rayonunda yaradılan "Dost Aqropark" məhz klaster yanaşmanın bariz nümunəsidir. Üç mərhələdə həyata keçirilən layihənin təməli 2021-ci il oktyabrın 26-da dövlətimizin başçısı İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən qoyulub. Artıq aqroparkda birinci mərhələ üzrə görüləcək bütün işlər başa çatdırılıb. İnzibati binalar, 5200 kvadratmetrlik qapalı, 113 min kvadratmetrlik açıq tipli heyvandarlıq kompleksləri, xidməti heyətin yaşayış binaları tikilib. Kompleksə 3500 baş cins qaramal gətirilib və əkinçilik məhsullarının istehsalı reallaşdırılıb.

Bu gün "Dost Aqropark"ın ikinci və üçüncü mərhələləri üzrə işlər davam etdirilir. Layihənin hər 3 mərhələsinin başa çatdırılması nəticəsində 6 min hektar sahədə bitki mənşəli istehsal və texnika sahələri yaradılacaq, 10 min baş cins heyvanın yetişdirilməsi üçün maldarlıq, eləcə də toxumçuluq və şitilçilik sahələri salınacaq. Bununla yanaşı, bütün bölgəyə hədəflənən inteqrasiya olunmuş ət emalı və qablaşdırma müəssisəsi qurulacaq, tutumu 100 min ton olan anbar inşa ediləcək. İstehsal olunan məhsullar yerli tələbatı ödəməklə yanaşı, "Made in Qarabağ" brendi ilə dünya bazarına çıxarılacaq.



"Dost Aqropark" ətraf mühitin və təbiətin mühafizəsi ilə yanaşı, halal qida prinsipi ilə fəaliyyət göstərəcək. Burada ekosistemin yaradılması üçün ümumilikdə 100 milyon dollar dəyərində sərmayə qoyulacaq.

Dəmiryolu çəkiləndən və Zəngəzur dəhlizi açılandan sonra isə bu ərazi logistika baxımından mühüm önəm daşıyacaq. Belə ki, həm xaricdən bura arpa, buğda gətirmək daha rahat olacaq, həm də aqroparkın istehsal etdiyi məhsulları ixrac etmək asanlaşacaq.

Xatırladaq ki, bu, regionda ilk heyvandarlıq aqroparkıdır. Yaxın gələcəkdə daha bir neçə belə müəssisənin yaradılması nəzərdə tutulur.

İşğaldan azad edilən rayonlarda iri aqroparkların qurulması ilə yanaşı, yuxarıda qeyd etdiyimiz kimi, intensiv fermer təsərrüfatlarının təşkili də gündəmdədir. Bu təsərrüfatlar əsasən Kəlbəcər, Laçın və Qubadlıda yaradılacaq. Həmin təsərrüfatlarda naxırın cins tərkibinin yaxşılaşdırılması, heyvanların damazlıq və məhsuldarlıq keyfiyyətlərinin yüksəldilməsi diqqətdə saxlanılacaq. Dövlət xətti ilə xaricdən gətirilən damazlıq və məhsuldar heyvanlar sahibkarlara güzəştli şətlərlə veriləcək.

Növbəti mərhələdə isə yeni heyvandarlıq təsərrüfatlarında yetişdirilən damazlıq heyvanların fərdi fermerlərə və ev təsərrüfatlarına satışı ilə ölkə üzrə cins tərkibin sağlamlaşdırılması, ət və süd məhsullarının istehsalının daha da artması mümkün olacaq. Əsasən 100 baş heyvandan artıq intensiv fermalara üstünlük veriləcək.

Hesablamalarla sübut olunub ki, respublika əhalisini təzə südlə tam etmək üçün 600-700 min baş yüksək məhsuldar inəklərin saxlanması kifayətdir. Buna görə də problemin kökündən həll olunması üçün xaricdən məhsuldar qaramalın idxal edilməsi ilə yanaşı, həm də mövcud inək naxırının damazlıq keyfiyyətlərinin yaxşılaşdırılması zəruridir.

**P.ƏFƏNDİYEV, "Xalq qəzeti"**

# Beynəlxalq daşımalarda payımız getdikcə artır

## Milli daşıyıcıların xarici bazarda çəkisi 8 faiz çoxalıb



(əvvəli 1-ci səhifədə)

Bazarın genişlənməsi sayəsində Azərbaycanın ikitərəfli daşımalar üzrə beynəlxalq avtomobil daşımaları bazarı 2022-ci ilin yanvar-iyun aylarında 135 min 70 ədəd olduğu halda, bu göstərici 2023-cü ilin müvafiq dövründə 153 min 872 ədəd təşkil edib ki, bu da 13,9 faizlik artım deməkdir.

Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin məlumatına görə, ölkəmizin beynəlxalq yükdaşımalarda da fəaliyyəti genişlənib. Hesabat dövründə Azərbaycanın beynəlxalq avtomobil daşımalarına cəlb edilən nəqliyyat vasitələrinin sayı 11 min 960 olub. 2021-ci ildə isə bu say təxminən 2 min 400 təşkil edib. İlin ilk 6 ayında 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə milli daşıyıcıların beynəlxalq bazarlarda payı 8 faiz artıb.

Nəqliyyat vasitələrinin sayında artım bazarın şəffaflaşması nəticəsində "kölgə"də fəaliyyət göstərən daşıyıcıların qeydiyyata alınması, fəaliyyəti olmayan daşıyıcıların işini bərpa etməsi, bəzilərinin daxili bazardan beynəlxalq bazara keçidi və idxal olunan nəqliyyat vasitələrinin hesabına yaranıb.

3-cü ölkə daşımaları üzrə göstəricilərdə də artım dinamikası nəzərə çarpıb. Belə ki, 2023-cü ilin 6 ayı ərzində ötən ilin müvafiq dövrü ilə müqayisədə Azərbaycan daşıyıcıları tərəfindən həyata keçirilən 3-cü ölkə daşımaları 2 dəfə yüksəlib. Belə ki, 2023-cü ilin yanvar–iyun aylarında 25 min 318 ədəd 3-cü ölkə daşımaları həyata keçirilib. Bu göstərici 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 12 min 592 ədəd artıq olub.

Avtomobil nəqliyyatı ilə tranzit daşımaların sayında qeydə alınan artım dinamikası isə 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 52 min 498 ədəd və ya 85,81 faiz artaraq 113 min 675 ədədə çatıb. Bu ilin 6 ayı ərzində ölkəyə idxal olunan dartıcıların sayındakı artım 2,5 dəfəyə yüksəlib. Ötən il istismar olunan dartıcıların sayı 908 ədəd idisə, bu il bu rəqəm 2246-dır.

Əlbəttə, statistik göstəricilərlə ifadə olunan uğurlar təsadüfi xarakter daşımır. Bu, Prezident İlham Əliyevin bu sahəyə göstərdiyi diqqətin bariz nümunəsidir. Yeri gəlmişkən, "Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında" 2023-cü il 24 fevral tarixli Qanunun icrası ilə əlaqədar imzaladığı 29 mart 2023-cü il tarixli fərmanla beynəlxalq avtomobil daşımalarını yerinə yetirən nəqliyyat vasitələrinə sərhəddə icazə blanklarının verilməsi sahəsində gömrük orqanları üzərinə düşən vəzifə ləğv olunub. Eyni zamanda, beynəlxalq daşımalarla bağlı nəqliyyat vasitələrinə sərhəddə icazə blanklarının verilməsinə görə "Dövlət rüsumu haqqında" qanunla müəyyənləşdirilən dövlət rüsumu da aradan qaldırılıb.

Beləliklə, beynəlxalq daşımaların iştirakçısı olan respublikamıza məxsus avtomobil daşıyıcılarının Azərbaycanın geniş nəqliyyat-logistika imkanlarından fəal və səmərəli istifadə əlverişli şərait yaradılıb. Bu cür qayda beynəlxalq daşımalar bazarında milli daşıyıcıların payının artmasına və beynəlxalq səviyyədə rəqabətliliyin yüksəlməsinə münbit zəmin yaradıb.

Göründüyü kimi, dövlətimizin başçısının yuxarıda adıçəkilən fərmanı Azərbaycanın son illərdə beynəlxalq daşımalar üzrə əldə etdiyi nəticələrin daha da yaxşılaşdırılması məqsədi daşıyır. Elə hazırda ölkə sərhədlərini keçən avtomobillərin sayının getdikcə artması da bu sahədə böyük perspektivlər vəd edir.

**Vaqif BAYRAMOV,**
**"Xalq qəzeti"**

### Ekspert rəyi



**Hüseynqulu QULİYEV,**
**iqtisadçı-ekspert**

Prezident İlham Əliyevin rəhbərliyi ilə son illərdə həm ölkəmiz, həm də ayrı-ayrı dövlətlər tərəfindən beynəlxalq nəqliyyat dəhlizlərində yükdaşımalarının artırılması üçün Azərbaycanın tranzit imkanlarını genişləndirmək məqsədilə genişmiqyaslı layihələr reallaşdırılır. Buna görə də beynəlxalq standartlarına cavab verən magistral avtomobil, dəmir yolları, dəniz nəqliyyatı, yol ötürücüləri və körpüləri beynəlxalq yük və sərnişin daşımaları üçün olduqca əlverişlidir.

Ölkəmiz Böyük İpək Yolunun üzərində yerləşir, Şərqlə Qərb, eləcə də Şimalla Cənub arasında səmərəli körpü rolunu oynayır və bütün bunlar respublikamızın beynəlxalq nəqliyyat dəhlizlərində yüksək uğurlar əldə etməsinə əhəmiyyətli təsir göstərir. Dövlətimizin başçısı bununla bağlı çıxışlarının birində deyib: "Əlbəttə ki, Şərq və Qərb arasında, ənənəvi İpək yolu coğrafiyasında yerləşməyimiz bizim üçün çoxlu imkanlar yaradır. Ərazimizdən nə qədər çox yük keçərsə, bizim bundan bir o qədər çox faydamız olar, bir o qədər də çox iş yerlərimiz olar".

Beynəlxalq yükdaşımalar üçün yuxarıda vurğuladığım kimi, dəniz nəqliyyatında da əlverişli şərait yaradılıb. Məhz bunun nəticəsidir ki, bu ilin ilk 6 ayında Azərbaycanda dəniz nəqliyyatı ilə 930 milyon dollar dəyərində 1,4 milyon ton yük daşınıb. Bu göstərici ötən ilin eyni dövrü ilə müqayisədə müvafiq olaraq 94,1 faiz və 4 dəfə çoxdur. Həmin dövrdə Bakı Beynəlxalq Dəniz Ticarət Limanı vasitəsilə 3,5 milyon tondan çox yük aşırılıb ki, bu, 2022-ci illə müqayisədə 12 faizlik artım deməkdir.

Hesabat dövründə dəniz nəqliyyatı ilə ixrac olunan yüklərin dəyəri 83 milyon 45 min dollara bərabər olub, 847 milyon dollarlıq yük isə idxal olunub. Son bir ildə ixrac olunan yüklərin həcmi 3,2 dəfə artıb.

"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyətindən verilən məlumata görə, limanda bu ilin I yarısında 3 milyon 539 min tondan çox yük aşırılıb. Bu da ötən ilin eyni dövrü ilə müqayisədə 12,5 faiz çoxdur.

Xatırladaq ki, 2018-ci il mayın 14-də Prezident İlham Əliyevin iştirakı ilə açılışı olmuş yeni Bakı Limanının 1-ci fazada yükaşırma potensialı 15 milyon ton, o cümlədən 100 min TEU konteyner təşkil edir.

**Azərbaycan Qazaxıstan istehsalı olan dəmir yolu lokomotivlərinin Azərbaycana idxalı və ölkəmizdən gəmilərinin bu dövlətə ixracı layihələrinin qısa zamanda həyata keçirilməsində maraqlıdır. Bunu iqtisadiyyat naziri Mikayıl Cabbarov Qazaxıstanın ölkəmizdəki səfiri Alim Bayel ilə görüşündə deyib.**



# Azərbaycan Qazaxıstana gəmi verib lokomotiv alacaq

## İki ölkə arasında ticarət əlaqəsi ilin əvvəlindən 64 faiz artıb

Söhbət zamanı nazir Orta Dəhlizin rəqəmsallaşdırılmasının və nəqliyyat-logistika sahəsində "vahid pəncərə" sisteminin yaradılmasının vacibliyini vurğulayıb. M.Cabbarov hazırkı geoiqtisadi vəziyyətdə ölkəsinin Azərbaycan–Qazaxıstan iqtisadi əməkdaşlığının sürətləndirilməsində maraqlı olduğunu təsdiqləyib.

Qazaxıstanın Azərbaycandakı səfiri də, öz növbəsində, Qazaxıstan və Azərbaycan arasında iqtisadi əməkdaşlığın yeni səviyyəyə yüksəldiyini bildirib. A. Bayel qeyd edib ki, dövlət başçılarının 2022 və 2023-cü illərdəki qarşılıqlı səfərləri ikitərəfli əməkdaşlıqda yeni mərhələyə qədəm qoyulduğunu göstərir. Diplomat Qazaxıstanın Baş naziri Əlixan Smailovun iyun ayında Azərbaycana rəsmi səfərinin məhsuldar olduğunu, bunun nəticəsində 11 birgə sənədin imzalandığını vurğulayıb.

Qazaxıstan, Azərbaycan və Gürcüstan dəmir yolları administrasiyaları tərəfindən birgə müəssisənin yaradılmasına, Xəzər dənizinin dibi ilə fiber-optik xəttin çəkilməsi üzrə birgə müəssisənin yaradılmasına dair, eləcə də Qazaxıstan neftinin Azərbaycan ərazisindən nəqlinin həcminin artması ilə bağlı sənədlərə xüsusi əhəmiyyət verilir.

Qeyd edək ki, Qazaxıstan Azərbaycana dəyəri 300 milyon ABŞ dollarından çox olan 100 adda əmtəə ixracını artırmağa və ikitərəfli ticarət dövriyyəsinin həcmini 1 milyard ABŞ dollarına çatdırmağa hazırdır. 2023-cü ilin yanvar-may aylarında Qazaxıstanla Azərbaycan arasında ticarət dövriyyəsi 2022-ci ilin eyni dövrü ilə müqayisədə 50 faiz– 162,5 milyon ABŞ dollarından 243,6 milyon ABŞ dollarına qədər artıb. Cari ilin əvvəlindən Orta Dəhliz üzrə ticarət dövriyyəsi 64 faiz artaraq 1 milyon tonu ötüb.

***"Xalq qəzeti"***

# I yarımildə ixrac 18 milyard ABŞ dolları təşkil edib

**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) "İxrac icmalı"nın iyun sayına əsasən, cari ilin 6 ayı ərzində Azərbaycanın ümumi ixracı 18 milyard ABŞ dolları, qeyri-neft sektoru üzrə ixrac isə keçən ilin müvafiq dövrü ilə müqayisədə 20,6 faiz artaraq 1,8 milyard ABŞ dolları təşkil edib. Cari ilin I yarımilində yeyinti məhsulları üzrə ixrac 459,9 milyon ABŞ dollarına bərabər olub.**

Hesabat dövründə aqrar və aqrar-sənaye məhsulları üzrə birgə ixracın statistik dəyəri 13,1 faiz artaraq 478,2 milyon ABŞ dolları təşkil edib. Qeyri-neft-qaz ixracının tərkib hissəsində əhəmiyyətli yer tutan aqrar-sənaye məhsullarının yaratdığı dəyər ötən ilin müvafiq dövrü ilə müqayisədə 54,1 faiz artaraq 109,2 milyon ABŞ dolları təşkil edib.

Bu ilin ötən 6 ayında ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında elektrik enerjisi (314,4 milyon ABŞ dolları) birinci olub. Bu siyahıda pomidor (tomat) (120,7 milyon ABŞ dolları) ikinci, pambıq mahlıcı (68,7 milyon ABŞ dolları) isə üçüncü yerdə qərarlaşıb.

Hesabat dövrü ərzində Rusiya Federasiyasına 552,3 milyon ABŞ dolları, Türkiyəyə 512,5 milyon ABŞ dolları, Gürcüstana 180,3 milyon ABŞ dolları, İsveçrə Konfederasiyasına 68,6 milyon ABŞ dolları, Qazaxıstana isə 58 milyon ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub.

# OPEC: Azərbaycanın neft ehtiyatları 7 milyard bareldir

**Neft İxrac Edən Ölkələr Təşkilatının (OPEC) məlumatına əsasən, 2022-ci ildə Azərbaycanın təsdiqlənən neft ehtiyatlarının həcmi 2021-ci ildən sonra dəyişməz olaraq 7 milyard barel qiymətləndirilir.**

OPEC, eyni zamanda, bildirir ki, 2022-ci ildə dünyada ümumi neft ehtiyatları 2021-ci ildəki 1,547 trilyon barellə müqayisədə 2022-ci ildə 1,564 trilyon barel olub ki, bu da 1,1 faiz artım deməkdir. Ötən il kartelin neft ehtiyatları 1,243 trilyon barelə çatıb ki, bu da 2021-ci ildəki 1,242 trilyon bareldən bir qədər yuxarıdır.

Qeyd edək ki, 2023-cü ilin yanvar–iyun ayları ərzində Azərbaycan 7,8 milyard ABŞ dolları dəyərində 12,8 milyon ton xam neft və neft məhsulları ixrac edib. Dövlət Vergi Xidmətinin məlumatına görə, 2023-cü ilin 6 ayında Azərbaycan neftinin ən böyük üç idxalçısı İtaliya (3 milyard dollar dəyərində 4,9 milyon ton), İspaniya (644,6 milyon dollar dəyərində 1 milyon ton) və İsrail (631,3 milyon dollar dəyərində 1 milyon ton) olub.

Azərbaycanda neft hasilatının 65 faizindən çoxu "Azəri-Çıraq-Günəşli" yataqlar blokunun payına düşüb.

***"Xalq qəzeti"***

# Asiya İnfrastruktur İnvestisiya Bankı ilə "yaşıl" və dayanıqlı əməkdaşlıq

## Bu qurum TANAP layihəsi üzrə ölkəmizə 600 milyon dollar kredit ayırıb

**Asiya İnfrastruktur İnvestisiya Bankının (AİİB) vitse-prezidenti Konstantin Limitovski ölkəmizə rəsmi səfərə gəlib. Bank rəsmisi səfər çərçivəsində Azərbaycanın iqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev ilə görüşüb.**




Nazirliyin mətbuat xidmətindən verilən məlumata görə, görüşdə E.Əliyev Azərbaycanın Asiya İnfrastruktur İnvestisiya Bankı ilə əməkdaşlığa xüsusi önəm verdiyini bildirib. Nazir müavini AİİB-in "yaşıl" və dayanıqlı gələcəyin təmin olunması istiqamətində fəaliyyətini, həmçinin üzv ölkələrə güclü iqtisadiyyat qurmaqda dəstəyinin əhəmiyyətini vurğulayıb. O, bankla Cənub Qaz dəhlizi layihəsi, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, dəmiryol infrastrukturu və digər nəqliyyat-tranzit və logistika layihələri çərçivəsində əməkdaşlığa dair fikirlərini bölüşüb.

AİİB-in investisiya əməliyyatları üzrə vitse-prezidenti Konstantin Limitovski təmsil etdiyi qurumun Asiya regionunda iqtisadi artımın stimullaşdırılması və infrastrukturun inkişafı istiqamətində həyata keçirdiyi tədbirlərdən bəhs edib. Bankın Azərbaycanla səmərəli əməkdaşlığını qeyd edən qonaq tərəfdaşlığın gələcək inkişaf imkanları barədə fikirlərini bölüşüb. Görüşdə, həmçinin tərəflər arasında potensial əməkdaşlığın əsas istiqamətləri, AİİB-in Azərbaycanda gələcək fəaliyyət prioritetləri, o cümlədən "yaşıl enerji" və infrastrukturun inkişafı üzrə perspektiv layihələr haqqında müzakirələr aparılıb.

Yeri gəlmişkən, bu, Asiya İnfrastruktur İnvestisiya Bankının vitse-prezidenti Konstantin Limitovskinin başçılıq etdiyi nümayəndə heyətinin cari ildə ölkəmizə ikinci səfəridir. Xatırladaq ki, fevral ayında baş tutmuş ilk səfər zamanı Konstantin Limitovski ilə iqtisadiyyat naziri Mikayıl Cabbarov, maliyyə naziri Samir Şərifov və Azərbaycan İnvestisiya Holdinqinin baş icraçı direktoru Ruslan Əlixanov arasında görüşlər keçirilmişdi.

Həmin görüşlərdə Azərbaycanın AİİB ilə əməkdaşlığa xüsusi önəm verdiyi, bankın "yaşıl" və dayanıqlı gələcəyin təmin olunması istiqamətində fəaliyyəti, həmçinin üzv ölkələrə güclü iqtisadiyyat qurmaqda dəstəyinin əhəmiyyəti vurğulanmış, tərəflər arasında energetika, infrastruktur, nəqliyyat sahələrində investisiya layihələrinin maliyyələşdirilməsi istiqamətində əməkdaşlığın genişləndirilməsi perspektivləri müzakirə edilmişdi. Eyni zamanda, tərəflər potensial əməkdaşlığın əsas istiqamətləri, AİİB-in Azərbaycanda gələcək fəaliyyət prioritetləri, bankın maliyyə dəstəyi ilə ölkəmizdə layihələrin həyata keçirilməsi imkanları haqqında müzakirələr aparmışdılar.

Xatırladaq ki, baş ofisi Çin Xalq Respublikasının Pekin şəhərində yerləşən və nizamnamə kapitalı 100 milyard dollar olan Asiya İnfrastruktur İnvestisiya Bankı 2014-cü ildə yaradılıb. Həmin gün Asiya qitəsinin 21 ölkəsi bu nəhəng investisiya bankının yaradılması məqsədilə memorandum imzalayıblar. Hazırda bankın dünyanın 106 ölkəsində səhmdarları mövcuddur.

Bankın əsas fəaliyyət istiqaməti etibarlı investisiyalar üçün uzunmüddətli maliyyələşdirmənin təqdim edilməsi, eləcə də əsasən Asiya regionunda həyat şəraitinin yaxşılaşdırılması və iqtisadi inkişafın təmin edilməsindən ibarətdir. Asiya qitəsində iqtisadi artımın stimullaşdırılması və infrastruktura bağlı layihələri maliyyələşdirən AİİB, həmçinin regionda kənd təsərrüfatının və infrastrukturunun inkişafı, enerji təchizatı, ətraf mühitin mühafizəsi, nəqliyyat və telekommunikasiya, su təchizatı və kanalizasiya, şəhərsalma və logistik mərkəzlərin yaradılmasında da xüsusi fəallığı ilə seçilir.

Son 7 ildə AİİB-in əməliyyat portfeli 35 milyard dollara çatıb. Ötən müddətdə bank öz missiyasına uyğun olaraq Asiya ölkələrinin infrastruktur baxımdan inkişafını dəstəkləməkdə davam edib. Asiya İnfrastruktur İnvestisiya Bankı ölkəmizlə əməkdaşlığa isə 2016-ci ildə başlayıb. Belə ki, həmin il iyunun 24-də adıçəkilən banka üzv seçilən Azərbaycan Respublikası ötən müddətdə dünyanın bir sıra beynəlxalq maliyyə-iqtisadi qurumları ilə yanaşı, AİİB ilə də fəal əməkdaşlıq edib. Ötən 7 ildə bankdan dövlət zəmanəti ilə 2 layihə üzrə kreditlər cəlb edilib. Artıq hər iki layihənin icrası başa çatdırılıb.

Yeri gəlmişkən, AİİB-in Azərbaycanda maliyyələşdirdiyi ilk layihə Cənub Qaz Dəhlizinin mühüm seqmentlərindən sayılan Trans-Anadolu Qaz Boru Kəmərinin (TANAP) tikintisi ilə bağlı olub. Belə ki, 2016-cı ilin dekabr ayında bank TANAP-ın çəkilişi üçün Azərbaycana 600 milyon dollar məbləğində kredit ayırıb. Bu, həm də ölkəmizin AİİB-lə əməkdaşlığının uğurlu nümunələrindən sayılır.

Bankın Azərbaycan üçün ayırdığı ikinci kredit isə 2021-ci ilin iyul ayına təsadüf edib. Xatırladaq ki, həmin vaxt bank Azərbaycan Respublikasının "COVID-19-a Aktiv Müdaxilə və Xərclərə Dəstək Proqramı" adlı layihəyə 100 milyon dollar məbləğində kredit ayırıb. Həmin vəsait ölkəmizdə COVID-19 infeksiyasının mənfi tibbi, sosial və iqtisadi təsirlərinin azaldılması üzrə hərtərəfli planın həyata keçirilməsinə yardım məqsədi daşıyıb.

Elə bankın məlumat bazasında da proqramın məqsədinin Azərbaycan hökumətinin COVID-19 pandemiyasının əhalinin sağlamlığına, gəlirlərinə və iqtisadi imkanlarına, həmçinin makroiqtisadi sabitliyə mənfi təsirinin azaldılmasına yönəlmiş maliyyə dəstəyi tədbirlərini dəstəkləməkdən ibarət olması göstərilir.

Asiya İnfrastruktur İnvestisiya Bankı Azərbaycanla əməkdaşlığı bundan sonra da genişləndirməyə, ölkəmizin iqtisadi inkişaf prioritetlərini dəstəkləməyi davam etdirmək niyyətindədir. Bu isə Asiyanın qabaqcıl maliyyə qurumunun ölkəmizə olan inam və etibarından irəli gəlir.

***Mirbağır YAQUBZADƏ,***
***"Xalq qəzeti"***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 244** **Bakı şəhəri, 28 iyul 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Fövqəladə halların qarşısının alınması və belə hallarda fəaliyyət üzrə Azərbaycan Dövlət Sistemi haqqında" 1992-ci il 30 aprel tarixli 239 nömrəli, "Bakı şəhəri sərnişin nəqliyyatının işinin daha da təkmilləşdirilməsi və onun maddi-texniki bazasının möhkəmləndirilməsi tədbirləri haqqında" 1992-ci il 8 iyul tarixli 388 nömrəli, "Azərbaycan Respublikası dövlət sərhədinin mühafizəsini gücləndirmək tədbirləri haqqında" 1992-ci il 16 oktyabr tarixli 560 nömrəli, "Sülh və müharibə dövrlərindəki fövqəladə hallarda Azərbaycan Respublikasında əhalinin köçürülməsi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 1993-cü il 6 avqust tarixli 438 nömrəli, "Bakı metropolitenində baş vermiş partlayışla əlaqədar respublikanın nəqliyyat sahələrində sərnişin və yüklərin daşınmasında təhlükəsizliyin təmin edilməsi haqqında" 1994-cü il 29 iyul tarixli 284 nömrəli və "Müstəqil Dövlətlər Birliyinə daxil olan ölkələrin sahə və müəssisələri arasında istehsalat kooperasiyasının inkişafı haqqında" 1995-ci il 20 noyabr tarixli 251 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Preziden-tinin "Azərbaycan Respublikasının rayon, şəhər, şəhərlərdə rayon icra hakimiyyəti başçılarının aparatlarında sənədlərlə iş barədə Təlimat"ın təsdiq edilməsi haqqında" 2000-ci il 6 mart tarixli 347 nömrəli, "Yerin təki haqqında" Azərbaycan Respublikası Qanununun icrasını təmin edən bəzi normativ hüquqi aktların təsdiq edilməsi barədə" 2000-ci il 6 mart tarixli 351 nömrəli, "2001-ci il martın 12-də Ankara şəhərində Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında imzalanmış sənədlər haqqında" 2001-ci il 8 may tarixli 717 nömrəli, "Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının 1368 nömrəli 2001-ci il 12 sentyabr tarixli, 1373 nömrəli 2001-ci il 28 sentyabr tarixli və 1377 nömrəli 2001-ci il 12 noyabr tarixli qətnamələrinin yerinə yetirilməsinin təmin edilməsinə dair tədbirlər planı haqqında" 2002-ci il 11 may tarixli 920 nömrəli, "Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" 2004-cü il 21 oktyabr tarixli 462 nömrəli, "Azərbaycan Respublikası vergi xidməti işçilərinin peşə bayramı gününün təsis edilməsi haqqında" 2005-ci il 1 fevral tarixli 607 nömrəli, "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planının təsdiq edilməsi haqqında" 2006-cı il 28 dekabr tarixli 1880 nömrəli və "Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiyanın təsdiq edilməsi barədə" 2007-ci il 28 iyul tarixli 2292 nömrəli sərəncamlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 dekabr tarixli 3684 nömrəli Sərəncamına əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1** "Fövqəladə halların qarşısının alınması və belə hallarda fəaliyyət üzrə Azərbaycan Dövlət Sistemi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1992-ci il 30 aprel tarixli 239 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 9, maddələr 750, 756; 2005, № 6, maddə 541; 2009, № 2, maddə 144, № 9, maddə 738; 2014, № 1, maddə 57, № 6, maddələr 745, 747; 2019, № 1, maddə 153; 2022, № 4, maddə 390) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 11-ci hissənin birinci abzasında "Azəravtonəqliyyat" Konserni, Azərbaycan Dəmir Yolu İdarəsi, Azərbaycan Hava Yolları Dövlət Konserni "AZAL" sözləri "Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi, "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti", "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti" sözləri ilə əvəz edilsin;

1.2. həmin Qərara 1 nömrəli əlavə - "Azərbaycan Respublikası Dövlət orqanlarının fövqəladə halların qarşısının alınması və belə hallarda fəaliyyət üzrə funksiyaları"nın on altıncı hissəsində "idarələri və dövlət konsernləri, tərkibində nəqliyyat vasitələri olan konsern və idarələr ("AZAL", "Azəravtonəqliyyat", "Azərineft", dövlət konsernləri, Azərbaycan Dəmir Yolu İdarəsi" sözləri "sahəsi üzrə, tərkibində nəqliyyat vasitələri olan dövlətə məxsus hüquqi şəxsləri ("Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi, Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti, "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti" sözləri ilə əvəz edilsin;

1.3. həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikası Nazirlər Kabineti fövqəladə komissiyasının tərkibi"ndə "E.F.Abdullayev - Azərbaycan Dəmir Yolu İdarəsinin rəisi" sözləri "R.M.Rüstəmov - "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri" sözləri ilə əvəz edilsin və "A.H.Aslanov - "Azəravtonəqliyyat" Dövlət Konserninin prezidenti" sözləri çıxarılsın;

1.4. həmin Qərarla təsdiq edilmiş "Fövqəladə halların qarşısının alınması və belə hallarda fəaliyyət üzrə Azərbaycan Dövlət Sistemi haqqında Əsasnamə"nin 9-cu hissəsinin səkkizinci abzasında "Azərbaycan Dəmir Yol İdarəsinin" sözləri "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin" sözləri ilə, onuncu abzasında isə "Azəravtonəqliyyat" Dövlət Konserninin" sözləri "Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin" sözləri ilə əvəz edilsin.

**2.** "Bakı şəhəri sərnişin nəqliyyatının işinin daha da təkmilləşdirilməsi və onun maddi-texniki bazasının möhkəmləndirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1992-ci il 8 iyul tarixli 388 nömrəli Qərarının (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1992-ci il 3 noyabr tarixli 601 nömrəli Qərarı; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 6, maddə 745) 14-cü hissəsinin birinci abzasında "Azərbaycan Dəmir Yolu İdarəsi" sözləri "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti" sözləri ilə əvəz edilsin.

**3.** "Azərbaycan Respublikası dövlət sərhədinin mühafizəsini gücləndirmək tədbirləri haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1992-ci il 16 oktyabr tarixli 560 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 7, maddə 574, 2001, № 3, maddə 214; 2003, № 6, maddə 342; 2004, № 4, maddələr 287, 305; 2005, № 6, maddə 558; 2009, № 1, maddə 34; 2014, № 5, maddə 550, № 10, maddə 1311; 2015, № 2, maddə 227; 2017, № 12 (II kitab), maddə 2479; 2018, № 10, maddə 2156; 2022, № 4, maddə 375) 7-ci hissəsində "Azərbaycan Dəmir Yolu İdarəsi" sözləri "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti" sözləri ilə əvəz edilsin.

**4** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1993-cü il 6 avqust tarixli 438 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 9, maddələr 750, 756; 2006, № 9, maddə 822; 2008, № 2, maddə 116; 2010, № 3, maddə 264; 2013, № 10, maddə 1194; 2014, № 6, maddə 747; 2018, № 12 (II kitab), maddə 2736; 2019, № 1, maddə 153; 2020, № 11, maddə 1417; 2022, № 4, maddə 390, № 8, maddə 974; 2023, № 3, maddə 431) ilə təsdiq edilmiş "Sülh və müharibə dövrlərindəki fövqəladə hallarda Azərbaycan Respublikasında əhalinin köçürülməsi haqqında Əsasnamə"nin 3.11-ci bəndində "Azəravtonəqliyyat" Dövlət Konserni" sözləri "Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin.

**5** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 29 iyul tarixli 284 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 6, maddə 745) ilə təsdiq edilmiş Əlavə - "Bakı Metropolitenində baş vermiş partlayışla əlaqədar respublikanın nəqliyyat sahələrində sərnişin və yüklərin daşınmasında təhlükəsizliyin təmin edilməsi üçün tədbirlər planı"nda aşağıdakı dəyişikliklər edilsin:

5.1. 17-20-ci hissələrin "İcraçılar" sütununda "Azərbaycan Dəmir Yolu" sözləri "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti" sözləri ilə əvəz edilsin;

5.2. 23-cü hissənin "İcraçılar" sütununda "Azərbaycan Hava Yolları" DK" sözləri "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti" sözləri ilə əvəz edilsin.

**6.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1995-ci il 20 noyabr tarixli 251 nömrəli Qərarı (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1996-cı il 30 sentyabr tarixli 133 nömrəli Qərarı; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 9, maddə 736; 2010, № 4, maddə 371; 2014, № 1, maddə 57) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası tərəfindən Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin müəssisələri və təşkilatları ilə istehsal kooperasiyasının və ixtisaslaşmanın qorunub saxlanması və inkişafına dair sahə və sahələrarası sazişləri bağlayan və icrasını təmin edən nazirlik, komitə, şirkət, konsern, birlik və təşkilatların Siyahısı"nın on dördüncü abzasında "Azərbaycan Hava Yolları" Dövlət Konserni, "Azəravtonəqliyyat" Dövlət Konserni" sözləri "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi" sözləri ilə, "Bakı Dəniz Ticarət Limanı" sözləri "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyəti" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 245** **Bakı şəhəri, 28 iyul 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Bakı Metropolitenində 1995-ci il oktyabrın 28-də baş vermiş qəza ilə əlaqədar respublikanın nəqliyyat sahələrində sərnişinlərin və yüklərin təhlükəsizliyinin təmin edilməsi haqqında" 1996-cı il 24 yanvar tarixli 9 nömrəli, "Azərbaycan Respublikası ərazisində beynəlxalq avtomobil daşımalarını tənzimləyən "İcazə Sistemi"nin tətbiqi haqqında" 1996-cı il 14 oktyabr tarixli 141 nömrəli, "Təhlükəli yüklərin dəmir yolu nəqliyyatı ilə daşınması Qaydalarının təsdiq edilməsi haqqında" 2000-ci il 20 noyabr tarixli 207 nömrəli, "Özəlləşdirilən dövlət müəssisələrinin (birliklərinin) və ləğv olunmuş nazirlik, dövlət şirkəti və konsernlərinin sosial-mədəni və məişət-kommunal təyinatlı obyektlərinin yerli icra hakimiyyəti orqanlarının, aidiyyəti üzrə müvafiq təşkilatların balansına verilməsi barədə" 2001-ci il 4 iyun tarixli 113 nömrəli və "Dəmir yolu nəqliyyatı təyinatlı torpaqlardan və dəmir yolunun xüsusi mühafizə zonasına aid torpaqlardan istifadə olunması Qaydaları"nın və "Dəmir yolları üçün və dəmir yolunun sanitariya-mühafizə zonası üçün torpaqayırma Normaları"nın təsdiq edilməsi haqqında" 2005-ci il 23 fevral tarixli 33 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Prezi-dentinin "Azərbaycan Respublikasının rayon, şəhər, şəhərlərdə rayon icra hakimiyyəti başçılarının aparatlarında sənədlərlə iş barədə Təlimat"ın təsdiq edilməsi haqqında" 2000-ci il 6 mart tarixli 347 nömrəli, "Yerin təki haqqında" Azərbaycan Respublikası Qanununun icrasını təmin edən bəzi normativ hüquqi aktların təsdiq edilməsi barədə" 2000-ci il 6 mart tarixli 351 nömrəli, "2001-ci il martın 12-də Ankara şəhərində Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında imzalanmış sənədlər haqqında" 2001-ci il 8 may tarixli 717 nömrəli, "Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının 1368 nömrəli 2001-ci il 12 sentyabr tarixli, 1373 nömrəli 2001-ci il 28 sentyabr tarixli və 1377 nömrəli 2001-ci il 12 noyabr tarixli qətnamələrinin yerinə yetirilməsinin təmin edilməsinə dair tədbirlər planı haqqında" 2002-ci il 11 may tarixli 920 nömrəli, "Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" 2004-cü il 21 oktyabr tarixli 462 nömrəli, "Azərbaycan Respublikası vergi xidməti işçilərinin peşə bayramı gününün təsis edilməsi haqqında" 2005-ci il 1 fevral tarixli 607 nömrəli, "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planının təsdiq edilməsi haqqında" 2006-cı il 28 dekabr tarixli 1880 nömrəli və "Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiyanın təsdiq edilməsi barədə" 2007-ci il 28 iyul tarixli 2292 nömrəli sərəncamlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 dekabr tarixli 3684 nömrəli Sərəncamına əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1996-cı il 24 yanvar tarixli 9 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 6, maddə 745) ilə təsdiq edilmiş Əlavə - "Bakı Metropolitenində baş vermiş qəza ilə əlaqədar respublika nəqliyyat sahələrində sərnişin və yüklərin daşınmasında təhlükəsizliyin təmin edilməsi üçün tədbirlər planı"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 4-cü hissənin "İcraçılar" sütununda "Azərbaycan Dövlət Dəmir Yolu" sözləri "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti" sözləri ilə, "Azərbaycan Hava Yolları" DK, "Azəravtonəqliyyat" DK" sözləri "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin;

1.2. 15-ci hissənin "İcraçılar" sütununda "Azərbaycan Dövlət Dəmir Yolu İdarəsi, "Azəravtonəqliyyat" DK, "Azərbaycan Hava Yolları" DK" sözləri "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi, "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti" sözləri ilə, "Bakı Dəniz Limanı" sözləri "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyəti" sözləri ilə əvəz edilsin;

1.3. 18-ci və 19-cu hissələrin "İcraçılar" sütununda "Azərbaycan Dövlət Dəmir Yolu İdarəsi" sözləri "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti" sözləri ilə əvəz edilsin;

1.4. 21-ci hissənin "İcraçılar" sütununda "Bakı Dəniz Limanı" sözləri "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyəti" sözləri ilə əvəz edilsin;

1.5. 22-ci hissənin "İcraçılar" sütununda "Azəravtonəqliyyat" DK" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi" sözləri ilə əvəz edilsin.

**2.** "Azərbaycan Respublikası ərazisində beynəlxalq avtomobil daşımalarını tənzimləyən "İcazə Sistemi"nin tətbiqi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1996-cı il 14 oktyabr tarixli 141 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 7, maddə 476; 2002, № 3, maddə 148; 2003, № 6, maddə 342, № 8, maddə 460) 3.1-ci bəndində "Azəravtonəqliyyat" Dövlət Konserni" sözləri "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi" sözləri ilə əvəz edilsin.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 20 noyabr tarixli 207 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 11, maddə 828; 2002, № 11, maddə 675; 2003, № 6, maddə 342; 2006, № 9, maddə 822; 2009, № 8, maddə 675, № 9, maddə 736; 2016, № 9, maddə 1585; 2017, № 9, maddə 1742; 2018, № 4, maddə 802, № 11, maddə 2448; 2019, № 9, maddə 1558; 2020, № 9, maddə 1238; 2021, № 10, maddə 1193) ilə təsdiq edilmiş "Təhlükəli yüklərin dəmir yolu nəqliyyatı ilə daşınması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. 6.2.12-ci yarımbəndin birinci abzasında "Azərbaycan Dövlət Dəmir Yolu İdarəsi" sözləri "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti" sözləri ilə əvəz edilsin;

3.2. 6.2.26-cı yarımbəndin birinci cümləsində "Azərbaycan Dövlət Dəmir Yolları" sözləri "dəmir yolları" sözləri ilə əvəz edilsin;

3.3. 7.1.1-ci yarımbəndin birinci abzasında "Azərbaycan Dövlət Dəmir Yolu" sözləri "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin" sözləri ilə əvəz edilsin.

**4** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 4 iyun tarixli 113 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 6, maddə 434; 2006, № 12, maddə 1161; 2008, № 6, maddə 586) ilə təsdiq edilmiş "Özəlləşdirilən dövlət müəssisələrinin (birliklərinin) və ləğv olunmuş nazirlik, dövlət şirkəti və konsernlərinin sosial-mədəni və məişət-kommunal təyinatlı obyektlərinin (yaşayış binaları və yataqxanalarda yerləşən qeyri-yaşayış sahələri istisna olmaqla) yerli icra hakimiyyəti orqanlarının, aidiyyəti üzrə müvafiq təşkilatların balansına verilməsi siyahısı"nın "Azərbaycan Dövlət Dəmir Yoluna" hissəsinin adı aşağıdakı redaksiyada verilsin:

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinə".

**5** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 23 fevral tarixli 33 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 2, maddə 133; 2006, № 1, maddə 59; 2009, № 9, maddə 736, № 10, maddə 846; 2013, № 6, maddə 739; 2015, № 11, maddə 1418; 2016, № 9, maddə 1565, № 12, maddə 2211; 2018, № 7 (II kitab), maddə 1627; 2019, № 7, maddə 1310; 2020, № 2, maddə 206; 2022, № 11, maddə 1346) ilə təsdiq edilmiş "Dəmir yolu nəqliyyatı təyinatlı torpaqlardan və dəmir yolunun xüsusi mühafizə zonasına aid torpaqlardan istifadə olunması Qaydaları"nın 20-ci hissəsində "ADDY" akronimi "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 246** **Bakı şəhəri, 28 iyul 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 1 fevral tarixli 22 nömrəli Qərarı ilə təsdiq edilmiş "Radiotezliklərin ayrılması, qeydiyyatı, istifadəsi və ödənişlərin təyin olunması Qaydaları"nda dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Telekommunikasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 27 dekabr tarixli 768-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 1 fevral tarixli 22 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 2, maddə 182; 2009, № 2, maddə 144; 2014, № 2, maddə 216, № 6, maddə 747; 2016, № 9, maddə 1585; 2019, № 1, maddə 158; 2021, № 7, maddə 888; 2022, № 4, maddə 391, № 5, maddə 558, № 8, maddə 1015, № 12, maddə 1544) ilə təsdiq edilmiş "Radiotezliklərin ayrılması, qeydiyyatı, istifadəsi və ödənişlərin təyin olunması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

**1** 1.2-ci bənddən "əsasən tezlik zolaqlarının ayrılması cədvəlinə və radiotezliklər spektrindən perspektiv istifadə planına" sözləri çıxarılsın.

**2.** 1.3-cü bəndin ikinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Müdafiə, kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinin subyektləri istisna olmaqla, radiotezliklərin ayrılması haqqında qərar olmadan radiotezliklərdən istifadə etməklə radioelektron vasitələrin (bundan sonra – REV) layihələndirilməsi, quraşdırılması və istismar edilməsi, habelə Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi radioelektron vasitələrin istifadəsinə icazə vərəqəsi olmadan radioelektron vasitələrin quraşdırılması və istismar edilməsi qadağandır.".

**3.** 1.7-ci, 2.1-ci və 3.1-ci bəndlərdə ismin müvafiq hallarında "radioelektron vasitələri" sözləri ismin müvafiq hallarında "REV" akronimi ilə əvəz edilsin.

**4** 2.12-ci bəndə "istehsalçı tərəfindən verilən sertifikat" sözlərindən sonra ", DRİ-nin planlaşdırılan radiotezliklər və həmin radiotezliklərdə istifadə olunan radioelektron vasitələrin elektromaqnit uzlaşması üzrə rəyi" sözləri əlavə edilsin.

**5** 2.26-cı bənd ləğv edilsin.

**6** 2.35-ci bənd aşağıdakı redaksiyada verilsin:

"2.35. Radiotezliklərin ayrılması haqqında qərar "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş hallarla yanaşı, həmçinin aşağıdakı hallarda ləğv edilir:

2.35.1. telekommunikasiya xidmətlərinin göstərilməsi üçün verilən lisenziya ləğv edildikdə, o cümlədən sellülar (mobil) telekommunikasiya xidmətləri üçün verilən lisenziyanın müddəti bitdikdə;

2.35.2. radiotezliklərin ayrılması haqqında qərar alındıqdan sonra 1 (bir) ay müddətində radiotezlik istifadəçisi tərəfindən DRİ ilə radiotezliklərdən istifadəyə dair müqavilə bağlanılmadıqda;

2.35.3. radiotezlik istifadəçisi tərəfindən radiotezliklərdən istifadəyə dair bağlanılmış müqavilədə olan öhdəliklər yerinə yetirilmədikdə, o cümlədən tezlik nominalları üçün mövcud tariflərə uyğun 2 (iki) il müddətində ödənişlər tam aparılmadıqda və ayrılmış radiotezliklər 3 (üç) ay müddətində istifadə edilmədikdə.".

**7** Aşağıdakı məzmunda 2.35-1-ci bənd əlavə edilsin:

"2.35-1. Beynəlxalq və ölkə səviyyəli tədbirlərin, o cümlədən idman yarışlarının keçirildiyi müddətdə radiotezlik istifadəçilərinin radiotezlik zolaqlarından istifadə hüququ Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin təklifi ilə DRİ-nin qərarı əsasında dövlət təhlükəsizliyi məqsədləri üçün müstəsna hallarda məhdudlaşdırıla bilər.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 247** **Bakı şəhəri, 28 iyul 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikasının statistik vahidlərin Dövlət registrinin yaradılması haqqında" 1992-ci il 9 sentyabr tarixli 496 nömrəli, "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə bağlı məsələlər haqqında" 1997-ci il 2 may tarixli 38 nömrəli, "Müəlliflərin və əlaqəli hüquqların sahiblərinin əmlak hüquqlarını kollektiv əsasda idarə edən təşkilatların qeydiyyatdan (akkreditasiyadan) keçirilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" 2011-ci il 22 sentyabr tarixli 149 nömrəli və "Azərbaycan Respublikasında ticarət, ictimai iaşə, məişət və digər növ xidmət Qaydaları"nın təsdiq edilməsi haqqında" 2014-cü il 3 aprel tarixli 94 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Sanitariya-epidemioloji salamatlıq haqqında", "Sərhəd mühafizə orqanları haqqında", "Daxili qoşunların statusu haqqında", "Rəsmi statistika haqqında", "Həmkarlar ittifaqları haqqında", "Haqsız rəqabət haqqında", "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında", "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında", "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" və "Xüsusi iqtisadi zonalar haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 17 fevral tarixli 817-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1992-ci il 9 sentyabr tarixli 496 nömrəli Qərarı (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1993-cü il 22 fevral tarixli 126 nömrəli və 23 mart tarixli 159 nömrəli, 1996-cı il 2 avqust tarixli 98 nömrəli qərarları; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 8, maddə 659; 2006, № 4, maddə 371; 2008, № 9, maddə 853; 2010, № 1, maddə 69; 2014, № 2, maddə 201; 2016, № 5, maddə 955, № 9, maddə 1585) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası statistik vahidlərin Dövlət Registri haqqında Əsasnamə"nin 8-ci hissəsində "kütləvi informasiya vasitələri," sözləri "media subyektləri," sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1997-ci il 2 may tarixli 38 nömrəli Qərarına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 5, maddə 320; 2003, № 9, maddə 524; 2004, № 5, maddə 383; 2006, № 3, maddə 297, № 5, maddə 463; 2008, № 7, maddə 683; 2011, № 4, maddə 363; 2017, № 10, maddə 1928; 2018, № 8, maddə 1809; 2020, № 10, maddə 1310; 2021, № 8, maddə 968, № 9, maddə 1049; 2023, № 3, maddə 425) 9 nömrəli əlavə - "Televiziya və radio verilişlərinin, televiziya filmlərinin və digər televiziya və radio əsərlərinin yaradıcılarına ödənilən müəllif qonorarlarının və sair ödənilən haqların miqdarı və verilməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 5.4.11-ci yarımbənddə "Teleradio verilişlərinin" sözləri "Televiziya və radio proqramlarının" sözləri ilə əvəz edilsin;

2.2. "6."EKRAN-EFİR" həftəliyinin səhifələrində dərc olunan materiallar üçün müəllif qonorarının minimum miqdarı" hissəsinin cədvəlinin "İşlərin növü" sütununun 2-ci sətrində "Teleradioverilişlərinə" sözləri "Televiziya və radio proqramlarına" sözləri ilə əvəz edilsin;

2.3. 9-cu hissənin adında "Teleradio verilişlərinin" sözləri "Televiziya və radio proqramlarının" sözləri ilə əvəz edilsin.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 22 sentyabr tarixli 149 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 9, maddə 859; 2017, № 12 (II kitab), maddə 2506; 2018, № 8, maddə 1809, № 12, maddə 2734) ilə təsdiq edilmiş "Müəlliflərin və əlaqəli hüquqların sahiblərinin əmlak hüquqlarını kollektiv əsasda idarə edən təşkilatların qeydiyyatdan (akkreditasiyadan) keçirilməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. 3.14-cü bənddə "digər kütləvi informasiya vasitələri ilə" sözləri "mediada" sözü ilə əvəz edilsin;

3.2. 5.3-cü bənddə "kütləvi informasiya vasitələri ilə" sözləri "mediada" sözü ilə əvəz edilsin.

**4** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 3 aprel tarixli 94 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 4, maddə 440, № 11, maddə 1513; 2015, № 5, maddə 665; 2016, № 3, maddə 615, № 5, maddə 955, № 9, maddə 1563, № 10, maddə 1733; 2017, № 1, maddə 123, № 8, maddələr 1616, 1623, № 9, maddə 1758; 2018, № 2, maddə 343, № 3, maddə 622, № 4, maddə 809, № 5, maddə 1126, № 8, maddə 1817, № 10, maddə 2162, № 11, maddə 2439; 2019, № 3, maddə 522, № 12, maddə 2101; 2020, № 2, maddə 206, № 10, maddə 1270, № 11, maddə 1411; 2021, № 2, maddə 193, № 10, maddə 1197; 2022, № 4, maddə 374, № 11, maddə 1346) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında ticarət, ictimai iaşə, məişət və digər növ xidmət Qaydaları"nın 20-1.6-cı bəndində "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 248** **Bakı şəhəri, 28 iyul 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin Nizamnaməsinin təsdiq edilməsi haqqında" 2005-ci il 18 iyun tarixli 106 nömrəli və "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsinin və strukturunun təsdiq edilməsi barədə" 2016-cı il 4 oktyabr tarixli 375 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 2 dekabr tarixli 669-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 18 iyun tarixli 106 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 6, maddə 542; 2006, № 11, maddə 1003; 2009, № 1, maddə 22; 2013, № 6, maddə 761; 2015, № 12, maddə 1594; 2016, № 3, maddə 613, № 6, maddə 1227, № 8, maddə 1449; 2019, № 4, maddə 755; 2020, № 5, maddə 654; 2022, № 2, maddə 185) ilə təsdiq edilmiş "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin Nizamnaməsi"nin 5.16-cı bəndinin ikinci cümləsində "ləğv edilməlidir" sözləri "dövriyyədən çıxarılmalıdır" sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 4 oktyabr tarixli 375 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 10, maddə 1694; 2019, № 4, maddə 756; 2020, № 5, maddə 653, № 7, maddə 964; 2022, № 2, maddə 187) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsi"nin 6.5.11-ci yarımbəndində "ləğvi" sözü "dövriyyədən çıxarılması" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

Tarixin həqiqəti – həqiqətin tarixi

# Nizami Gəncəvi: "Mənim atam, atamın atası türk idi"

## Gəncəli dahini kimsə Azərbaycandan ayıra bilməz

**Gəncə dahisi Nizamini Azərbaycanda və türklükdən ayırmaqla bağlı zaman-zaman göstərilən cəhdlər davamlı olaraq nəticəsiz qalmışdır. Ulu soydaşımızın milli mənşəyinin saxtalaşdırılması müstəqillik illərində də davam etməkdədir və bu, suveren dövlətimizə qarşı siyasi-mənəvi təxribat xarakteri daşıyır.**



**AMEA Ədəbiyyat İnstitutu nizamişünaslıq şöbəsinin aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, dosent Zəhra Allahverdiyeva son tədqiqatları ilə milli varlığımıza düşmən kəsilən dairələrin Nizami Gəncəvi ilə bağlı saxta iddialarını qəti olaraq rədd etmişdir. Nizamişünas alim qəzetimizə açıqlamasında bildirdi:**

– Nizami Gəncəvinin türk olmaması barədə saxta mülahizələr İranda türk milli kimliyini saya salmamaq, türklərin tarix və mədəniyyətini saxtalaşdırmaq siyasətinin tərkib hissəsidir. Bu düşmənçilik əvvəlki dövrlərdə ədəbi-mədəni çəkişmələr şəklində təzahür etsə də, bir əsrə yaxındır ki, fars şovinizminin dövlət siyasəti səviyyəsində davam etdirilir. 1925-ci ildə türk-Qacarlar nəslinin sonuncu hökmdarı Əhməd şahı devirərək hakimiyyətə gələn şovinist fars Pəhləvilər sülaləsinin banisi Rza şahdan sonra bu proses gücləndirildi.

Məlumdur ki, Fars, yəni Persiya əslində İranın bir əyaləti idi. 1935-ci ildə Rza şah İranı arilərin, yəni hind-irandilli tayfaların torpağı elan etdi və bu məqsədlə həmin ərazilərdə yaşayan türklərin, o cümlədən Azərbaycan türklərinin dillərinin saxtalaşdırılması həyata keçirildi. Bu proses onun oğlu Məhəmməd Rza şah dövründə də davam etdirildi. Azərbaycan türklərinin dili üzərində aparılan saxtakarlıqlar, bu dilin, guya, fars mənşəyinə bağlı olması haqqında uydurulan yalanlar buna parlaq sübutdur.

Həmin dövrdən etibarən, Şərqin farsdilli poeziya nümayəndələrinin, eləcə də Azərbaycan şairi Nizami Gəncəvinin mənşəyinin saxtalaşdırılması işində yeni mərhələ başlandı, ciddi cəhdlər göstərildi. Halbuki buna qədər, hələ 1926-cı ildə görkəmli şərqşünas-alim Yuri Marr Tehranda səfərdə olarkən, məşhur İran alimi Səid Nəfisi onunla söhbətində belə söyləmişdi: "Farslar Nizamini başa düşmürlər, onun şeirləri farslara yaddır".

Nizami Gəncəvi özü isə türk mənşəyini əsərlərində açıq-aşkar söyləmişdir:

**Mənim atam, atamın atası türk idi,**
**Fərzanəlikdə hər biri bir qurd idi.**

Nizaminin doğulub-yaşadığı, əbədiyyətə qovuşduğu və 8 əsrdir ki, məzarının xüsusi bir sevgi-sayğı ilə qorunub saxlandığı Gəncənin əhalisinin lap qədimdən türklərdən ibarət olduğunu bir çox mənbələr və tədqiqatçılar təsdiq etmişlər. Y.Bertelsin qeyd etdiyi kimi, VII əsrdə ərəblərin işğalından sonra da Qafqaz ərazisində dövləti islamı qəbul etmiş yerli türk bəyləri idarə edirdi. Bir çox şərqşünas alimlər XI–XII əsrlərdə Azərbaycan Atabəylər dövlətinin mərkəzi şəhərlərindən biri Gəncənin əhalisinin türklərdən ibarət olduğunu mənbələr əsasında təsdiq ediblər. İran alimi Barat Zəncani Gəncə əhalisinin dilinin türk dili olduğunu, Nizaminin isə türkcə şeirlər yazdığını bildirib.

Nizami Gəncəvinin babası Zəki Müəyyəddin əslən Oğuz türklərinin Boz ox qolundan çıxmış adlı-sanlı bəyzadələr nəslindən idi. O, Gəncədə din xadimi və Səlcuqlar sarayına yaxın bir şəxs idi və "Müəyyəddin" (Dində Allah tərəfindən qüvvət verilən, saxlanılan) tituluna layiq görülmüşdü. Nizami Gəncəvinin adı, künyəsi və təxəllüsü Şərqin mötəbər təzkirə məxəzlərində Şeyx Əbu Məhəmməd İlyas ibn Yusif ibn Zəki Müəyyəddin Nizami Gəncəvi kimi qeyd olunmuşdur. Gəncə dahisi filosof-şair və alim olaraq qazandığı izzət və şöhrətin sayəsində "Şeyx" titulu fəxri adını qazanmışdır.

Nizami Gəncəvinin yaşadığı dövrdə Məhəmməd Cahan Pəhləvan və Qızıl Arslanın hakimiyyəti illərində Atabəylərin istər Gəncə, istərsə də Naxçıvan saraylarında fəaliyyət göstərən əyanların əksəriyyəti xalqa daha yaxın olan türk əsilli savadlı şəxslərdən seçilirdi.

Nizami Gəncəvinin boya-başa çatmasında və mükəmməl tərbiyə və təhsil almasında Gəncədə hörmət və izzət sahibi olan atası – Zəki Müəyyəddinin oğlu Yusifin mühüm rolu olmuşdur.

**Nizamişünas alim daha sonra qeyd etdi ki, dahi şairin anası da Azərbaycanda əsil-nəcabətli, zadəgan nəslindən olan, Gəncədə dünyaya göz açmış türk qızı idi:**

– Təəssüf ki, bəzi tədqiqatçılar onun türk milli mənşəyini kobud şəkildə təhrif etmişlər. Belə ki, N.Gəncəvinin "Leyli və Məcnun" əsərinin "Dünyadan köçənlərin bəzisinin zikri haqqında" hissəsinə şairin anası haqqında "Rəiseyi-qord" sözü sonradan artırılmış və bu söz "kürd Rəisə" kimi süni şəkildə dolaşıqlıq yaratmışdır. XX əsrin 80-ci illərində bir sıra şərqşünaslar "qord" sözünün "igid" mənasında olduğunu söyləmişlər.

Nizami Gəncəvinin dayısı, yəni anasının qardaşı Xacə Ömər Gəncə sarayına yaxın, yüksək nüfuza malik bir şəxs idi. O dövrdə "Xacə" titulu şah sarayının mühafizəçilərinin başçısına verilərdi. Məşhur Dehxoda lüğətinə görə, sarayın rəisinə Xacə deyilirdi. Onu da qeyd etmək vacibdir ki, türk sultan saraylarının qaydalarına əsasən, saray rəisi – Xacə vəzifəsinə cəsurluqda və sədaqətdə ad çıxarmış türk bəyzadələri seçilirdi. Elə bu faktın özü onu təsdiq edir ki, Nizaminin anası əsil-nəcabətli türk qızı olub.

Nizami Gəncəvi özünü "Üveys" adlandırıb. Bu adda türklərin totemlə bağlı kökü və tamğa işarəsi vardır. Qədim ərəblər Oğuza – "Üveys", yəni "Qurd balası" adını vermişlər. Qədim ərəb və fars lüğətlərində "Üveys" qurd adıdır. Bu faktlardan göründüyü kimi, dahi Azərbaycan şairi Nizami Gəncəvinin həm ata tərəfdən, həm də ana xətti ilə milli mənsubiyyəti türkdür. Şairin öz əsərlərində verdiyi məlumatlar buna parlaq sübutdur.



XX əsrin 40-cı illərində "Nizami Gəncəvinin həyat və yaradıcılığı" mövzusu üzrə silsilə araşdırmalar aparan görkəmli şərqşünas Yevgeni Bertels mötəbər şəkildə yazırdı: "Nizaminin qardaşı da şair idi və Qivami Mütərrizi ləqəbi ilə yazırdı. Lakin mürəkkəb şeir texnikasını məharətlə mənimsəmiş olan bu adam başqa bir yolla getmiş və saray şairi şöhrətini intixab etmişdi.

**– Nizami Gəncəvinin 1169-cu ildə Dərbənd hakiminin ona töhfə göndərdiyi qıpçaq-türk gözəli Afaqla ailə qurduğunu, bu izdivacdan iki oğlunun dünyaya gəldiyini diqqətə çatdıran Zəhra Allahverdiyeva sonda dedi:**

– Nizaminin bir oğlu dünyadan çox erkən köçüb. Digər oğlunun adının Məhəmməd olduğu şairin əsərlərindən bəllidir. Məhəmməd ağıllı, fərasətli, atasına dayaq olan bir övlad, həm də öz dövrünün ziyalı bir şəxsiyyəti olub.

Böyük Azərbaycan şairi Nizami Gəncəvinin həm ata, həm də ana xətti ilə milli mənsubiyyətinin türk olduğunu qeyd olunan faktlar təkzibolunmaz şəkildə sübut edir. Şairin öz əsərlərində verdiyi məlumatlar da onun türk oğlu türk olduğunun qəti dəlilləridir.

***Hazırladı:***
***Tahir AYDINOĞLU,***
***"Xalq qəzeti"***

# Meşəli soyqırımı günahkarı saxlanıldı

**Meşəli soyqırımı hadisələri ilə bağlı beynəlxalq axtarışda olan şəxs saxlanılıb. Bu, 1955-ci il təvəllüdlü, Azərbaycan Respublikasının vətəndaşı, Əsgəran rayonunun Badara kəndində doğulmaqla həmin kənddə yaşamış, Xankəndi şəhər avtomobil nəqliyyat müəssisəsində sürücü işləmiş Xaçaturyan Vaqif Çerkezoviçdir.**

V. Xaçaturyan 1991-ci il dekabrın 22-də erməni milliyyətindən olan digər şəxslərlə birgə Meşəli kəndində yaşamış azərbaycanlıları bir milli qrup kimi bütövlükdə məhv etmək məqsədilə müxtəlif silahlardan, o cümlədən odlu silah və piyadaların döyüş maşınından istifadə etməklə həmin kəndə silahlı basqın edibərək 25 nəfər azərbaycanlı milliyyətindən olan şəxsi öldürüb, 14 nəfər şəxsə müxtəlif dərəcəli bədən xəsarətləri yetirib, 358 nəfər azərbaycanlını isə beynəlxalq hüquq normaları və Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş əsaslar olmadan qanuni yaşadıqları yerlərdən didərgin salıb.

Bundan başqa, V.Xaçaturyan qabaqcadan əlbir olduğu şəxslərlə birgə cinayətkar hərəkətlərini davam etdirərək dövlətə və kənd sakinlərinə məxsus əmlakları məhv etmək və zədələməklə ümumilikdə 5 milyon 496 min 900 manat məbləğində maddi ziyan vurub.

Aparılan cinayət işi üzrə kifayət qədər əsaslı şübhələr yarandığından V.Xaçaturyanın Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 103 (soyqırımı) və 107-ci (əhalini deportasiya etmə və ya məcburi köçürmə) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb olunması barədə qərar qəbul edilib, lakin olduğu yer istintaqa məlum olmadığına görə barəsində 2013-cü il noyabrın 12-də beynəlxalq axtarış elan edilməklə məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Keçirilmiş axtarış tədbirləri nəticəsində 2023-cü il iyulun 29-da Vaqif Xaçaturyan Beynəlxalq Qırmızı Xaç Komitəsinin vasitəçiliyi ilə müalicə almaq adı altında Ermənistan Respublikasına getmək istəyərkən Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçuları tərəfindən Azərbaycan-Ermənistan dövlət sərhədinin Laçın sərhəd-keçid məntəqəsində saxlanılıb.

Vaqif Xaçaturyanın Bakı şəhərində tibb müəssisəsinə yerləşdirilməsi, zəruri tibbi yardımın göstərilməsi, həmçinin BQXK-nın nümayəndələrinin ona baş çəkməsinə şəraitin yaradılması təmin ediləcək.

Hazırda cinayət işi üzrə digər təqsirləndirilən şəxslərin məsuliyyətə cəlb edilməsi üçün zəruri əməliyyat-istintaq tədbirləri davam etdirilir.

***Qəzənfər QASIMOV,***
***"Xalq qəzeti"***

# Heç bir cani cəzasız qalmayacaq

## Dövlət başçımız bu ifadəni işlədəndə Meşəli qatili kimi qaniçənləri nəzərdə tuturdu

**Dünən şahidi olduğumuz tarixi fakt "Azərbaycan beş-altı dövlətin müdafiə etdiyi Ermənistana neyləyə bilər ki?" – deyən bədxahlarımıza verilən ikinci tutarlı və layiqli cavab oldu. Birinci cavabı 2020-ci ilin payızında – Ermənistan ordusunun darmadağın edildiyi günlərdə vermişdik. O zaman "Ermənistan Azərbaycana bir qarış da olsun, torpaq qaytarmayacaq" – deyənlər dillərini tam sakit bir yerdə saxlamağa məcbur olmuşdular. İndi isə "Azərbaycan hansı erməniyə öz cinayətini sübut edə biləcək?"– kimi iyrənc mövqe nümayiş etdirənlər "dillərini gizlətməyə" məcbur oldular.**

Cənab Prezident, Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyev hələ İkinci Qarabağ müharibəsindən təxminən yarım il əvvəl – 2020-ci il fevralın 26-da Xocalı soyqırımı qurbanlarının xatirəsini anım mərasimində demişdi ki, Xocalıda ermənilərin həyata keçirdiyi dəhşətli qətliam xalqımızın yaddaşından heç vaxt silinməyəcək, gələcək nəsillər Xocalı soyqırımının dəhşətlərini heç zaman unutmayacaq, bu soyqırımını həyata keçirənlər gec-tez ədalət məhkəməsi qarşısında cavab verərək layiqli cəzalarını alacaq, şəhidlərimizin qanı yerdə qalmayacaq.

Xatırladaq ki, düşmənlərimiz "Xocalı soyqırımına gedən yolu açmaq üçün" əvvəlcə bu rayonun kəndlərini dağıdıb viranəyə çevirmiş, əhalini didərgin salmış, çoxsaylı cinayətlər törətmişdilər. Həmin cinayətlərin ən dəhşətlilərindən biri də Meşəli kəndində törədilmişdi. Belə ki, erməni hərbi birləşmələri 1991-ci il dekabrın 23-də səhər saat yeddi radələrində Meşəli kəndinə hücum etmişdilər. Təbii ki, Kremlin göstərişlərinə görə azərbaycanlılarda olan bütün ov silahları götürülmüşdü və ona görə də rusların ciddi-cəhdlə müdafiə edərək silahlandırdığı ermənilər qüvvələrin qeyri-bərabər olmasından istifadə edərək kəndi tamamilə yandırmış, qarət etmiş və çoxsaylı insan ölümünə səbəb olmuşdular.

Doğrudur, kənd sakinləri ermənilərə inadla müqavimət göstərmişdilər. Ancaq həmin müqavimət cəmi bir neçə saat davam etmişdi. Çox ciddi müqavimətlə üzləşməyən vəhşi tayfalar kəndə girərək evlərə, tövlələrə, ot tayalarına od vurmuş, 8-i qadın, 3-ü uşaq olmaqla, 28 nəfəri qətlə yetirmiş, 14 nəfəri yaralamışdılar. Həmin günlərin sənədlərində göstərilir ki, Meşəli kəndi Şuşa və Xocalıdan köməyə gələn qüvvələr tərəfindən azad edilsə də, bir ay sonra yenidən erməni hərbi birləşmələri tərəfindən işğal edilmişdi.

Çox təəssüf ki, Meşəli kəndi indi də Rusiya sülhməramlı qüvvələrinin nəzarəti altındadır. Ancaq xalqımıza qarşı törədilən bütün terror, təxribat, deportasiya, soyqırımı, və digər cinayətlər kimi, Meşəli faciəsi ətrafında da Azərbaycan milliyətindən olan şəxslərin soyqırımı, deportasiyası, kənd sakinləri və dövlətə məxsus çoxsaylı əmlakı məhv etmə və zədələməklə külli miqdarda maddi ziyanın vurulması faktları üzrə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə Azərbaycan Respublikasının Prokurorluq orqanları tərəfindən başlanmış cinayət işinin istintaqı davam etdirilir.

Dünən həmin istintaqın və axtarışların nəticələrindən birinə şahidlik etdik. Azərbaycan Respublikasının erməni əsilli vətəndaşı, Əsgəran rayonunun Badara kəndində doğulmuş və orada yaşamış, Xankəndi şəhər avtomobil nəqliyyat müəssisəsində sürücü işləmiş Xaçaturyan Vaqif Çerkezoviçin Laçın sərhəd nəzarət və keçid məntəqəsində həbs olunması xəbərini eşidəndə həmsöhbətlərimizdən birinin ilk sözü belə oldu: "Vaqif Xaçaturyanın sağ əli Serj Sarkisyanın başına". Digər həmsöhbətimiz – Ağdamdan didərgin salınmış Əsgər dayı isə əlavə etdi ki, darıxmayın, İlham Əliyev onların hamısının cavabını verəcək. Zaman sübut edir ki, Əsgər dayı tamamilə haqlıdır.

Qatil Xaçaturyanın həbs olunması barədə verilən rəsmi məlumatda bildirilir ki, bu cani qabaqcadan əlbir olduğu şəxslərlə birgə cinayətkar hərəkətlərini davam etdirərək dövlətə və kənd sakinlərinə məxsus əmlakları məhv etmək və zədələməklə ümumilikdə 5 milyon 496 min 900 manat məbləğində maddi ziyan vurubmuş.




Azərbaycan dövləti bütün dəlil-sübutları nəzərə aılaraq, təxminən on il qabaq onun Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 103 (soyqırımı) və 107-ci (əhalini deportasiya etmə və ya məcburi köçürmə) maddələrilə təqsirləndirilən şəxs qismində cəlb olunması barədə qərar qəbul etmiş və yaşadığı yer istintaqa məlum olmadığına görə barəsində beynəlxalq axtarış elan edilməklə məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Dünən isə onun yaşadığı yer məlum oldu. Dünənki qərarla onun bundan sonra yaşayacağı yer də müəyyən edildi. Ancaq həmin faktın qeydə alınması zamanı bizi narahat edən başqa bir məqam da ortaya çıxdı. Məlum oldu ki, onun Azərbaycandan qaçmasına, daha doğrusu, istintaqdan yayınmasına Beynəlxalq Qırmızı Xaç Komitəsinin məsulları da vasitəçilik edirlərmiş. Yəni separatçı, quldur və başkəsən ermənilərə bir tərəfdən Rusiya "sülhməramlıları", bir tərəfdən isə dünyanın humanitar sahədə fəaliyyət göstərən təşkilatı himayədarlıq edir.

Humanitar sahə demişkən, sonda onu da xatırladaq ki, Ermənistan rəhbərliyinin gah 360, gah da 400 ton dediyi humanitar yardım karvanındakı yük maşınları əslində Laçına qədər boş gəliblər. Bunu Nikol Paşinyana müxaliflik edən partiya sədrlərindən biri dünən dedi və əlavə etdi ki, orada yük olsaydı, Ermənistan rəhbərliyi həmin karvanın Ağdamdan keçməsinə icazə verərdi. Yaxşı ki, bunu biz demədik, erməni siyasətçi dedi. Əgər həmin erməninin dedikləri həqiqətdirsə, onda Ermənistan rəhbərliyi Laçına göndərdiyi çoxsaylı Avropa siyasətçilərinin hamısının başına kül qoymuş oldu. Hələlik isə kül Ermənistan rəhbərliyinin öz başındadır.

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***

# Ayxan Hacızadə: "Laçındakı keçid məntəqəsinin legitimliyini heç kəs sorğulaya bilməz"

**"Beynəlxalq hüquqa və beynəlxalq humanitar hüquqa istinad edən Ermənistan XİN-in sözçüsü Laçın keçid məntəqəsinin Azərbaycan tərəfindən öz suveren ərazilərində yaradıldığından xəbərsizdir və onun legitimliyini heç kim sorğulaya bilməz. Beynəlxalq Ədalət Məhkəməsi də Ermənistanın bu iddiasını rədd edib".**

Bunu Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Ayxan Hacızadə ermənistanlı həmkarı Ani Badalyanın paylaşımına cavab olaraq yazıb.

Həmçinin Ermənistan XİN-in Vaqif Xaçaturyanın saxlanmasına münasibətini dezinformasiyadan ibarət olduğuna diqqət çəkən A. Hacızadə onun beynəlxalq axtarışda olduğunu xatırladıb:

"Ermənistan XİN yenə dezinformasiya yayır. Adıçəkilən 68 yaşlı Vaqif Çerkezoviç Xaçaturyan Xocalıda Meşəli soyqırımı ilə əlaqədar beynəlxalq axtarışdadır".

Eyni zamanda XİN sözçüsü Ermənistanın BQXK-nin fəaliyyətindən sui-istifadə etdiyini vurğulayıb:

"Təəssüf ki, Ermənistan rəsmiləri üzr istəmək və hərbi cinayətkarların məsuliyyətə cəlb edilməsinə kömək etmək əvəzinə, hələ də qanunsuz hərəkətlərə, o cümlədən məhkəmədən yayınmaq üçün BQXK-nin fəaliyyətindən sui-istifadəyə haqq qazandırmağa çalışırlar".

***"Xalq qəzeti"***

# Bakıda şahmat üzrə Dünya Kubokunun açılış mərasimi keçirilib





**Bakı Konqres Mərkəzində şahmat üzrə Dünya Kubokunun açılış mərasimi keçirilib.**

Əvvəlcə səhnəyə şahmat xanaları gətirilib. Şahmat fiqurlarının formasında paltar geyinmiş personajların ifasında maraqlı səhnəcik təqdim olunub. Ardınca Dövlət Himni səsləndirilib.

Bundan sonra Azərbaycanda şahmatın inkişafı və təbliğindən bəhs edən videoçarx nümayiş olunub.

Gənclər və idman naziri Fərid Qayıbov 10-cu Dünya Kubokunun Bakıda təşkilinin təsadüfi olmadığını bildirib. O, Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi ilə bağlı Azərbaycanda 2023-cü ilin "Heydər Əliyev İli" elan olunduğunu diqqətə çatdırıb. Nazir şahmatın inkişafında dövlətin qayğısını xüsusi vurğulayıb.

Azərbaycan qrosmeysterlərinin beynəlxalq yarışlardakı uğurlarından söz açan FIDE-nin vitse-prezidenti M.Məmmədov Dünya Kubokunda ölkəni 18 şahmatçının təmsil edəcəyini bildirib. M.Məmmədov göstərilən etimada görə növbəti dəfə Beynəlxalq Şahmat Federasiyasının rəhbərliyinə təşəkkür edib.

FIDE-nin prezidenti Arkadi Dvorkoviç öz növbəsində başda Prezident İlham Əliyev olmaqla təşkilatçı ölkəyə belə bir yarışın keçirilməsi üçün minnətdarlığını bildirib. Yaradılan şəraitdən razılıq edən rusiyalı funksioner iştirakçılara uğurlar arzulayıb. Dvorkoviç Dünya Kubokunu açıq elan etdikdən sonra Beynəlxalq Şahmat Federasiyasının rəsmi himni səsləndirilib.

Sonda isə yarışın püşkü atılıb və ilk turda üz-üzə gələcək şahmatçılar müəyyənləşib.

***"Xalq qəzeti"***

# "Taxıl sazişi"nə qayıtmaq mümkündürmü!?

## Bu, bəşəriyyətin xeyrinə əsl humanist addım olardı

**Rusiyanın "taxıl sazişi"ndən çıxması beynəlxalq ictimaiyyəti ciddi narahat edir. Mütəxəssislər hesab edirlər ki, bu, bütün dünyada buğdanın, bütövlükdə ərzaq məhsullarının qiymətlərinin kəskin artmasına səbəb olacaq. Təsadüfi deyil ki, son günlər beynəlxalq birjalarda taxılın satış qiymətləri artmaqda davam edir.**

Xatırladaq ki, 2022-ci il iyulun 22-də İstanbulda Ukrayna taxılının, habelə Rusiyanın aqrar məhsullarının və gübrəsinin Qara dəniz vasitəsilə dünya bazarlarına çatdırılması üzrə sənədlər paketi imzalanıb. Razılaşma ilkin olaraq 120 gün müddətinə nəzərdə tutulmuş, sonradan bir neçə dəfə uzadılmışdı.

Planetimizdə böyük əks-səda doğuran bu təşəbbüsün əsas müəllifi və təşkilatçısı çağdaş dünyanın ən görkəmli dövlət xadimlərindən olan Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğandır. Saziş bir ilə yaxın fəaliyyət göstərmiş, yüz minlərlə ton Ukrayna taxılı dünyanın yoxsul ölkələrinə daşınaraq satılmışdır.

"Taxıl sazişi", bəzən onu "taxıl dəhlizi" də adlandırırlar, Ukraynaya xeyli iqtisadi fayda gətirmişdir. Təxmini hesablamalara görə, Ukrayna hər il taxıl ixracından 10 milyard dollara yaxın gəlir əldə edir. Məhz taxıl sazişi sayəsində bu ölkənin büdcəsinə son bir ildə milyardlarla dollar vəsait daxil olmuşdur.

Xatırladaq ki, 22 iyul 2022-ci ildə Rusiya, Ukrayna, BMT, həmçinin qardaş Türkiyənin vasitəçiliyi ilə "Qara dəniz Taxıl Təşəbbüsü" barədə razılıq əldə edib. "Taxıl sazişi" yük gəmilərinin Qara dənizdən 310 dəniz mili uzunluğunda və üç dəniz mili enində dəhliz boyunca Odessa, Çernomorsk və Pivdennyi limanlarına təhlükəsiz keçməsinə imkan verib. Razılığa əsasən, 2022-ci il avqust ayının əvvəlindən taxılın daşınmasına başlanılıb.

Sazişə uyğun olaraq gəmilər yük yerlərinin boş olduğundan əmin olmaq üçün İstanbul yaxınlığında yoxlamadan keçir, daha sonra yüklənmək üçün Qara dəniz humanitar dəhlizindən Ukrayna limanlarına yol alırdı. Türkiyə tərəfi bütün öhdəliklərinə ciddi əməl edib ki, bu, saziş iştirakçıları tərəfindən hər zaman dərin razılıq hissilə qarşılanıb.

Qeyd etmək lazımdır ki. Ukrayna taxılının hazırda Rusiyanın nəzarətində olan Qara dəniz ərazi sularından maneəsiz ixracına icazə verən və buna şərait yaradan Rusiya və onun liderinin də imici xeyli yaxşılaşmışdı. Bu, yaxın qonşusu ilə ağır müharibə aparan bir ölkənin lideri üçün son dərəcə vacib idi.

Bundan əlavə, müqavilənin fəaliyyət göstərməsi Türkiyə-Rusiya münasibətlərinə pozitiv bir dinamika əlavə etmişdi. Rəsmi Moskva ümid edirdi, belə bir humanist addım regionda sülh danışıqlarının başlanmasına müsbət təsir göstərə bilər. Lakin son aylar və həftələr ərzində Rusiya-Ukrayna müharibəsində gərginlik daha da artmış və tərəflərin danışıq masası ətrafında əyləşəcəyinə ümidlər kəskin azalmışdır.

Belə bir şəraitdə Rusiyanın sazişdən çıxacağı gözlənilən idi. Moskva əlavə şərtlər irəli sürür və müqavilədən çıxacağı ilə bağlı təhdidlər edirdi. Nəhayət, Rusiya Prezidenti Aparatının mətbuat katibi Dimitri Peskov bildirdi ki, bu il iyulun 17-də "Taxıl sazişi"nin fəaliyyəti faktiki olaraq dayandırılıb: "Təəssüf ki, təşəbbüsün Rusiyaya aid hissəsi indiyə qədər yerinə yetirilməyib".




O, eyni zamanda, "taxıl sazişi"nin Rusiyaya aid hissəsinin yerinə yetiriləcəyi təqdirdə, Moskvanın təşəbbüsə geri qayıda biləcəyini söyləyib.

Rusiya Xarici İşlər Nazirliyinin nümayəndəsi Mariya Zaxarovanın sözlərinə görə isə, rəsmi Moskva 2023-cü il iyulun 17-də Türkiyə və Ukrayna tərəflərini, həmçinin BMT katibliyini "Qara dəniz taxıl təşəbbüsü"nün uzadılmasına etiraz etdiyi barədə məlumatlandırıb.

Yeri gəlmişkən, bu günlərdə Moskvada keçirilən "Rusiya-Afrika sammiti"ndə əsas müzakirə mövzularından biri məhz "qara qitə" ölkələrinin kəskin ərzaq çatışmazlığı problemi olub. Rusiyanın dövlət başçısı Afrikanın bir çox yoxsul ölkələrinə güzəştli qiymətlərlə buğda və taxıl satılacağını bildirib.

Sankt-Peterburqda təşkil edilən "Rusiya-Afrika sammiti"ndə bu il əvvəlki tədbirlə müqayisədə daha az sayda (43-ə qarşı 17 dövlət) Afrika lideri qatılıb. Afrika İttifaqının rəhbəri Azali Assumani "taxıl sazişi"nin dayandırılmasının Afrika ölkələrinin Moskva ilə münasibətlərinə təsir edəcəyini bildirib.

Sazişin dayandırılması dünyanın əksər ölkələrində mənfi reaksiya doğrurub. Məsələn, mövzu ilə bağlı açıqladığı son hesabatında Böyük Britaniya kəşfiyyatı Rusiyanın "taxıl sazişi"ni dayandırmasının Afrika ölkələrinin azı iki il taxıl, ərzaq qıtlığı yaşamasına gətirib çıxaracağını bildirib.

Hesabatda həmçinin deyilir ki, bu addım, eyni zamanda dünya bazarında taxılın qiymətinə təsir edəcək və kasıb Afrika ölkələrinin alıcılıq qabiliyyətini daha da aşağı salacaq. Xüsusilə Efiopiya, Keniya, Somali və Sudan kimi ölkələrin aclıqdan əziyyət çəkəcəyi proqnozlaşdırılır.

Misir Prezidenti Əbdülfəttah əs-Sisi Sankt-Peterburqda keçirilən "Rusiya-Afrika sammiti"ndə bildirib ki, taxıl dəhlizi ilə bağlı sazişin yenilənməsi Afrika ölkələri üçün həyati əhəmiyyətə malikdir.

"Əl Əhram" nəşri xəbər verir ki, Misir Prezidenti Rusiyanın dayandırdığı taxıl anlaşması ilə bağlı deyib: "Bu məsələdə razılıq əldə olunmasını səbirsizliklə gözləyirik. Sazişin yenilənməsi həm Afrika ölkələrinin aclıq fəlakətindən xilası, həm də qiymətlərin artmasının qarşısının alınması baxımından mühümdür. Misir bu problemin həllində vasitəçilik etməyə hazırdır".

Dünyada hökm sürən mövcud şərtlərin Afrika ölkələrinə böyük problemlər yaratdığını diqqətə çatdıran əs-Sisi sonra bildirib ki, qlobal kataklizmlər qitənin təhlükəsizliyini və gələcək nəsillərin hüquqlarını təhdid edir.

Onun sözlərinə görə, Afrika dövlətləri öz suverenliyini möhkəmləndirməyə və hüquqlarını qorumağa, eyni zamanda, tez-tez baş verən münaqişələrin qarşısını almağa çalışır. "Hazırkı qlobal böhranların fonunda ərzaq məhsulları və enerjidaşıyıcılarının qiymətlərində yüksək artım qitə ölkələrinə çox mənfi təsir göstərir", -deyə Misir Prezidenti vurğulayıb.

Rusiya lideri Seneqal Prezidenti Maki Sall ilə görüşdə vurğulayıb ki, ötən ildən Qara dənizdə taxıl sazişinin dayandırılmasının səbəbkarı Rusiya deyil, əksinə, Ukrayna və onu dəstəkləyən güclərdir. V.Putinin fikrincə, Afrika bu gün yeni güc mərkəzinə çevrilir və qitə ölkələri ilə sıx əməkdaşlıq Rusiya Federasiyasının maraqları daxilindədir.

Sazişin bağlanmasında vasitəçilik edən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan məsələ ilə bağlı rusiyalı həmkarı Vladimir Putinlə danışıqlar aparacağını bildirib. "Vladimir Putinlə "Taxıl sazişi"nin uzadılmasını yenidən müzakirə edəcəyik. Putinin "taxıl sazişi"nin uzadılmasını istədiyini bilirəm", - Ərdoğan deyib. Lakin sonrakı günlər Kremlin sazişə qaytımaq istəmədiyi bəlli olub.

Bütün bunlara rəğmən, "taxıl sazişi"nin yenidən fəaliyyətə başlayacağına olan ümidlər tam bitməyib. Dünyanın işıqlı, xeyirxah insanları hələ də inanırlar ki, Ukrayna taxılının Qara dəniz vasitəsilə dünya bazarlarına çıxarılması üçün yaxın günlər ərzində danışıqlar yenidən bərpa oluna bilər.

***Məsaim ABDULLAYEV,***
***"Xalq qəzeti"***

### Ekspert rəyi

**Babakişi QULİYEV,**
**kənd təsərrüfatı elmləri namizədi, aqrar sahə üzrə ekspert**



– Türkiyə Prezidenti hörmətli Rəcəb Tayyib Ərdoğanın təşəbbüsü ilə imzalanan və son bir il ərzində uğurla fəaliyyət göstərən "taxıl sazişi"nin təkcə dünyada buğda istehsalçıları və ixracatçıları üçün deyil, bütövlükdə planetimizdə ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün böyük əhəmiyyəti var. Təəssüf ki, sənədin icra müddətini artırmaq hələlik mümkün olmayıb.

Mən dəfələrlə Ukraynada olmuşam, bu gözəl və dost ölkədə fəaliyyət göstərən alim və təsərrüfat rəhbərləri səmimi və işgüzar görüşlərim olub. Hələ sovet dövründə Ukrayna taxılın vətəni sayılırdı. Bu ölkədə yüksək məhsuldar buğda sortları yetişdirilir və uğurla becərilirdi.

Təəssüf ki, il yarımdır ki, Ukrayna torpağında müharibə davam edir. Bu, dağıdıcı və heç bir tərəfə fayda gətirməyən müharibədir. Artıq on səkkizinci aydır ki, Ukrayna ərazisində ağır döyüşlər gedir. Hər iki tərəfdən on minlərlə insan həlak olub. Ukraynanın onlarla şəhəri, yüzlərlə kəndi dağıdılıb, əhalinin az qala dörddəbiri qaçqın və köçkünə çevrilib. Bütün bunların qarşısı alınmalıdır.

O ki qaldı, taxıl sazişinin pozulması məsələsinə, bunu son vaxtlar qlobal geosiyasi müstəvidə yaranan yeni vəziyyətlə izah etmək olar. Rusiya-Ukrayna müharibəsi artıq həlledici mərhələyə daxil olub. Tərəflərin heç biri güzəştə getmək istəmir. Ukraynanın öz taxılını beynəlxalq bazarlara çıxararaq xeyli gəlir qazanması Rusiyaya sərf etmir. Moskva hər vəchlə Ukraynanın maliyyə vəsaitlərini tükəndirmək niyyətindədir.

Sonda qeyd etmək istərdim ki, "taxil sazişi"nin pozulması dünyanın yoxsul ölkələrinin əhalisinə, xüsusilə Afrikada əhalinin rifahına olduqca mənfi təsir göstərəcək. Bu il iyulun 27-28-si tarixlərində Sank-Peterburqda keçirilən "Rusiya-Afrika sammiti"ndə də bu problem gündəmdə idi. Təəssüf ki, böyük güclər bu vacib məsələdə hələ də ümumi dil tapa bilmirlər.

**Kinomuzun sabahını düşünərkən**

# Tarixi filmlər niyə az çəkilir?

## Belə ekran əsərləri keçmişimizə canlı körpü salır



**Azərbaycan kinosunun keçdiyi yola baxanda 1940–1980-ci illərdə tarixi mövzulu neçə-neçə fundamental filmin çəkilməsinin şahidi oluruq. "Babək", "Səbuhi", "Koroğlu", "Fətəli xan", "Nizami", "Nəsimi", "Dədə Qorqud", "Atları yəhərləyin" bu qəbildəndir. Sovet ideologiyasının kəskin vaxtında Azərbaycanın tarixi, mədəniyyəti barədə belə filmlərin çəkilməsi qeyrət, qətiyyət və cəsarət tələb edirdi. Təsadüfi deyil ki, həmin filmlər həmişəlik kinomuzun qızıl fonduna daxil olub.**

Tarixi mövzuda filmlərin çəkilməsi çətin və məsuliyyətli məsələdir. Bu janrda filmlər tez-tez ekranlaşdırılmır. "Nəsimi" filminin rejissoru, görkəmli yazıçı-ssenarist Həsən Seyidbəyli bir zaman bu çətinlik barədə belə demişdi: " Biz Nəsimi dövründən söhbət açmalı idik. Həmin mürəkkkəb dövrün dili, danışığı, plastikası o qədər qabarıq verilməli idi ki, hər səhnədə, hər epizodda dərin gerçəklik, yüksək bədiilik olsun. Belə çətin məsələni təkcə sənətkarlıqla həll etmək mümkün deyildi. Nəsimi roluna dəvət olunan aktyorda mürəkkəb tarixilik, nəsimilik, hürufilik əruz vəzninin ritmi, gözlərində alışb-yanan Nəsimi alovunun qığılcımı vəhdət tapmalı idi". – Bu fikirlər indi də aktuallığını saxlayır.

Müstəqillik dövrümüzə nəzər saldıqda "Cavad xan" və "Hökmdarın taleyi" bədii filmlərinin tarixi janrda çəkildiyini görürük. Bu ekran əsərinin Cavad xanın istiqlalçılıq şüurunu kinoya gətirən bir film olduğunu qeyd edə bilərik. Tarixi mövzuda filmlərin hazırda az çəkilməsinin bir sıra obyektiv və subyektiv səbəbləri var. 1980-ci illərin sonu – 90 cı illərin əvvələrindəki siyasi təbəddülatlar səbəbindən incəsənət sahəsi də böhrana düşmüşdü. Bu baxımdan, ümumən, filmlərin çəkilməsi çətinləşmişdi. Bu janrda olan filmlərə isə ciddi maliyyə dəstəyi yox idi.



Digər səbəb kino xadimlərinin də tarixi mövzuya marağının zəifləməsi idi. Çünki tamaşaçıların daha asan qavranıla bilən, bir növ yüngülməcaz olan mövzulara marağı artmışdı. Bu isə təssüfedicidir. Bu ilin aprel ayında "Azərbaycan kinosu – 125. Reallıq, çağırışlar və hədəflər" mövzusunda Bakıda keçirilən Kino Forumunda bu problemə toxunulmaması da yuxarıdakı fikri təsdiq edir. Təbii ki, bu gün 90-cı illərdə olan əsaslı maliyyə çətinlikləri yoxdur. Deməк ki, bu barədə artıq düşünüb əməli qərar vermək olar.

Tarixi filmlərin bir funksiyası da insanların bu mövzuda maarifləndirməsidir. Çünki tarixi faktlarla əsasən bu sahənin mütəxəssisləri maraqlanır. Odur ki, tarixin filmlərdə inikası və bunun bədii həlli tamaşaçını cəlb edə biləcək səviyyədə olmalıdır ki, ekrandan bir an da göz çəkmədən baxılsın.

Azərbaycan tarixi ilə bağlı maraqlı dramatik mövzular kifayət qədər çoxdur. Rejissorlar, ssenaristlər bu məqamları tapıb ekran yozumu verə bilərlər. Təbii ki, kino xadimlərinin bu işdə tarixçilərlə də məsləhətləşmələr aparmaları faydalıdır.

Biz hazırda informasiya texnologiyalarının yüksək inkişaf etdiyi çağda yaşayırıq. İnsanları təəccübləndirmək, maraqlandırmaq, düşündürmək çətinləşib. Buna baxmayaraq, fərqli nümunələrin də şahidi oluruq. Məsələn, Türkiyə kinosunda son 10 il ərzində tarixi mövzuya maraq çoxalıb. İstər "Fetih 1453" filmi ilə, istərsə də "Kuruluş Osman", "Diriliş Ərtoğrul" serialları nümunəsində tarixi mövzulara qayıdışı müşahidə edirik.

Demək, qloballaşma çağında datarix barədə də böyük filmlər çəkmək mümkündür. Azərbaycan kinosunun son dövrlərdə Türkiyədəki bu nümunələrdən bəhrələnməsi arzuolunandır. Əlbəttə, bu bəhrələnmə heç də həmin filmlərə bənzəyən ekran işlərinin çəkilməsi deyil. Söhbət Azərbaycan kino xadimlərinin tarixi janrla bağlı öz bədii üslublarını, öz yanaşma tərzlərini və milli özəllikləri ortaya qoymalarından gedir.

***Ceyhun MİRZƏLİ,***
***kinoşünas***

# Daimi iqlim dəyişikliyinə hazır olmalıyıq

**Bu il yay çox isti keçir və tarixə iyul ən isti ay kimi düşüb. Türkiyədə yanğınlar, Avropada istidən ölən insanlar, Amerikada ərimiş asfaltdan yanıq alanlar. Rusiya da bu baxımdan geri qalmır - yanan Ural, ölkənin cənubunda daşqınlar. Bunlar bu günün mənzərəsidir.**

## Meşə yanğınları, leysan yağışları daşqınlar daha tez-tez baş verəcək



Qlobal istiləşmə isə 150 ildir müşahidə olunur, XX əsrin əvvəlindən bəri planetdə temperatur qlobal miqyasda 1,2 dərəcə artıb. Və bu, doğrudan da qlobal problemdir, çünki aydındır ki, buna antropogen qazları (zavod və avtomobil qazları), istixana effekti təsir göstərir. Və müxtəlif hesablamalara görə, yaxın 10-20 il ərzində də temperatur tədricən yüksələcək. Beləliklə, yeni temperatur rekordları ilə çox qarşılaşacağıq. Üstəlik, bu, növbəti beş ildə daha tez-tez baş verəcək. Axı planetdəki iqlim dəyişikliyi daim yenilənir.

İqlim dəyişikliyi isə bir tərəfdən meşə yanğınlarına, digər tərəfdən isə daşqınlara səbəb olur. Artıq anomal istilər, meşə yanğınları Avropada fəlakətə səbəb olub. Türkiyə, Yunanıstan, İtaliya, Portuqaliyada meşə yanğınları minlərlə hektar sahələri əhatə edir. Hətta Yunanıstanda meşə yanğınları hərbi obyektlər üçün təhlükə yaradıb. Egey dənizi sahillərində Volos aviabazasındakı sursat anbarı yanğınlar nəticəsində partlayıb. Bu yanğın Yunanıstanda fövqəladə hallar xidmətinin mübarizə apardığı 124 meşə yanğınından ən təhlükəlisi hesab olunur. O cümlədən, turizmdən asılı olan regionlar əziyyət çəkib: ziyarətçilərin evakuasiyası yerli biznes üçün fəlakətli nəticələrə çevrilib. Təkcə Rodosda on minlərlə insan fəlakət zonalarından təxliyə edilib. Hökumət isə israr edir ki, Yunanıstandakı əksər kurortlar turistlər üçün kifayət qədər təhlükəsizdir.

İtaliyada da vəziyyət ağırdır. Siciliya və Sardiniya adalarında, eləcə də Kalabriya və Puqlia regionlarındakı meşə yanğınlarının qarşısını almaq mümkün olmayıb. Həftənin əvvəlindən davam edən yanğınların söndürülməsi üçün mülki müdafiə qüvvələrinin 6 min əməkdaşı səfərbər olunub. Əməliyyatlara, həmçinin 1500 texnika, 14 yanğınsöndürən təyyarə və 2 helikopter cəlb edilib. Sirakuza əyalətində meşəlik ərazidə yanğınla mübarizədə iştirak edən helikopter qəzaya uğrayıb, lakin pilot sağ qalıb. Bildirilib ki, İtaliya ərazisindəki əlverişsiz hava şəraiti 4 nəfərin ölümünə səbəb olub. Türkiyə, Portuqaliya və İspaniyada da oxşar vəziyyət davam edir.

Atlantik okeanının o biri tərəfində də vəziyyət ürəkaçan deyil. ABŞ əhalisinin, təxminən, 60 faizi daşqın və anomal istilərdən əziyyət çəkir. Milli Hava Xidmətinin (NWS) Hava Proqnozları Mərkəzinin baş sinoptiki Bob Oravec deyib: "Daşqın və anomal istilər böyük şəhərlərə təsir edəcək. Buna görə də, insanların sayı bu qədər çoxdur".

Vaşinqton, Filadelfiya və Nyu–York da daxil olmaqla Şərq Sahilində istilik 38 dərəcə Selsini keçib. Sinoptiklər temperaturun orta səviyyədən 5,5-8 dərəcə yuxarı ola biləcəyini gözləyirlər. Eyni zamanda, ABŞ-ın şimal-şərqində və cənubunda, Yeni İngiltərə və Floridanın cənubunda güclü tufan və daşqınlar gözlənilir. Bununla belə, ABŞ-ın cənub-qərbində və qərbində yüksək temperatur davam edəcək. Yeni İngiltərə istilər və daşqın səbəbindən "ikiqat təhlükə"yə hazırlaşır. Oravec bildirib: "Günün birinci yarısında dəhşətli istilik dalğası, sonra isə güclü leysan və daşqınlar gözlənilir".

Beləliklə, növbəti illərdə də temperatur rekordları olacaq, onlar qaçılmazdır. Bəli, kataklizm meylləri artacaq. Təəssüf ki, qlobal istiləşməni dəyişmək praktiki olaraq mümkün deyil. Artıq adaptasiya məsələsi var. Daimi iqlim dəyişikliyinə hazır olmalıyıq. Meşə yanğınları, leysan yağışları, daşqınlar daha tez-tez baş verəcək.

**Pünhan ƏFƏNDİYEV,**
**"Xalq qəzeti"**

# "ASELSAN" "IDEF-2023" sərgisində aviasiya vasitələri üçün yeni sistemlərini nümayiş etdirib

**"ASELSAN" şirkəti hava platformaları üçün hazırladığı yeni məhsullarını "IDEF-2023" sərgisində təqdim edib. Onların sırasına radar, elektron müharibə, aviasiya bombaları üçün tuşlama dəsti və digər sistemlər daxildir.**





**Həmin sistemlər aşağıdakılardır:**
- **"IFF" sorğulayıcı/cavablayıcı.**
- **"ASELFLIR-500" kəşfiyyat, müşahidə və hədəfləmə sistemi.**
- **"AMİR-100C" qəzaya dayanıqlı missiya datalarının qeyd cihazı .**
- **Bələdçi məhsul ailəsi.**
- **Qırıcılar üçün nəzərdə tutulan "AESA" radarı.**
- **"LGK-83" lazer tuşlama dəsti.**
- **"SADAK-2MK".**

"ASELSAN"ın "ASELFLIR-500" kəşfiyyat, müşahidə və hədəfləmə sistemi PUA-lardan döyüş təyyarələrinə qədər müxtəlif hava platformalarına quraşdırıla bilər. Yüksək performanslı kamerası ilə istifadəçiyə lazımi müşahidələrin və kəşfiyyat işlərinin aparılmasında üstün bacarıqlar verir. Çəkisi 57 kiloqram olan "ASELFLIR-500" 25 kilometrə qədər məsafədə lazerlə məsafə ölçmək imkanı və 360 dərəcə bucaq altında fırlanma qabiliyyətini təmin edir.



Şirkət tərəfindən hazırlanan "AMİR-100C" qəzaya dayanıqlı missiya datalarının qeyd cihazı uçuş anında video, səs və uçuş məlumatlarını sıxışdırıb qeyd edir. O, qeydə alınmış məlumatları Toqquşmaya Dayanıqlı Yaddaş Bölməsində saxlamaqla, toplanan dataların qəza zamanı baş verə biləcək mənfi və sərt təzyiqlərin təsirinə məruz qalmamasını təmin edir. "Underwater Transmitter" (ULB) sayəsində qəzadan sonra suyun altında siqnal göndərməklə "AMİR-100C"nin yerini müəyyən etmək mümkündür. "SADAK-2MK" hava platformalarının istifadə etdiyi "Mk-82/83" aviasiya bombalarının döyüş təyyarələri və pilotsuz uçuş aparatları tərəfindən daha çox dəqiqliklə atılmasını təmin edən ağıllı asqı sistemidir. O, "HGK", "KGK", "LGK" və "TEBER" tuşlama dəstləri ilə təchiz olunan ümumilikdə iki ədəd aviasiya bombasının daşınmasını və atılmasını təmin edir. Asqı sistemi əsasən "F-16", "KAAN", "Hürjet" qırıcılarının, "ANKA-3", "Bayraktar KIZILELMA" pilotsuz döyüş təyyarələrinin və "Akıncı" PUA-nın istifadəsi üçün nəzərdə tutulmuşdur. 40 min fit yüksəklikdə xidmət göstərə bilən "SADAK-2MK" asqı sisteminin kütləsi 140 kiloqramdır.

# Özünü axtaranların kitabı

**Gənc yazar Gülgün Quliyeva Azərbaycanda yeni olan şəxsi inkişaf kouçu – "Mind Academy MMC"nin təsisçisi və rəhbəridir. Bu sahənin özəlliklərini araşdıraraq, arzuladığı həyatı yaşamaq istəyən hər kəsə motivasiya aşılamağa çalışır. Onun Nizami Kino Mərkəzində təqdimatı keçirilən kitabı – "Qoy, işığı yandırım" də elə bu aspektdən qələmə alınıb.**






Kitabın "Ön söz"ünün müəllifi, fəlsəfə elmləri doktoru, professor Rahid Ulusel yazır: "Əslində, Gülgün işığı ona görə yandırmaq istəyir, çünki içindəki işığa dərindən nüfuz edərək hər bir zərrəciyi seçməyə çalışır". Bakıdakı Qərb Universitetindən sonra Türkiyənin İzmir şəhərində şəxsi inkişaf kouçu sahəsində təhsil alan Gülgün hazırda yaratdığı müvafiq quruma rəhbərlik edir. Onun sosial şəbəkələrdə geniş izləyici auditoriyası qazanan maarifləndirmə videolarının izahı "Qoy, işığı yandırım" kitabında cəmlənib.

Mərasimdə çıxış edən "Xalq qəzeti"nin baş redaktoru, Əməkdar jurnalist Əflatun Amaşov kitabın özünü axtaran hər kəs üçün faydalı vəsait olduğunu qeyd edərək dedi: "Hətta ilk baxışda bizim bildiyimiz, yaşadığımız və tanış duyğuların alt qatında anlaya və duya bilmədiyimiz çox şeylər yatır, onların hamısını işığa çıxarmaq lazımdır və Gülgün Quliyevanın yandırdığı işıq bu mənada çox gərəkli və hər kəsə lazım ola bilən bir işıqdır.."

Təqdimatda qeyd edildiyi kimi, Gülgün Quliyevanın əksər qismi real təcrübələrdən, intellektual fəhmdən və orijinal mühakimələrdən qaynaqlanan kitabını oxuyanların yeni düşüncələrə dalacağı, özündə yaxşılığa, xeyirə, əzmkarlığa doğru dəyişiklik hiss edəcəyi şübhəsizdir. Bu əsərdə müəllif öz ardınca aparmaq istədiyi oxuculara – arzu, istək vurğunlarına qətiyyən hökm etmir, inandırıcı bir şəkildə yaşam variantlarını nişan verir. Bu, sadəcə kitab deyil, çətin həyat yollarında sıxıntılardan xilas olmağın ən uğurlu layihəsini canlandıran bir ürəyin təsviri, könüllü çağırış, müəllifin düşüncələr aləminə maraq göstərənlərə tərəf uzanmış xeyirxah, etibarlı və düşərli bir əldir.

Gülgünün atası – tanınmış şair, tərcüməçi, publisist, Əməkdar mədəniyyət işçisi Vaqif Bəhmənlinin redaktoru olduğu kitab "Təhsil" nəşriyyatında çapdan çıxıb. Nəşrin üzqabığının tərtibçisi Əziz Sadıqzadə, illüstrasiyaların müəllifi Narınc Mustafayevadır. Gənc yazarın təqdimat mərasiminə toplaşan oxucuların əldə etdikləri kitablara həvəslə avtoqraf yazaraq onları imzalamasından belə bir qənaət hasil olurdu ki, əsərin mütaliəsinə həsr edilən saatlar, günlər hədər getməyəcək.

***Əli NƏCƏFXANLI,***
***"Xalq qəzeti"***

**Yaddaşlarda yaşayanlar**

# İki bölünməkdən elə qorxdu ki...

## *Stomatoloq, feldşer, filoloq, şair, siyasətçi, azadlıq mücahidi – Söhrab Tahir*



**Cənubi Azərbaycanın Sulduz şəhərində doğulub böyümüş, avropalıların "siyasi şair" adlandıraraq Norveçə dəvət etdiyi ( indi İsveçdə yaşayır) haqq aşığı Araz Elsəs redaksiyamızın qonağı idi. Onunla görüşdə ilk cümləm Söhrab Tahirin bir ifadəsi üstündə quruldu: "İki bölünməkdən elə qorxmuşam, Çöpü də ikiyə bölmərəm daha!" Əlavə etdim ki, mən bir xalqı iki əsrlik ayrılığa, həsrətə məruz qoymuş Araz sözündən elə qorxmuşdum ki, Araz adlı şəxslərdən də çəkinirdim. İndi Araz Elsəs adlı bir soydaşımız milyonların sevimlisinə çevrilib və əsrlərin səhvini düzəltmək üçün, həqiqətən, fədakarlıq edir.**

Araz Elsəs hazırlıqlı və hazırcavab adam olduğunu bir daha sübut etdi: "Amma Söhrab əmi bir şeirində yazmışdı ki, yaxşı ki, Araz var. Yoxsa kimdən şikayətlənər, kimə şeir yazardım?"

... Yadımdadır. Söhrab Tahirlə ilk görüşümüzdə – 1994-cü ildə onu Azərbaycan Dövlət Radiosunda aparıcısı olduğum "Səhər musiqili informasiya proqramı"na dəvət etmişdim. Verilişdə ona anası Nəsibə xanımın o taydan Bakıya gəldiyi günlərdə Azərbaycan ədəbi mühitində, ümumiyyətlə, cəmiyyətdə baş vermiş coşğunu xatırlatmışdım. Ana-balanın bir-birinə qovuşduğu həmin günlərdə mən orta məktəbin sonuncu sinifində oxuyurdum. Amma Söhrab Tahirin anasına həsr edilmiş 10-a qədər şeiri əzbər bilirdim.

Bu xatırlatmaya cavab olaraq şair əvvəl Tofiq Bayramın, sonra isə Əliağa Kürçaylının həmin hadisədən təsirlənib yazdıqları şeirlərdən bəndlər demişdi. Əliağa Kürçaylı yazmışdı:

***Daşa dönmüş ümidlər,***
***Duyğular cana gəlir.***
***Yola çıxın, igidlər,***
***Uzaqdan ana gəlir.***

Onu da xatırladım ki, mən radioda işləyəndə Söhrab müəllim o zamankı Ziyalılar Cəmiyyətinin Ağsaqqallar Şurasının üzvü idi və tez-tez görüşüb müsahibələr alırdım. Çoxsaylı tədbirlərdə birgə iştirak etmişdik.

2015-ci ilin payızında redaksiyamızda başqa bir cənublu qardaşımızın, mərhum əməkdaşımız Həsən Cabbarzadənin yubileyini qeyd edirdik. Xəstə olmasına baxmayaraq (o, həmin tədbirdən 8–9 ay sonra vəfat etmişdi) Söhrab müəllim də gəlmişdi. Tədbirdən əvvəl onunla ikilikdə bir neçə dəqiqə söhbət etdik. Daha doğrusu, təxminən, 20 il əvvəlki günləri yada saldıq. Tədbir başa çatandan sonra iş yoldaşlarımızdan biri böyük maraq və bir az da tələslə məndən soruşdu ki, Söhrab Tahirlə nə barədə danışırdınız?

– Təbrizdə işləmək istəyirəm, onu xahiş etdim, – deyə yersiz suala başdanedici bir zarafatla cavab verdim.

– Bəs o nə dedi?

– Dedi ki, Təbrizə söz verə bilmirəm, Ərdəbil olsaydı, kömək edərdim.

– Ayə, ağlın olsun, Ərdəbillə razılaş – deyə ağsaqqal məni "məzəmmətlədi".

O vaxt ağsaqqalın mənim adi zarafatımı ciddi şəkildə qəbul etməsindən kifayət qədər narahat olmuşdum... Zarafat etdiyimi bilsə, inciyə bilərdi. Axı Söhrab müəllimlə Vətən həsrətindən başqa nə barədə söhbət etmək olardı.

Həmin tədbirdən çox keçməmiş xəbər gəldi ki, Söhrab Tahir xəstəxanaya düşüb və bir qıçının kəsiləcəyi gözlənilir.

...Daha bir müddət keçəndən sonra, onu, bəlkə də, 10 gün ardıcıl gördüm. Mən Jurnalistlər şəhərciyindən işə gələndə avtobusdan Dövlət Bayrağı meydanında düşür, oradan redaksiyaya piyada gəlirdim. Söhrab müəllimi isə hər səhər bulvarın Azneft meydanından Kukla Teatrına tərəf oturmuş vəziyyətdə görürdüm. Bədəninin bir hissəsi kəsilib tullanılmış adam necə ola bilərdi ki? Amma özünü sındırmırdı.

...Bir gün ona köhnə iş yoldaşımıza etdiyim zarafatı və həmin zarafat haqqında Facebookda yazdığım cümləni xatırlatdım: "Sağalın, Söhrab müəllim, mən Ərdəbildə işləməyə razıyam. Yastığınız yüngül olsun!"

Gülümsədi: "İstək varsa, hər şeyə çatmaq mümkündür."

Onun 1926-cı ildə doğulub 2016-cı ildə vəfat etməsi də tale sürprizi kimi maraqlı idi, – may ayında dünyaya gəlib həmin ayda dünyadan getməsi diqqətçəkən idi. Daha maraqlısı isə onun Şimali Azərbaycana köçəndən sonra diş həkimi, feldşer, azadlıq mücahidi, filoloq, şair və nəhayət, ictimai-siyasi xadim olması idi.

Allah rəhmət eləsin!

**İttifaq MİRZƏBƏYLİ,**
**Rafiq SALMANOV (foto),**
**"Xalq qəzeti"**

# Ünlü sənətçilər panteonu Qəbələdə

## Ənənəvi yay festivalı davam edir



**Dünən Qəbələdə XIII Beynəlxalq Musiqi Festivalının açılış mərasimi olub. Avqustun 2-dək davam edəcək festival Heydər Əliyev Fondunun təşkilatçılığı, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin dəstəyi ilə keçirilir.**

Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunan budəfəki Qəbələ Beynəlxalq Musiqi Festivalında Azərbaycanla yanaşı, Böyük Britaniya, Estoniya, Litva, Polşa, Rusiya və Türkiyədən dünyaşöhrətli musiqiçilər – ifaçı və dirijorlar, musiqi kollektivləri iştirak edəcək.

Azərbaycanın Xalq artistləri Fərhad Bədəlbəyli və Murad Adıgözəlzadənin bədii rəhbərliyi ilə təşkil olunan XIII Qəbələ Beynəlxalq Musiqi Festivalının təntənəli açılışı "Viva Opera" adlı konsertlə baş tutacaq. Açılış konsertində Əməkdar artist Əyyub Quliyevin və Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin müşayiəti ilə solistlər - Xalq artistləri Dinarə Əliyeva (soprano), Əvəz Abdullayev (bariton), Samir Cəfərov (tenor), Yusif Eyvazov (tenor) və Əməkdar artist Səbinə Əsədova (mezzo-soprano) çıxış edəcəklər.

2009-cu ildən ənənəvi təşkil olunan festivalda bu dəfə də musiqisevərlər üçün maraqlı proqramlar təqdim ediləcək. Bir həftə ərzində klassik, kamera musiqisi və muğam axşamları təşkil olunacaq. Festival günlərində Bakı Kamera Orkestri, "Clarte" klarnet kvarteti, "Qaytağı" instrumental ansamblı, Litva Kamera Orkestri, Xalq artistləri Ənvər Sadıqov, Fərhad Bədəlbəyli, Gülnaz İsmayılova, Murad Adıgözəlzadə, Ülviyyə Hacıbəyova, Yeganə Axundova, Əməkdar artistlər Emil Əfrasiyab, Fuad İbrahimov, Fəridə Məmmədova, eləcə də istedadlı gənc solistlər, muğam ifaçıları çıxış edəcəklər. Xarici musiqiçilərdən Dmitri Sitkovetski (Böyük Britaniya, dirijor), Mixail Lidski (Rusiya, piano), Henri-David Varema (Estoniya, violonçel), Mariuş Patira (Polşa, violin) və digərlərinin də maraqlı ifaları ilə festivalı rövnəqləndirəcəklər.

Görkəmli Azərbaycan bəstəkarı Arif Məlikovun anadan olmasının 90 illiyi, tanınmış pianoçu Bella Davidoviçin 95, dahi bəstəkarlar Sergey Rahmaninovun 150 və İohannes Bramsın 190 illik yubileyləri də festival çərçivəsində xüsusi musiqi proqramları ilə qeyd ediləcək.

Festival günlərində M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasının "Gənclərə dəstək" layihəsi çərçivəsində gənc ifaçıların konserti, Mixail Lidski (piano) və Henri-David Varemanın (violonçel) ustad dərsləri də olacaq.

***"Xalq qəzeti"***

**Deməyi bizdən...**

# Dalan yollar – diqqətsiz qalan yollar

**Azərbaycanda bir çox sahələrdə olduğu kimi, yol infrastrukturunda da quruculuq işləri sürətlə davam edir, yeni magistrallar yaradılır, şəhərdaxili və kəndlərarası yollar təmir olunur, asfaltlanır. Paytaxt Bakıda da nəqliyyat kommunikasiyaları durmadan yenilənir, müasirləşdirilir.**





Lakin bu işlərin mərkəzdən bir qədər kənarda yerləşən qəsəbələri geniş əhatə etməməsi təəssüf doğurur. Şəhərdəki çoxzolaqlı, müasir yol infrastrukturunun fonunda gözdən uzaq olan və "unudulan" bərbad hala düşmüş kənd və qəsəbə küçələri olduqca miskin görünür.

Konkret olaraq söhbət Bakının Keşlə qəsəbəsinin Mətləb Ağayev və Bülbülə qəsəbəsinin Nəriman Nərimanov küçələrinin, bu ərazilərdəki dalanların bərbad şəraitindən gedir. Sözügedən ünvanlarda həm fərdi və ictimai nəqliyyatın, həm də piyadaların rahat hərəkəti üçün lazımi şərait yoxdur. Yağışlı-yağmurlu havalarda qəsəbə yolları xüsusilə keçilməz olur. Çala-çuxurlar gölməçəyə dönür, səkiləri sel basır, palçıq dizə çıxır. Bundan isə qocalar və uşaqlar daha çox əziyyət çəkirlər. Əcəmi metrostansiyasının II mikrorayona çıxışı da dağılıb.

Onu da deyək ki, bir çox şəhərətrafı yaşayış məntəqələrində də eyni vəziyyət hökm sürür. Son illərdə Bakıətrafında böyük yaşayış massivinə çevrilmiş Abşeron rayonunun Masazır qəsəbəsinin daxili yolları da piyada və maşınların gediş-gəlişi üçün çətinlik törədir. Yolların bir hissəsi asfaltlansa da qəbiristanlıq ətrafı küçələr dağılıb yaramaz vəziyyətə düşüb. Ümumiyyətlə, şəhərətrafı məntəqələrdə müəyyən işlər görülür, amma bu, necə deyərlər, kosmetik təsir bağışlayır. Yolların acınacaqlı vəziyyəti həm avtomobillərin sıradan çıxmasına səbəb olur, həm də piyadalarda ciddi əsəb gərginliyi yaradır.

Qarşıdan payız-qış mövsümü gəlir. Əlaqədar təşkilatlar qışa hazırlıq çərçivəsində yolların təmirinə diqqəti artırmaqla əhalinin məmnunluğunu yüksəldərlər.

***Elşən AĞALAR,***
***"Xalq qəzeti"***

SON SƏHİFƏ
# Xalq qəzeti
Xalqın qəzeti!
№ 159 (30275) 30 iyul 2023-cü il, bazar
veb-sayt: www.xalqqazeti.az

İdman xəbərləri

## Avropa birinciliyində 2 medal

**Rumıniyanın Ployeşti şəhərində keçirilən yeniyetmə boksçular arasında Avropa birinciliyində yarımfinal mərhələsinin döyüşləri keçirilib. Finala gedən yolda Azərbaycan millisinin 2 üzvü rinqə çıxıb.**



Ardıcıl 3 döyüşünü qələbə ilə başa vuran Elbrus Kərimli (54 kq) 1/2 finalda David Jiqjavinlə (Ukrayna) üz-üzə gəlib. Rəqib qələbə qazandığından boksçumuz yarışı bürünc medalla başa vurub.

İlkanə Əhmədova (+80 kq) da Avropa birinciliyini 3-cü pillədə bitirib. Rumıniyalı Denisa Manu ilə döyüşdə təmsilçimiz məğlub olduğundan rəqib finala yüksəlib.

Qeyd edək ki, 32 ölkədən 378 (260 oğlan, 118 qız) boksçunun qatıldığı Avropa birinciliyində final döyüşləri iyulun 30-da keçiriləcək.

## Ağırlıqqaldıranımızın xoş müjdəsi

**Rumıniyanın paytaxtı Buxarestdə keçirilən yaşı 20 və 23-ə qədər olan gənclər arasında ağır atletika üzrə Avropa birinciliyi davam edir. Yarışda 34 ölkədən 394 atlet (187 qadın və 207 kişi) iştirak edir. Medallar uğrunda mübarizəyə Azərbaycan yığma komandasının üzvləri də qoşulurlar.**




Bu gün onlardan Ömər Cavadov körpücük üzərinə çıxıb. O, yaşı 23-ə qədər olan atletlər arasında 73 kq çəki dərəcəsində qüvvəsini sınayıb.

Atletimiz birdən qaldırma hərəkətində 152 kq-ı ram edib və bu hərəkətdə Avropa birinciliyinin qalibi olub.

Cavadov təkana qaldırma hərəkətində 165 kq-ı qaldırıb və bu hərəkətdə 4-cü olub.

Toplam 317 kq (152+165) nəticə göstərən Ömər yekun sıralamada da 4-cü yeri tutub.

## Universiadada komandamızın ilk medalı

**Azərbaycan Çinin Çendu şəhərində keçirilən XXXI Yay Universiadasında ilk medalını qazanıb.**




48 kq-da mübarizə aparan cüdoçu Leyla Əliyeva bürünc mükafata sahib çıxıb.

Qeyd edək ki, universiadada Azərbaycanı 20 ali təhsil müəssisəsindən 18-27 yaş aralığında 87 atlet 16 idman növündə təmsil edir.

Avqustun 8-dək davam edəcək yarışda 113 ölkədən 6500 tələbə idmanın 18 növü üzrə 269 medal dəsti uğrunda mübarizə aparacaq. Yarışların təşkili üçün 49 arena ayrılıb.

***L.SABİRQIZI, "Xalq qəzeti"***

Texnologiya yenilikləri

## UNEC Webometricsdə də birinci oldu

***Dünya Universitetlərinin Webometrics reytinqinin (Webometrics Ranking of World Universities) 2023-cü il nəticələrinə əsasən, UNEC dünya universitetlərinin 10 faizliyində yer alaraq, ölkə üzrə ilk dəfə birinci yerə yüksəldi.***




Dünyanın 32 minə yaxın universitetlərinin reytinqini hazırlayan Webometrics-də UNEC son illərdə 15 min universiteti geridə buraxmış və hazırda inamla irəliləməkdədir. 2023-cü ilin birinci reytinq cədvəlində 3644-cü pillədə Azərbaycan üzrə ikinci yeri tutan UNEC, 6 aydan sonra 3196-cı pilləyə yüksələrək, ölkədə birinci oldu.

Qeyd edək ki, QS Dünya Universitetləri reytinqində də (QS World University Rankings) UNEC ölkə birincisi olmuşdu.

***Səadət RZAYEVA, "Xalq qəzeti"***

## NASA-nın canlı yayımları

***ABŞ Aerokosmik Agentliyi (NASA) kəşflərini və kosmos araşdırmalarını daha yaxşı nümayiş etdirmək üçün "NASA+" adlı platforma quracağını açıqlayıb.***




Kosmik agentlik hazırda öz saytında buraxılış və digər tədbirləri canlı yayımlasa da, "NASA+"da təkcə canlı yayımlar deyil, həm də orijinal video seriyalar və sənədli filmlərin kolleksiyaları təqdim ediləcək. Platforma hər kəs üçün pulsuz və reklamsız olacaq.

Yeni platforma iOS və android proqramları vasitəsilə mobil cihazlarda əlçatan olacaq. Həmçinin platformaya masaüstü və mobil brauzerlərdən, Apple TV, Fire TV kimi media pleyerlərindən də daxil olmaq mümkündür.

NASA-nın kommunikasiya ofisindən Mark Aktifd deyib: "Yeni yayım platforması ilə kosmosu sizə daha yaxın edəcəyik. NASA-nın havada və kosmosda naməlum obyektləri necə araşdırdığını, kəşflər vasitəsilə bəşəriyyətin xeyrinə etdiyi yenilikləri təqdim edəcəyik."

***Əfsanə ƏHƏDLİ, "Xalq qəzeti"***

Mədəniyyət xəbərləri



***Hollivud ulduzu Arnold Şvartseneger "Cəsarət" mükafatına layiq görülüb.***

Məşhur sənətçi və Kaliforniyanın keçmiş qubernatoru olan Şvartsenegerə mükafatı Los-Ancelesdəki Holokost Memorial Muzeyi təqdim edəcək.

O, bu mükafata antisemitizm və fanatizmə qarşı apardığı uzunmüddətli təbliğatına görə layiq görülüb. Arnold Şvartseneger eyni zamanda bu məramla keçirilən müxtəlif tədbirlərə mütəmadi olaraq maddi dəstək verib.

*

***ABŞ-ın Florida ştatının Mayami şəhərində Azərbaycana həsr olunmuş "Vətən nəğmələri" adlı konsert və Azərbaycan icması ilə görüş keçirilib.***



Tədbir Diaspora İş üzrə Dövlət Komitəsinin dəstəyi və Florida Azərbaycanlıları İcmasının təşkilatçılığı ilə baş tutub. Rəsmi hissədən sonra tarixi Vətənini dünyada təmsil edən, ABŞ-da yaşayan azərbaycanlı musiqiçi Xan Bəyli (Şirvan Ağabəyli) Azərbaycana həsr olunmuş "Vətənin nəğmələri" adlı solo konsertlə çıxış edib. Xan Bəylinin və onu müşayiət edən musiqiçi qrupunun ifası alqışlarla qarşılanıb.

***



***Müvafiq ekspert komissiyası Xalq rəssamı Natiq Əliyevin yumşaq materialdan (gildən) hazırlayaraq təqdim etdiyi "Aşıq Ələsgər" abidəsini təsdiqləyib.***

Natiq Əliyev bildirib ki, hazırda xalq şeirimizin ən böyük nümayəndələrindən olan sənətkarın heykəlin bürüncdən tökülməsi prosesi sürətlə davam etdirilir. Abidə yaxın zamanlarda tam hazır olacaq.

***Ə.DOSTƏLİ, "Xalq qəzeti"***

## "Google" yeni süni intellekt modeli təqdim edib

**ABŞ-da yerləşən "Google" qlobal texnoloji firması cümə günü robotların müəyyən hərəkətləri yerinə yetirməsi üçün görmə funksiyasını yerinə yetirən və dilləri tərcümə edən yeni süni intellekt (AI) modelini təqdim edib.**




"Robotics Transformer 2" (RT-2) adlanan model internetdəki mətn və şəkillər üzərində öyrədilmiş görmə-dillər üzrə fəaliyyət modelidir. O, ümumi ideyaları və anlayışları öyrənə və sonra robotun davranışını məlumatlandırmaq üçün bu bilikləri ötürə bilir. RT-2, həmçinin mürəkkəb düşünməni həyata keçirməyə imkan verir və robotun hərəkətlərini idarə etmək üçün konsepsiyaları ötürməklə yanaşı, çıxış robot hərəkətlərini təmin edir.

"Çat-bot"lardan fərqli olaraq, RT-2, məsələn, alma toplamaq və ya zibil atmaq kimi vəzifələri yerinə yetirə bilən robot üçün siqnalları təmin etmək qabiliyyətinə malikdir. Başqa sözlə, RT-2 ilə robotlar bizim kimi daha çox öyrənə bilir, öyrənilmiş anlayışları yeni situasiyalara köçürürlər. Bu model süni intellektdə irəliləyişlərin robot texnikasına necə sürətlə keçdiyini göstərməklə yanaşı, daha çox yeniliklər üçün böyük vədlər verir, həmçinin ümumi təyinatlı robotların fəaliyyətini təmin edir.

***M.HACIXANLI, "Xalq qəzeti"***

## "Twitter"in adı və loqosu yeniləndi

**Sosial media nəhəngi "Twitter"in loqosu və adı dəyişib. Şirkətin baş direktoru İlon Mask, sosial media platformasının klassik quş loqosunu "X" hərfi ilə əvəz edib.**



"Twitter" hesabının təsvir bölümünə "X.com" yazan Mask, proqramın ünvanının artıq "twitter.com"a yönləndirildiyini açıqlayıb. Dəyişiklik həmçinin mobil tətbiqlərə də gəlib. "Twitter"in son yenilənməsini endirən istifadəçilər cihazlarında quş loqosu əvəzinə "X"ı görəcəklər. İ.Mask "Twitter"in San-Fransiskodakı baş qərargahındakı lövhəyə yeni ad və loqonu əlavə edib.

Qeyd edək ki, şirkət daha əvvəl də lövhəni dəyişməyə çalışmışdı, lakin vergi departamentindən icazə alınmadığı üçün polis tərəfindən ləğv edilmişdi.

***Aytən NƏCƏFOVA, "Xalq qəzeti"***

Sağlamlıq

## Əsəbi necə qoruyaq?

***Əsəbləri sakitləşdirməyin müxtəlif yolları var. Buraya nəfəs məşqləri, meditasiya və yoqa kimi üsullar daxildir. Təbiət və təmiz hava da əsəblərə sakitləşdirici təsir göstərir.***



Psixiatr Mixail Kaştanovun sözlərinə görə, özünə qulluq və məşq kimi fiziki fəaliyyət sinirləri effektiv şəkildə sakitləşdirməyin yollarındandır. O deyib ki, xoşbəxtlikdən, əsəbləri sakitləşdirməyə kömək edən bir çox şey var.

**Tənəffüs məşqləri, meditasiya, yoqa və ya əzələlərin rahatlanması** diqqəti cəmləməyə, zehni sakitləşdirməyə və fiziki gərginliyi azaltmağa kömək edir.

**Təbiət** sinirlərə inanılmaz sakitləşdirici təsir göstərir. Parkda gəzinti, meşəyə səyahət və ya sadəcə, dəniz sahilində, yaşıllıqda oturmaq möcüzələr yaradır. Təmiz hava, təbiətdən gələn quş, su, yağış səsləri zehnə sakitləşdirici təsir göstərə bilər.

**Dost** vacib amildir. Bəzən ətrafınızda etibar edə biləcəyiniz birinin olması lazımdır. Stress zaman dostlardan, ailədən dəstək almaq çox faydalıdır.

**İdman** təkcə bədən üçün deyil, həm də ağıl üçün faydalıdır. Qaçış, rəqs, velosiped sürmə və ya yoqa kimi fiziki fəaliyyət stressi azalda və sinirləri sakitləşdirə bilər.

***Z.HÜSEYNLİ, "Xalq qəzeti"***

Proqnoz



## Külək əsəcək, leysan yağacaq

Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən **iyulun 30-da Bakıda və Abşeron yarımadasında** dəyişkən buludlu olacağı, arabir tutulacağı, gün ərzində əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecə və axşam yarımadanın bəzi yerlərində yağış yağacağı ehtimalı var. Arabir güclənən şimal-qərb küləyi əsəcək, gündüz mülayim şimal-şərq küləyi ilə əvəz olunacaq. Gecə 20-24°, gündüz 26-31° isti olacaq. Abşeron çimərliklərində dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 25-26°, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 26-27° isti olacaqAzərbaycanın rayonlarında əksər rayonlarda əsasən yağmursuz keçəcək. Lakin gecə və axşam bəzi dağlıq və dağətəyi rayonlarda arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı, şimşək çaxacağı ehtimalı var. Gecə və səhər dağlıq ərazilərdə duman olacaq. Arabir güclənən şərq küləyi əsəcək. Havanın temperaturu gecə 20-24°, gündüz 26-31°, dağlarda gecə 9-14°, gündüz 17-22° isti olacaq.

***Q. QASIMOV, "Xalq qəzeti"***

## ALLAH RƏHMƏT ELƏSİN

"Xalq qəzeti"nin kollektivi Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının sədri, Xalq artisti Şəfiqə Məmmədovaya qardaşı

**MƏMMƏD MƏMMƏDOVUN**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə bağsağlığı verir.

Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının katibləri – Xalq artistləri Vaqif Mustafayev, Oqtay Mirqasım, Səyavuş Kərimi, Ramiz Fətəliyev; Əməkdar incəsənət xadimləri Cəmil Quliyev, Müşfiq Hətəmov, Ayaz Salayev, Nəriman Məmmədov İttifaqın sədri Şəfiqə Məmmədovaya qardaşı

**MƏMMƏD MƏMMƏDOVUN**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə bağsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 4626
SİFARİŞ 1855
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Məsaim ABDULLAYEV

Çapa imzalanmışdır
00:00